Xalqın qəzeti!

# Xalq qəzeti

№ 127 (30243) 17 iyun 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


## Günün xəbəri

Azərbaycan əhalisinin sayı 10 milyon 143 min 521 nəfərə çatıb. Dövlət Statistika Komitəsi bildirir ki, əhalinin 54,6 faizi şəhər, 45,4 faizi kənd sakinlərindən, 49,8 faizi kişilər, 50,2 faizi isə qadınlardan ibarətdir.

# Birgə tarix, həmrəylik, qarşılıqlı dəstək

## Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana rəsmi səfəri

### *Rəsmi qarşılanma mərasimi*



**Azərbaycan Respublikasına rəsmi səfərə gələn Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iyunun 15-də rəsmi qarşılanma mərasimi olub.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda Pakistanın Baş nazirinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Pakistanın Baş nazirinə raport verdi.

Baş nazir Məhəmməd Şahbaz Şərif Azərbaycan əsgərlərini salamladı.

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

*(ardı 2-ci səhifədə)*

# Prezident İlham Əliyev İtaliyanın Azərbaycandakı səfirliyində olub, Silvio Berluskoninin vəfatı ilə əlaqədar başsağlığı verib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 16-da İtaliya Respublikasının ölkəmizdəki səfirliyində olub, İtaliya Respublikası Nazirlər Şurasının keçmiş Sədri Silvio Berluskoninin vəfatı ilə əlaqədar başsağlığı verib.**

Azərbaycan Prezidenti İlham Əliyev İtaliyanın ölkəmizdəki səfirliyinə gəldi.

İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri dövlətimizin başçısını qarşıladı.

Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazdı.

***AZƏRTAC***

## Ölkəmizdə 3-4 faiz illik iqtisadi artım gözlənilir




Səhifə ⇨ 8

## TAP-ın genişləndirilməsi Avropanın Azərbaycan qazına tələbatını ödəməyə yönəlib




Səhifə ⇨ 9

## Naxçıvandan Türkiyəyə dəmir yolu çəkiləcək



Səhifə ⇨ 9

## Hilallı bayraqların qürurlu əsgərləri



Səhifə ⇨ 6

## Sərhəddə toqquşma – Ermənistan və havadarları Ərdoğanın Bakı səfərini “hədəfə alır”



Səhifə ⇨ 7

## Milli Məclis 2023-cü il dövlət büdcəsinə əlavə və dəyişikiliyi təsdiqlədi



Səhifə ⇨ 12

## Azərbaycanda dərmanlar niyə bahadır?



Səhifə ⇨ 14

## Paşinyanın Bakıya möhtac etirafı

Səhifə ⇨ 6



## ABŞ Makronun əli ilə yeni iqtisadi birliyi zəiflətmək istəyir



Səhifə ⇨ 15

## Oxşar təxribat, eyni izlər…

Səhifə ⇨ 10



# Rəsmi qarşılanma mərasimi



(əvvəli 1-ci səhifədə)

Pakistan İslam Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyəti Pakistanın Baş nazirinə, Pakistan nümayəndə heyəti isə Azərbaycan Prezidentinə təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident İlham Əliyevin və Baş nazir Məhəmməd Şahbaz Şərifin qarşısından keçdi.

Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərif rəsmi foto çəkdirdilər.

**AZƏRTAC**

# İlham Əliyevin Məhəmməd Şahbaz Şərif ilə təkbətək görüşü



***İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif ilə təkbətək görüşü olub.***

**AZƏRTAC**

# Geniş tərkibdə Azərbaycan – Pakistan görüşü

**İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin geniş tərkibdə görüşü keçirilib.**



**Görüşdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

– Hörmətli cənab Baş nazir, mənim əziz qardaşım və hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə qəbul etməyə çox şadam. Mənim dəvətimi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm. Əminəm ki, səfəriniz ölkələrimiz arasında qardaşlıq münasibətlərini gücləndirəcək. Bu münasibətlər tərəfdaşlıq, dostluq və qardaşlıq üzərində qurulub. Biz elə indicə cənab Baş nazirlə ikitərəfli münasibətlərimizin geniş gündəliyini müzakirə etdik və bir daha ölkələrimizin suverenliyinə, ərazi bütövlüyünə güclü dəstəyimizi ifadə etdik. Mən cənab Baş nazirə Azərbaycanın ərazi bütövlüyünə və işğal vaxtında, İkinci Qarabağ müharibəsində və ərazi bütövlüyümüzü bərpa etdikdən sonra göstərilmiş dəstəyə görə minnətdarlığımı bildirdim. Biz Kəşmir məsələsində Pakistanın mövqeyini ciddi dəstəklədiyimizi bir daha ifadə edirik və bütün beynəlxalq təsisatlarda bu mövqeyi açıq şəkildə dəstəkləyirik və dəstəkləməyə davam edəcəyik.

Bu gün biz ticarət və iqtisadi əməkdaşlığımıza, enerjiyə, daşımalara, müdafiə sənayesinə aid mühüm məsələləri geniş şəkildə müzakirə etdik. Biz bu formatda müzakirələrimizi davam etdirəcəyik. Əminəm ki, səfər nəticəsində müxtəlif sahələr üzrə yeni əməkdaşlıq proqramını işləyib hazırlayacağıq və o, bizim tərəfdaşlığımızı daha da gücləndirəcək.

Cənab Baş nazir bir daha xoş gəlmisiniz.

***

**Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif dedi:**

– Təşəkkür edirəm, mənim qardaşım Prezident İlham Əliyev. Sizinlə bir daha görüşmək mənim üçün böyük şərəfdir. Burada əyləşənlər qardaş və bacılardır. İcazə verin, əvvəlcə bunu deyim, mənim qardaşım Baş nazir Nəvaz Şərif mənə dünən dedi ki, siz Bakıya gedəcəksiniz, mənim səmimi salamlarımı qardaşım Prezident Əliyevə çatdırın. O dedi ki, Şahbaz, Bakını görmək səndə böyük təəssürat yaradacaq. Cənab Prezident, bu, məndə, sadəcə təəssürat yaratmayıb, dərin təəssürat yaradıb. Mənim ötən gecədən etibarən gördüklərim Sizin baxışınızı, liderliyinizi və bu illər ərzində ölkənizi qurmaq üçün göstərdiyiniz dinamik səyləri əks etdirir. Mən ziddiyyətdən çəkinməyərək deyə bilərəm ki, indiyədək Bakıda gördüklərimin müqayisəsini apara bilərəm. Siz bu şəhəri dünyanın hər hansı ən inkişaf etmiş, gözəl şəhəri ilə müqayisə edə bilərsiniz. Burada heç bir mübaliğə yoxdur. Mənim gündəlik üzrə qaldırmağı nəzərdə tutduğum məsələlərdən biri o idi ki, istəyirdim ən yaxşı landşaft mütəxəssislərini Pakistana göndərəsiniz. Landşaft gözəldir, mənə inanın, mən heyran olmuşam.

**Prezident İlham Əliyev:** Təşəkkür edirəm.

**Baş nazir Məhəmməd Şahbaz Şərif:** Bu gün mən dahi atanızın məzarını ziyarət etdim. Deməliyəm ki, Sizin gördüyünüz böyük işlər sayəsində onun ruhu çox şad olmalıdır. Sizi təbrik edirəm. Düşünürəm ki, mənim Bakıya səfərim çox mühüm əhəmiyyət kəsb edir. Hesab edirəm ki, İslamabada qayıdanda, dövlət xidməti sahəsində belə bir liderin addımlarından çox şey öyrənmiş olacağam.

Qardaşım Prezident, biz iki qardaş ölkəyik. Bizim əlaqələrimiz qarşılıqlı etimad, hörmət və hədsiz səmimiyyət üzərində qurulub. Siz hər zaman Kəşmir məsələsini dəstəkləmisiniz və Pakistanın yanında olmusunuz.

***

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Nəvaz Şərifə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

# Azərbaycan Prezidenti və Pakistan Baş naziri mətbuata bəyanatlarla çıxış ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

## Prezident İlham Əliyevin bəyanatı



– Hörmətli cənab Baş nazir, hörmətli qardaşım.

Xanımlar və cənablar, Azərbaycana xoş gəlmisiniz!

Mən çox şadam ki, əziz qardaşım Azərbaycanda səfərdədir. Bizim münasibətlərimiz iki qardaş ölkə arasında olan münasibətlərdir. Bizim Baş nazirlə təmaslarımız müntəzəmdir. Biz ötən il müxtəlif beynəlxalq tədbirlər çərçivəsində iki dəfə görüşmüşük. Mən minnətdaram ki, cənab Baş nazir dəvətimi qəbul edib və ölkəmizə rəsmi səfərə gəlib.

Ölkələrimiz arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Biz Pakistana minnətdarıq ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib.

Pakistan Ermənistan ilə diplomatik münasibətlər qurmayan ölkədir və bu, məhz işğal səbəbindən baş vermişdir. Bu isə qardaş ölkə mövqeyidir, buna görə mən minnətdaram.

Bu gün mən cənab Baş nazirə Azərbaycan və Ermənistan arasında sülh sazişi üzərində hazırda gedən danışıqlarla bağlı məlumat verdim. Bu sazişin imzalanmasının perspektivləri var, sadəcə olaraq, Ermənistan siyasi iradə nümayiş etdirməlidir və artıq rəsmi olaraq bəyan etdiklərini kağız üzərində həkk etməlidir ki, Qarabağ Azərbaycandır!

Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır.

Azərbaycan xalqı çox gözəl bilir ki, 44 günlük müharibə dövründə kim bizimlə bir yerdə idi. Bu, Türkiyə və Pakistan idi. Hər iki ölkə müharibə zamanı ciddi siyasi dəstək nümayiş etdirdi.

Bu gün biz ikitərəfli gündəliyimizə daxil olan bir çox məsələləri, eyni zamanda, regional prosesləri, regional təhlükəsizlik məsələlərini müzakirə etdik. Bizim irəliyə getməyimizlə bağlı tam aydın təsəvvürümüz var. Biz razılığa gəldik ki, artıq Azərbaycandan bir neçə nümayəndə heyəti Pakistana səfər edəcəkdir. Biri ticarət və sərmayə məsələsi, növbəti nümayəndə heyəti enerji məsələsi ilə məşğul olacaq, üçüncüsü isə müdafiə sənayesi sahəsində əməkdaşlığı nəzərdən keçirəcəkdir.

Biz, eyni zamanda, razılığa gəldik ki, ticarətimizin həcmini artırmaq üçün daha ciddi səylər göstərək. Biz bu istiqamətdə anlaşma memorandumu imzalayacağıq və məhsulların siyahısı üzərində işləyəcəyik ki, həmin siyahı bizim ticarət dövriyyəmizin artırılmasına xidmət edəcək.

Əlbəttə ki, enerji sahəsində böyük perspektivlər var, istər ənənəvi enerji, istərsə də bərpaolunan enerji sahəsində. Biz, eyni zamanda, razılığa gəldik ki, şəhərlərimiz arasında uçuşların sayını artıracağıq, xüsusilə də paytaxtlar arasında. Bu isə görüşümüzün, bu səfərin yaxşı nəticəsi olacaqdır.

Biz bununla yanaşı, təhsil sahəsində böyük potensialı görürük. Bu gün Azərbaycanda Pakistandan olan 750 tələbə təhsil alır və bu prosesin necə sürətlə getdiyinə baxsaq görərik ki, ötən il sadəcə 100 tələbə təhsil alırdı. Yəni, biz daha çox pakistanlı qardaşlarımızı burada görmək istəyirik. Eyni zamanda, Pakistanda təhsil alan azərbaycanlılar da var. Bu gün onlar müxtəlif sahələrdə təhsil alaraq, qayıdıb ölkəmizə töhfələrini verirlər.

Eyni zamanda, biz müdafiə sənayesi sahəsində əməkdaşlığı müzakirə etdik. Artıq qeyd etdiyim kimi, birgə hərbi təlimlərin sayının artırılması məsələsini müzakirə etdik, buna ehtiyac var. Çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik nöqtələri artır, ona görə də güclü hərbi potensial müstəqilliyin və ərazi bütövlüyünün qarantıdır.

Bildiyiniz kimi, Azərbaycan 30 il ərzində Ermənistanla danışıqlarda iştirak edirdi və bu danışıqlar heç bir nəticə vermədi. Yalnız bizim hərbi gücümüz və Azərbaycan Ordusunun əzmi ərazi bütövlüyümüzü bərpa etdi. Bu, danışıqlar və ya hər hansı bir vasitəçilik hesabına baş vermədi. Əksinə, həmin vasitəçilik səyləri vəziyyətin dondurulmasına gətirib çıxarmışdı. Biz bununla qəti razı olmadıq. Biz ərazi bütövlüyümüzü bərpa etdik, torpaqlarımızı 3 min övladımızı şəhid verərək döyüş vasitəsilə aldıq.

Biz görürük ki, beynəlxalq hüquq selektiv şəkildə tətbiq edilir. BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri icra edilir, digərləri yox. Biz hər ikimiz bunu yaxşı bilirik. Ona görə, ərazi bütövlüyü, təhlükəsizlik və firavanlıq, əlbəttə ki, Sizin ölkənin iqtisadi və hərbi gücü ilə bağlıdır. Bütün bu məsələlərdə bizim qarşılıqlı tam anlaşmamız var. Pakistan və Azərbaycan hər zaman çiyin-çiyinə dayanan ölkələr olubdur. Daha mühüm amillərdən biri odur ki, xalqlarımız da öz rəhbərliyinin fikrini bölüşür və Bakının müxtəlif yerlərində Pakistan bayraqlarını görə bilərsiniz. Bu, İkinci Qarabağ müharibəsi dövründə asılmış bayraqlardır. İki il yarım bundan öncə müharibə başa çatsa da, burada Pakistan bayraqları hələ də dalğalanır. Bu, xalqımızın münasibətidir və biz eyni münasibəti Pakistan xalqından da görürük.

Cənab Baş nazir, səfərə gəldiyinizə görə Sizə bir daha təşəkkür edirəm. Mən Sizinlə görüşlərimizi hər zaman məmnunluqla xatırlayıram və biz bütün məsələləri müzakirə edirik. Eyni zamanda, Pakistan xalqını da təbrik etmək istəyirəm ki, Sizin kimi böyük təcrübəyə və siyasi baxışlara malik olan insanı hakimiyyətə gətirib. Siz ölkənizin inkişafına bağlı olan insansınız və onun müstəqilliyini gücləndirmək üçün səy göstərirsiniz. Əminəm ki, Sizin rəhbərliyinizlə Pakistan və qardaş Pakistan xalqı daha da böyük uğurlar, nailiyyətlər əldə edəcəkdir.

Sizə və xalqınıza firavanlıq, xoşbəxtlik və sülh arzu edirəm. Təşəkkür edirəm.

***

Sonra Pakistanın Baş naziri bəyanatla çıxış etdi.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Respublikasının səhiyyə işçilərinin təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32 ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında səhiyyə sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Hafiz Ağalar oğlu
Cəlilov Etibar Yəmli oğlu
Əkbərli Azər Aprel oğlu
Əliyeva Yeganə Agabala qızı
Əsgərov Niyazi Mustafa oğlu
Hüseynova Laləxanım Muxtar qızı
Kərimov Müşfiq İsrafil oğlu
Qurbanov Tərlan Məhəmməd oğlu
Məmmədov Asəf Mayıl oğlu
Məmmədova Sevil Vahid qızı
Nağdalıyev Nəriman Məmməd oğlu
Namazova Hicran Kamal qızı
Paşayeva Aybəniz Abil qızı
Salehova Gülbəniz Qara qızı.

**2.** Azərbaycan Respublikasında səhiyyə sahəsində xüsusi xidmətlərinə və yüksək peşəkarlığına görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

### "Əməkdar həkim"

Əzizov Fazil Əziz oğlu
Hacıyev Arif Həmzə oğlu
Mehdiyev Əkbər İsmayıl oğlu
Məhərrəmova Frəngiz Əmirxan qızı
Nurəliyeva Aynaxanım Nuri qızı
Soltanov Əhədağa Mirağa oğlu

### "Əməkdar tibb işçisi"

Bağırova Sürmə Kərim qızı
Frolova Alla Əbdul Axatovna
Qulamova Bahar Vaqif qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyun 2023-cü il**

## Baş nazir Məhəmməd Şahbaz Şərifin bəyanatı



(əvvəli 2-ci səhifədə)

– Əziz Qardaşım, cənab Prezident Əliyev.

Əvvəlcə onu qeyd etmək istəyirəm ki, biz gözəl ölkənizə ötən axşam gəldiyimiz andan etibarən hər bir məqamda mən çox yaxşı mənada təəccüblənirəm. Mənim qardaşım Nəvaz Şərif o vaxt mənə demişdi Bakıya gedəndə sən bunu görəcəksən ki, nə qədər gözəl şəhərdir. Ötən gün biz Bakıya axşam saatlarında gəldik. Bu gün səhər mən Sizin böyük atanız Heydər Əliyevə hörmətimi ifadə etmək üçün Fəxri xiyabanda oldum. Hesab edirəm ki, Siz onun layiqli oğlusunuz. Fəxri xiyabanı ziyarət etmək mənim üçün böyük şərəf idi.

Əminəm, dahi atanızın ruhu şaddır ki, Sizin rəhbərliyinizlə gözəl ölkəniz və xalqınız inkişaf edir.

Eyni zamanda, biz Şəhidlər xiyabanında da olduq. Orada bu ölkə uğrunda həyatını qurban verənlərin də ruhuna ehtiramımı bildirdim. Əziz qardaşım, buraya gələndə yolboyu gördüklərim məndə çox dərin təəssürat yaradıb. Sizin gərgin əməyiniz və rəhbərliyiniz sayəsində ölkənizdə böyük işlər görülüb. Mən İslamabada qayıtmamışdan öncə Sizdən bir neçə xahiş edəcəyəm. Bizim şəhər planlaşdırılması və yaşıllaşdırma sahəsində sizin təcrübənizə ehtiyacımız var. Şəhəriniz son dərəcə təmizdir, tullantıların emalı məsələsi, yəni, bu sahələrdə bizim sizin təcrübənizə ehtiyacımız var. Həqiqətən də mən çox şadam və məmnunam ki, ölkəniz bu cür inkişaf edib.

Cənab Prezident, biz bu gün çox səmərəli danışıqlar apardıq. Əlbəttə, kamera qarşısında demək istəyirəm ki, bizim ikitərəfli danışıqlarımızda da bütün məsələlər üzrə qarşılıqlı anlaşma hökm sürür, istər ikitərəfli, istər çoxtərəfli məsələlərdə mövqelərimiz üst-üstə düşür.

Pakistan və Azərbaycan iki qardaş xalqdır. Bizim münasibətlərimiz qarşılıqlı dəstək, səmimiyyət və ehtiram üzərində qurulub. Təyyarə Bakı hava limanına enərkən mən gördüm ki, orada Pakistan bayrağı dalğalanırdı, hətta hava limanından kənarda da. Nümayəndə heyətinin üzvü mənə dedi ki, cənab Baş nazir, baxın, kənarda belə Pakistan bayrağı dalğalanır. Bu, Azərbaycanda Pakistana olan münasibətdir və eyni dərəcədə Pakistan xalqı da Azərbaycan xalqını sevir, qardaş və bacı olaraq. Siz də uzaqgörən lider olaraq bu işə öz töhfənizi vermisiniz. Tam səmimi olaraq deyə bilərəm ki, əsrlər boyu davam edən bu münasibətlər çox güclüdür. Amma təəssüflər olsun ki, bu gün bizim ticarətimiz və sərmayə yatırımlarımız həmin o münasibətlər səviyyəsində deyil. Qarşılıqlı əməkdaşlıq sahəsində daha çox işlər görə bilərik və bilirəm ki, cənab Prezident, Siz bunu artırmaq niyyətindəsiniz, biz də onun əzmindəyik. Cənab Prezidentlə bu gün görüşdə biz xüsusi sahələrdə bu münasibətləri daha da inkişaf etdirmək məsələsini müzakirə etdik.

Azərbaycan zəngin təbii sərvətlərə, o cümlədən böyük neft-qaz sərvətlərinə malikdir. Bizim, əlbəttə, bu sahədə sıxıntımız var. Biz çox bahalı idxala bağlı olan ölkəyik. Bu, bizim üçün çox baha başa gəlir. Ötən il biz bu sahəyə 27 milyard ABŞ dolları xərcləmişik. Yəni, əziz qardaşım, biz bunun öhdəsindən gələ bilmirik, çünki müxtəlif çağırışlarla üz-üzəyik. İnflyasiya, idxal olunan neftin qiymətinin qalxması və Ukrayna münaqişəsi səbəbindən bizim ölkəmiz böyük təzyiqlə üz-üzədir. Təsəvvür edin, ona görə biz enerjiyə 27 milyard ABŞ dolları xərcləmişik. Maşallah, Azərbaycanın bu sərvəti var və biz Azərbaycanla, eyni zamanda, neft-kimya məhsulları sahəsində əməkdaşlıq etmək istəyirik. Biz Səudiyyə Ərəbistanının "Aramco" şirkəti ilə danışıqlar aparırıq və çox şad olarıq ki, Azərbaycan da bu məsələyə qoşulsun və bizim həmin bu sahəyə xərclədiyimiz pulun bir hissəsini sərmayə olaraq öz üzərinə götürsün. Bizim Günəş enerjisi sahəsində potensialımız var. Biz arzularımızı gərgin əmək sayəsində həyata keçirə bilsək, əziz Qardaşım, Sizi inandırıram ki, biz çox bahalı olan bu xərci, yəni, nefti idxal etmək məsələsini Günəş enerjisi vasitəsilə mübadilə edə bilərik. Biz hətta bu enerjini ixrac edə bilərik, bu, mümkündür. Çünki bizim bu sahədə potensialımız 10 min meqavata bərabərdir. Sizi də dəvət edirəm. Siz də bu məsələyə çox müsbət rəy verdiniz ki, bu sahədə də Azərbaycan iştirak edə bilər, sərmayə qoya bilər. Biz də hər cür dəstək göstərməyə hazırıq ki, Azərbaycan bu sahəyə daxil olsun.

Əlbəttə ki, Pakistan Azərbaycana düyü ixrac edən ölkədir. Mənim nümayəndəm buradadır, o da bu işdə çox intensiv çalışır ki, biz düyü ixracını artıra bilək. Sizə və Hökumətinizə təşəkkür edirəm, hər cür rüsumları aradan qaldırdınız ki, Pakistan düyüsü Azərbaycan bazarına maneəsiz ixrac edilsin. İnşallah, Pakistanın Basmati düyü brendi də Azərbaycanda supermarket şəbəkələrində təqdim olunacaq.

Nəqliyyat sahəsi, biz bu məsələni yenidən müzakirə edəcəyik. Eyni zamanda, biz turizm sahəsini də inkişaf etdirmək istəyirik. Mən çox məmnuniyyətlə qeyd edə bilərəm ki, "Azərbaycan Hava Yolları" – AZAL tezliklə Bakıdan İslamabada uçuşlara başlayacaq. Əlbəttə, "Pakistan Beynəlxalq Hava Yolları" da əməkdaşlıq edəcəkdir. Mənim bildiyimə görə, Kəraçi və Lahora da reyslər açıla bilər. Mən Azərbaycanın nəqliyyat nazirini də Pakistana səfərə dəvət edirəm ki, bu məsələləri müzakirə edək və bu sahədə turizmi inkişaf etdirək.

Bununla yanaşı, digər sahələr də var ki, biz orada daha sıx əməkdaşlıq edə bilərik. Sizi əmin edirəm ki, biz Sizinlə sıx şəkildə işləməyə hazırıq və bütün məqsədlərimizə nail ola bilərik.

Təşəkkür edirəm Sizə, cənab Prezident, Siz Kəşmir məsələsində hər zaman bizim bacı-qardaşlarımızın yanında olmusunuz. Son 70 ildən artıq bir dövrdə biz Hindistanın terror aktlarına, misilsiz zorakılığına məruz qalmışıq. Orada hər cür pozuntular baş veribdir. BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri hətta o dərəcədə kobud şəkildə pozulmuşdu ki, vaxtilə – ötən əsrin 50-ci illərində cənab Nehru öz parlamentində söz vermişdi ki, Hindistan öz vədlərinə əməl edəcəkdir. Amma təkcə o vəd deyil, ondan sonra bir sıra öhdəliklər tarixin zibilliyinə göndərilmişdir. Onların törətdiyi vəhşilik minlərlə kəşmirli bacı-qardaşımızın həyatına son qoymuşdur, onlar şəhid olmuşdur. Hətta iki-üç yaşlı uşaqlar belə qətlə yetirilmişdir. Hər gün həmin ərazidə mülki insanların cəsədlərini görmək mümkündür.

Cənab Prezident, Sizə mənəvi dəstəyə görə təşəkkür edirəm. Bu, bizim üçün çox dəyərlidir və bizi, kəşmirli bacı-qardaşlarımızı ruhlandırır ki, onlar özlərinin müqəddəratlarının təyin edilməsi məsələsinə də bir gün nail olacaqlar, İnşallah.

Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Biz Qarabağ üzərində Azərbaycanın hüququnu hər zaman birmənalı dəstəkləmişik. Sizin ordunuz çox cəsarətlə döyüşərək Qarabağı azad etmişdir, ölkənizin ərazi bütövlüyünü bərpa etmişdir. Pakistan Azərbaycanı hər zaman dəstəkləmişdir. Bu, bizim qardaş olaraq vəzifəmiz, borcumuz idi və biz bunu həyata keçirdik.

Məmnunam ki, Ermənistanla sülh sazişi üzərində artıq danışıqlar gedir. Bildiyiniz kimi, Pakistan Ermənistanla diplomatik münasibətlər qurmayan bir neçə ölkədən biridir və bu, bizim mənəvi öhdəliyimizdir. Siz yalnız Ermənistanla sülh sazişini imzalayandan sonra bizə bir mesaj versəniz, bu məsələyə yenidən baxa bilərik. Bu məsələdə də biz birmənalı olaraq Azərbaycanı dəstəkləyirik.

Əziz Qardaşım, bizim çox böyük imkanlarımız var. Bu əməkdaşlıq nəticəsində idxal-ixracımız da çox kəskin şəkildə artacaqdır. Azərbaycan Pakistanla münasibətlərdə təbii olaraq çox mühüm rol oynaya bilər, əlbəttə ki, bizim qonşuluğumuzda Əfqanıstan və İran var. Hesab edirəm ki, Çin daha bir mühüm oyunçudur. Yəni, Pakistan bu baxımdan Azərbaycan və Türkiyə ilə birlikdə qardaş ölkə olaraq hərəkət edə bilər. Pakistan, Azərbaycan, Səudiyyə Ərəbistanı yenə də qardaş ölkələrdir. Pakistan, Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri qardaş ölkələrdir. Pakistan, Azərbaycan, Qətər qardaş ölkələrdir. Yəni, baxın nə qədər böyük işlər görmək olar. Biz Pakistan olaraq səylərimizi bir balaca artırmalıyıq. Biz daha fəal, daha çox enerji ilə işləməliyik. Sizi əmin edirəm ki, biz bu məsələdə bir yerdə irəliləyəcəyik.

Biz müdafiə sənayesi sahəsində də tərəqqiyə nail ola bilərik. Heç şübhəm yoxdur ki, bizim əməkdaşlığımız bu sahədə də inkişaf edəcəkdir. Burada heç bir sirr yoxdur, biz heç nəyi gizlətmirik. Çünki nəticə etibarilə bu, regionda sülhün təmin edilməsinə xidmət edir, bu, təcavüz üçün istifadə edilmir. Biz öz hüquqlarımızı qoruyuruq. Biz bu regionda sülhü təşviq edirik ki, xalqlarımızın mənafelərini qoruya bilək. Biz bu sahədə də əməkdaşlığı səbirsizliklə gözləyirik. Sizin nümayəndə heyətinizi İslamabadda məmnuniyyətlə qəbul edəcəyəm ki, bu sahədə daha intensiv əlaqələr yaradıla bilsin. İqtisadiyyat, kommersiya, ticarət, aviasiya sahələrində də nümayəndə heyətinizi gözləyirik. Biz, eyni zamanda, enerji sahəsində də Sizin nümayəndə heyətinizi gözləyirik ki, bu sahəyə, neft, neft-kimya və Günəş enerjisi sahələrinə sərmayə cəlb edə bilək. Sizi əmin etmək istərdim ki, bu, ən şəffaf münasibətlər olacaq, proses sürətlə gedəcək, biz vaxt itirməyəcəyik və bütün bürokratik maneələri aradan qaldıracağıq. Biz bu məsələlərdə də sübut edəcəyik ki, budur iki qardaş ölkə, biz xalqlarımızın mənafeyi naminə birlikdə daha böyük nailiyyətlər əldə edə bilərik.

Qonaqpərvərliyə görə bir daha təşəkkür edirəm, cənab Prezident, gözəl ölkənizdə olmağa şadam. Bu imkanı bizə yaratdığınız üçün Sizə bir daha təşəkkür edirəm. Mən şəxsən Sizin bütün nailiyyətlərinizin şahidi oldum, Sizin rəhbərliyinizlə bu ölkədə nə işlər görülüb, onu da öz gözlərimlə gördüm. Mən bu fürsətdən istifadə edərək, cənab Prezident, Sizi Pakistana səfərə dəvət edirəm. Mən artıq Xarici İşlər Nazirliyinə göstəriş vermişəm ki, tarixlərlə bağlı danışıqlar aparılsın və böyük məmnuniyyətlə Sizi İslamabadda görməyə şad olacağam, İnşallah! Diqqətinizə görə təşəkkür edirəm.

***AZƏRTAC***

# Azərbaycan Prezidentinin adından Pakistanın Baş nazirinin şərəfinə rəsmi lanç verilib



***İyunun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin şərəfinə rəsmi lanç verilib.***

***AZƏRTAC***

# "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqının böyük keçmişini özündə təcəssüm etdirən tarixi yaşayış məntəqələrindən biri Qafqaz Albaniyasının qədim irsinə aid mədəniyyət abidələrinin mövcud olduğu Tuğ kəndidir. Burada Qarabağ bölgəsinin ənənəvi memarlıq üslubuna xas dekorativ elementlərlə işlənmiş yaşayış evləri, bulaqüstü tikililər, sənduqə tipli qəbirlər və məbədlər vardır. Tuğ kəndi eyni zamanda zəngin təbii potensiala və ekoloji resurslara malikdir. Şuşa şəhərinə aparan Zəfər yolu üzərində yerləşməsi kəndin turizm baxımından inkişaf perspektivini də artırır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Xocavənd rayonu Tuğ kəndinin tarixi əhəmiyyətini nəzərə alaraq, ətraf ərazilərdə mədəni və təbii irsin kompleks şəkildə qorunması, habelə burada turizmin inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Xocavənd rayonunun Tuğ kəndinin tarixi ərazisi "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğu (bundan sonra – Qoruq) elan edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

2.1. Qoruğun sərhədlərini və mühafizə zonasını müəyyənləşdirib təsdiq etsin;

2.2. Qoruğun ərazisinin xüsusi rejimini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. Qoruğun maddi-texniki təminatı ilə bağlı zəruri tədbirlər görsün;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi:

3.1. Qoruğun idarə olunmasını təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

4. Qoruğun fəaliyyəti ilə bağlı tələb olunan zəruri xərclər Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 iyun 2023-cü il**

# Birinci vitse-prezident Mehriban Əliyeva 15 İyun Milli Qurtuluş Günü ilə bağlı paylaşım edib

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində 15 İyun - Milli Qurtuluş Günü ilə bağlı paylaşım edib.**




Mehriban xanım Əliyeva ümummilli lider Heydər Əliyevin fotoşəklini və "Mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət etmək olmuşdur" sözlərini paylaşıb.

***AZƏRTAC***

## Məhəmməd Şahbaz Şərif Ulu öndərin məzarını ziyarət edib



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də Fəxri xiyabana gəlib.**

Məhəmməd Şahbaz Şərif xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, abidəsi önünə əklil qoyub.

***AZƏRTAC***

## Şəhidlərin xatirəsinə ehtiram



**Azərbaycan Respublikasında rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də Şəhidlər xiyabanını ziyarət edib.**

Pakistanın Baş naziri “Əbədi məşəl” abidəsinin önünə əklil qoydu.

Pakistanın Baş nazirinə Şəhidlər xiyabanının tarixi və şəhərdə görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

***AZƏRTAC***

## Azərbaycan ilə Pakistan arasında ticarət sahəsində Anlaşma Memorandumu imzalanıb



**İyunun 15-də Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov, Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev, Energetika naziri Pərviz Şahbazov və Pakistandakı səfirimiz Xəzər Fərhadov ölkəmizdə rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə Azərbaycan–Pakistan tərəfdaşlığının inkişafı məsələləri müzakirə edilib. Vurğulanıb ki, iki dost və qardaş ölkə arasında əlaqələr qarşılıqlı etimad şəraitində möhkəmlənir, müxtəlif sahələrdə münasibətlər yüksələn xətlə inkişaf edir.

Söhbət zamanı Azərbaycan–Pakistan tərəfdaşlığının iqtisadi əlaqələrimizin şaxələndirilməsi üçün yaratdığı imkanlar, birgə layihələrin reallaşdırılması perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Görüş çərçivəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Ticarət Nazirliyi arasında ticarət sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənəd iki ölkə arasında ticarət əlaqələrinin dərinləşdirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi məsələlərini əhatə edir.

***AZƏRTAC***

## Hörmətli qonaq İçərişəhərdə

**Azərbaycanda rəsmi səfərdə olan Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif iyunun 15-də dünya mədəni irs abidələri sırasında yer alan İçərişəhərlə tanış olub.**

Ali qonağın İçərişəhərə gəzintisi Qız qalası ilə tanışlıqdan başlayıb. Pakistanın Baş nazirinə Qız qalasının tarixi barədə məlumat verilib.

Elektromobillə gəzinti zamanı ali qonağa UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlıq və bərpa işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, İçərişəhər ərazisində müxtəlif əsrlərə aid nadir tarixi memarlıq abidələri qorunub saxlanılır.

İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinə də baş çəkən qonağa hədiyyələr təqdim olunub.

İçərişəhərlə tanışlıq Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifdə xoş təəssürat yaradıb.

***AZƏRTAC***



## Pakistanın Baş nazirinin Azərbaycana rəsmi səfəri başa çatıb



**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına rəsmi səfəri iyunun 15-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Baş nazir Məhəmməd Şahbaz Şərifi hava limanında Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

## Heydər Əliyev Mərkəzində təqdimat

**Milli Qurtuluş Günü ərəfəsində – iyunun 14-də Heydər Əliyev Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan və bir neçə təqdimatı özündə birləşdirən tədbir keçirilib.**



2023-cü il ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə yanaşı, həm də hakimiyyətə qayıdışının 30 illiyinə təsadüf edir. Bu əlamətdar tarix münasibətilə Mərkəzdə “Heydər Əliyev – 100” instalyasiyasının, “Böyük insanın ömür anları” fotoalbomunun və “İz” sənədli filminin təqdimatları olub.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, Milli Məclisin sədri Sahibə Qafarova və digər rəsmi şəxslər iştirak ediblər.

Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov çıxış edərək tədbirin əhəmiyyətindən danışıb. Bildirib ki, “İz” sənədli filminin ilk təqdimatı “Xarıbülbül” Beynəlxalq Musiqi Festivalı çərçivəsində Şuşada

Təqdimatdan sonra çıxış edən Xalq rəssamı Fərhad Xəlilov əsər haqqında təəssüratlarını bölüşərək deyib: “Bu, çox gözəl, nümunəvi bir əsərdir. Bu əsər Azərbaycanın ulu öndəri Heydər Əliyevə yaraşır, müasir sənət əsəri kimi diqqətəlayiqdir”.

Sonra tədbir iştirakçıları “Heydər Əliyev – 100” instalyasiyası və “Böyük insanın ömür anları” fotoalbomu ilə tanış olublar.

Tədbirdə Əməkdar incəsənət xadimi Ayaz Salayev “İz” sənədli filminin ərsəyə gəlməsi barədə fikirlərini bölüşüb. Bildirilib ki, filmdə ulu öndərin həyat və fəaliyyətindən bəhs olunur. Ekran əsərinin adı Ulu Öndərin “Bu dünyaya gələn hər bir adam bu dünyadan gedəcək. Ancaq xoşbəxt o kəsdir ki, dünyada böyük iz qoyur” fikrindən irəli gələrək seçilib. Bu



keçirilib. Filmə böyük maraq nəzərə alınaraq, onun Bakıda Heydər Əliyev Mərkəzində də təqdimatı təşkil olunub. Anar Ələkbərov Heydər Əliyev Mərkəzi tərəfindən hazırlanan “Böyük insanın ömür anları” fotoalbomunda isə ümummilli lider Heydər Əliyevin bəzi fotolarının ilk dəfə nəşr olunduğunu bildirib. Fotoalbom ulu öndərin həyatının və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif dövrlərini əhatə edir.

“Heydər Əliyev – 100” instalyasiyasının müəllifi, Əməkdar rəssam Rəşad Ələkbərov çıxış edərək vurğulayıb ki, əsər XX əsrin ikinci yarısından etibarən beynəlxalq incəsənət məkanında geniş yayılmaqda olan “op-art” cərəyanı ruhunda ərsəyə gətirilib. Altı ay ərzində hazırlanan kompozisiya ulu öndər Heydər Əliyevin portretini canlandırır. Əsərdə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinin rəmzi olaraq bədii vasitə kimi istifadə edilən 100 dirəyin “işığı” dahi şəxsiyyətin əbədiyaşarlılığını ifadə edir.

Sonra “Heydər Əliyev – 100” instalyasiyasının təqdimatı keçirilib.

baxımdan filmin ideyası ümummilli liderin müasir Azərbaycan tarixində qoyduğu izi ehtiva edir.

Daha sonra iştirakçılar ümummilli liderin 100 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən hazırlanan “İz” sənədli filminə baxıblar.

Filmin ssenarisi ümummilli lider Heydər Əliyevin ayrı-ayrı vaxtlardakı çıxışları əsasında qurulub və ulu öndərin müəllifi olduğu müasir müstəqil Azərbaycanın inkişaf konsepsiyasını əks etdirir. Ekran əsərində ümummilli liderin həyatı, Vətəninə və xalqına bağlılığı, Azərbaycanın müstəqil dövlət kimi qüdrətlənməsi, Qarabağın işğaldan azad edilməsi istiqamətində yürütdüyü ardıcıl siyasət əksini tapıb. Eyni zamanda, işğal altındakı torpaqlarımızın Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad olunması, respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, bununla da ümummilli lider Heydər Əliyevin vəsiyyətinin və arzularının reallaşması filmdə yer alıb.

# 15 İyun: Milli Qurtuluşa aparan yol və liderin xilaskarlıq məramı

*(əvvəli qəzetin 15 iyun 2023-cü il tarixli sayında)*



### 15 iyundan sonrakı tarixə qısa baxış

Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil Azərbaycan dövlətinin və xalqının tarixində yeni bir mərhələ başladı. Bu mərhələnin səciyyəvi cəhəti müasir müstəqil dövlətin xilası və möhkəm əsaslarda qurulmasıdır. Hakimiyyətə gəlişi ilə ölkəni parçalanmaqdan, xalqı vətəndaş müharibəsindən xilas edən Heydər Əliyev müasir Azərbaycan dövlətinin qurucusu və memarı oldu. Azərbaycanda təməlləri möhkəm olan güclü dövlətçilik ənənəsinin və dərin dövlətin əsası qoyuldu.

Uğurlu Horadiz əməliyyatı ilə düşmənə zərbə vuruldu. Bir sıra ərazilər işğaldan azad edildi. İşğalçı ölkə və havadarları Azərbaycanın qəti mövqeyini gördülər.

Dövlətin və millətin inkişafı baxımından tarixi əhəmiyyət daşıyan bir sıra məsələlər həll olundu. Azərbaycan dövləti 1994-cü ilin may ayının əvvəllərində NATO-nun “Sülh naminə tərəfdaşlıq proqramı”na qatıldı. Həmin ayda Ermənistan ilə Azərbaycan arasında atəşkəs elan edildi. Heydər Əliyev atəşkəsə torpaqları azad etmək üçün güclənməkdən, dövləti və ordunu qurmaqdan, xarici sərmayəni cəlb etməkdən ötrü vaxt qazanmaqda vasitə kimi baxırdı. Elə ona görə də atəşkəsdən sonra Azərbaycan xalqının və dövlətinin tərəqqisi və gələcəyi naminə möhtəşəm bir addım atıldı. 1994-cü il sentyabrın 20-də dünyanın bir sıra böyük ölkələrinin transmilli şirkətlərilə “Əsrin müqaviləsi” imzalandı. Heydər Əliyev bir-biri ilə didişən, rəqabət aparan ölkələri, transmilli şirkətləri ortaq məxrəcə gətirərək Azərbaycanda əməkdaşlığa cəlb etdi. Bəzi ölkələrdən ərazisinin böyük, əhalisinin sayının çox olmamasına baxmayaraq, Azərbaycan onları bir masa arxasında oturda bildi. Soruşulur: ərazisi və əhalisi bir neçə il əvvəlki kimi olan Azərbaycanın dünya siyasətində rolunu artıran, mövqelərini gücləndirən, maraq dairəsinə çevirən amillər hansılar idi? Heç şübhəsiz, bu sualın konkret cavabı vardır: Heydər Əliyevin təkcə daxili siyasət məsələlərini, xalqın psixologiyasını deyil, dünya işlərini mükəmməl bilməsi, zəkası, uzaqgörənliyi, müdrikliyi, biliyi, bacarığı, qətiyyəti. Təbii sərvət olan neft və qazı Azərbaycanın milli sərvətinə çevirən Heydər Əliyev ölkənin inkişafının açarını məhz enerji ehtiyatlarında gördü.

“Əsrin müqaviləsi” imzalandıqdan sonra baş verən sui-qəsdlər, dövlət çevrilişi və qiyam cəhdləri Azərbaycanı yolundan döndərə bilmədi. 1994-cü ilin oktyabrında dövlət çevrilişi, 1995-ci ilin martında isə qiyam cəhdi Heydər Əliyevin qətiyyəti və siyasi bacarığı ilə iflasa uğradıldı. Azərbaycan xalqı qanuni hakimiyyəti müdafiə etdi. Çevrilişlərin qarşısının alınmasının Azərbaycan üçün tarixi və ibrətamiz əhəmiyyəti oldu. Heydər Əliyev göstərdi ki, Azərbaycan dövlət çevrilişləri üçün sınaq meydanı deyildir, ölkədə güclü dövlət hakimiyyəti vardır. Bununla da silahlı yolla hakimiyyətə gəlmək kimi acı, utancverici təcrübəyə son qoyuldu.

Dövlət çevrilişi və qiyam cəhdlərinin qarşısının alınması digər bir vacib məsələnin həllinə kömək etdi. Məlum olduğu kimi, sabitlik və sabaha ümidlər olmadığından xarici ölkələr və donor təşkilatlar Azərbaycana borc vermir, sərmayə qoymaqdan çəkinirdilər. Dövlət büdcəsində isə vəsait yox idi. Dövlət çevrilişi və qiyam cəhdlərinin qarşısı alındıqdan, sabitlik yaradıldıqdan sonra Azərbaycana investisiya axını başladı. Yeni neft strategiyası güclü dövlətin qurulmasına, Azərbaycan xalqının daha yaxşı yaşayışını təmin, gələcək inkişafına ciddi təsir edən, ölkənin tərəqqisinin və vətəndaşın rifah halının yaxşılaşdırılmasına yönələn siyasətin başlıca amillərindən biri oldu.

Heydər Əliyev Azərbaycan tarixində digər bir tarixi əhəmiyyətli məsələni həll etdi. Bilindiyi kimi, Azərbaycan xalqı dövlət müstəqilliyini bərpa etsə də hələ dövlətin ana qanunu qəbul edilməmişdi. Bilavasitə onun rəhbərliyi altında Azərbaycan Respublikasının konstitusiyası işlənib hazırlandı və 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul edildi. Müstəqil Azərbaycan Respublikası parlamentinə çoxpartiyalı əsasda seçkilər keçirildi. Bununla da yaxın keçmişin acı qalmaqallı parlament təcrübəsi tarixin arxivinə verildi. Parlament çevrilişlər və dövlət əleyhinə yönəlmiş fəaliyyətləri müdafiə edən deyil, müstəqil dövlət quruculuğunda xüsusi yeri olan bir orqana çevrildi.

İqtisadiyyatın azad bazar tələblərinə uyğun qurulması üçün addımlar atıldı. İslahatlara başlanıldı. İqtisadiyyatda liberallaşma genişləndi. Özəlləşdirilmə həyata keçirildi.

Sabitlik bərqərar edildikdən sonra ölkədə vətəndaş cəmiyyətinə keçid baş verdi. Demokratik islahatlar aparıldı. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirildi. Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. “Allahın insana verdiyi canı yalnız Allah ala bilər” fəlsəfəsinə hakim olan Heydər Əliyev Azərbaycan tarixində nəhəng əhəmiyyət daşıyan qərara imza ataraq ölkədə ölüm hökmünü ləğv edildi.

Azərbaycanın hərb sistemi quruldu. Ölkəni xarici təcavüzdən qorumağa qadir olan güclü ordu formalaşdırıldı. Hərbi-sənaye kompleksi yaradılmağa başlandı.

Milli ideyaları vahid milli ideologiya olaraq sistemləşdirərək formalaşdıran Heydər Əliyev bütün ölkə vətəndaşlarını azərbaycançılıq əsasında birləşdirdi. Etnik millətçiliyə dayanan yanaşmadan qətiyyətlə imtina edən Heydər Əliyev bütün vətəndaşların şəxsiyyət vərəqəsində “Azərbaycan Respublikasının vətəndaşı” yazmağın təşəbbüskarı və onu reallaşdıran dövlət xadimi olaraq siyasi milliyyətçiliyə, dövlət-millət anlayışına keçidin banisi oldu. Bu, Azərbaycan tarixində görünməmiş nəhəng fəaliyyət və ilk idi.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyi tarixində ilk dəfə olaraq anarxiyadan sabitliyə, demokratiyaya, ağır həyat şəraitindən firavan yaşayışa keçid baş verdi. Azərbaycan xalqının sabaha və özünə inamı artdı.

Azərbaycan mədəniyyətinin inkişafı üçün yeni imkanlar yaradıldı. Dünya ölkələri ilə mədəniyyət sahəsində əlaqələr genişləndirildi. Heydər Əliyev xaricdə yaşayan həmvətənlərlə işin qurulması və reallaşdırılması üçün müvafiq qurum yaratdı. Soydaşlarla əlaqələr genişləndirildi. Azərbaycan Respublikası dövləti onların qürur mənbəyinə çevrildi.

Beynəlxalq əlaqələr və xarici siyasət sahəsində mühüm addımlar atıldı. Azərbaycan Respublikasının xarici siyasət strategiyasını müəyyənləşdirən Heydər Əliyev dövlətin maraqlarına cavab verən tarazlaşdırılmış xarici siyasət xətti yürütməyə başladı. Heç bir dövlətin və ya dövlətlər qrupunun yanında yer almayan, yalnız özünün milli-dövlət maraqlarını güdən, çoxqütblü siyasət reallaşdıran Azərbaycan dövlətinin strateji müttəfiqləri, strateji tərəfdaşları, tərəfdaşları dəqiqləşdirildi, mehriban qonşuluq münasibətlərini qurmaq üçün addımlar atıldı.

Şaxələndirilmiş ixrac neft boru kəmərləri işə salındı. Bakı – Novorossiysk şimal, Bakı – Supsa ilkin qərb, Bakı –Tbilisi – Ceyhan əsas ixrac neft boru, Bakı – Tbilisi– Ərzurum qaz boru kəmərlərinin əsası qoyuldu. Bu boru kəmərləri təkcə iqtisadi deyil, eyni zamanda Azərbaycanın dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirən, müstəqilliyini gücləndirən, xalqın maddi rifah halını və mənəvi-psixoloji ruhunu yüksəldən amillər oldular. Azərbaycanın xarici ölkələrdən enerji asılılığına son qoyuldu.

Heydər Əliyevin bacarıqlı əməkdaşlıq fəaliyyəti nəticəsində Böyük İpək Yolu bərpa edildi. Şərqlə Qərbi birləşdirən, təkcə iqtisadi-ticarət deyil, eyni zamanda böyük siyasi və strateji əhəmiyyət daşıyan TRASEKA proqramı reallaşdırıldı. Mərkəzi Asiyanın yeni müstəqil dövlətləri Azərbaycan üzərindən qərbə çıxış əldə etdilər. Onların geosiyasi mövqeyi gücləndi. Dünya ticarət yolları üzərində əlaqələndirici qovşaq ölkələrdən biri olan Azərbaycanı dünyanın mərkəzlərindən birinə çevirən Bakı – Tbilisi – Qars dəmiryolu layihəsi və onun həyata keçirilməsi üçün hazırlıqlara başlanılması müstəsna tarixi əhəmiyyət daşıyan hadisə idi.

Beynəlxalq mövqeləri möhkəmlənən, Avropa ilə Asiyanın qovşağında yerləşən və əhəmiyyəti artan Azərbaycan Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başladı.

### Problemlər necə həll edildi?

Azərbaycanın dövlət müstəqilliyinin itirilməsinin və ölkənin parçalanmasının qarşısının xalqa arxalanaraq top-tüfəngsiz, qan tökmədən alan Heydər Əliyev böyük uzaqgörənliklə ən vacib problemləri həll etdi. Xalq isə ona etibar etdi və inandı. Problemlərin həllində Heydər Əliyev şəxsiyyəti amili və liderlik keyfiyyəti müstəsna rol oynadı. Separatçıların qadınlar tərəfindən vedrələrlə qovulması ilə gələcəkdə belə xülyaya düşənlərə bir dərs verildi.

Heydər Əliyevin hakimiyyəti illərində Azərbaycanda dövlət möhkəmləndirildi, ölkə müasirləşmə, modernləşmə üçün hazırlandı. Yaxın illərin təcrübəsi sübut edir ki, yeni müstəqil dövlətlərdə hələ dərin ənənələr formalaşmadığından mürəkkəb anlarda problemlər yaranır. Ona görə də həmin ölkələrdə dövlət rəhbərinin şəxsiyyəti və bacarığı müstəsna aparıcı rol oynayır. Bu baxımdan İlham Əliyevin 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçilməsi Heydər Əliyevin əsasını qoyduğu güclü dövlət, qüdrətli millət siyasətinin davam etdirilməsini istəyən vətəndaşların şansı oldu.

### Varislik, Heydər Əliyevin gerçəkləşən arzuları

Azərbaycan xalqının qarşısında dayanan ən böyük vəzifə torpaqları düşmən işğalından azad etmək idi. Seçicilərin böyük əksəriyyətinin səsi ilə İlham Əliyevin prezident seçilməsilə Azərbaycan dövlətçiliyi və xalqının tarixində yeni mərhələ başladı. Bu, Azərbaycan Respublikasının müasirləşməsi, modernləşdirilməsi, ərazilərin Ermənistan işğalından qurtarılması uğrunda hazırlıq mərhələsi idi. Həmin məqsədə çatmaqdan ötrü o zamana qədərki Azərbaycan tarixində görünməmiş bir sıra tədbirlər həyata keçirildi. Ölkədə iqtisadi yüksəliş baş verdi. Azərbaycan rəqabətə davamlı bir ölkə oldu, borc alan ölkədən borc verən ölkəyə çevrildi. Yeni iş yerləri açıldı. Xalqın həyat şəraiti yaxşılaşdı. Ölkədə müasir texnologiyalar tətbiq edildi. Güclü hərbi-sənaye kompleksi yaradıldı. Azərbaycan beynəlxalq silah satış sərgi-yarmarkalarının iştirakçısı oldu. Silahlı Qüvvələr dünyanın qabaqcıl ordularının cərgəsində yer aldı. Xalqın özünəinamı artdı və milli ruhu yüksəldi. Etnik və dini xoşgörünün, tolerantlığın hakim olduğu Azərbaycan model bir ölkə halına gəldi. Prezident İlham Əliyevin planetar təfəkkürü və yürütdüyü uğurlu siyasət sayəsində Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi ilə millətin və dövlətin tarixində qürurverici bir ilk yaşandı. Dövlət başçısının Təhlükəsizlik Şurasının iclasına sədrlik etməsi, dünya problemlərini gündəliyə gətirərək mümkün həlli yollarını göstərməsi diplomatiya tarixinin parlaq səhifələrindən biridir.

Azərbaycan enerji, nəqliyyat və informasiya təhlükəsizliyini təmin etdi. Kosmos klubunun üzvü olmaqla millətin tarixində yeni bir ilk yaradıldı. Məqsədə çatmaqdan ötrü “yumşaq güc”ün imkanlarından istifadə edildi. Musiqi yarışması olsa da Avroviziya müsabiqəsinin ilk dəfə olaraq Azərbaycanda mükəmməl bir şəkildə keçirilməsi ilə ölkənin xəritədə axtarılmasına son qoyulması əhəmiyyətli hadisələrdən biri idi. Bunun ardınca Birinci Avropa Oyunları və İslam Həmrəyliyi Oyunları keçirildi.

2016-cı ilin aprelində aparılan uğurlu hərbi əməliyyat nəticəsində işğal altındakı ərazilərin bir hissəsi düşməndən azad edildi.

TAP və TANAP-ın həyata keçirilməsi dövlətimizin beynəlxalq mövqelərini möhkəmləndirdi. Bakı – Tbilisi – Qars dəmiryolu işə salındı. Bu və digər amillər Azərbaycanı başlıca vəzifələri yerinə yetirməyə yaxınlaşdırdı.

Nəhayət, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsində düşmənin məğlub edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə Heydər Əliyevin arzuları və vəsiyyəti həyata keçirildi. Qələbədən ötən qısa müddət ərzində Azərbaycan dövləti işğaldan azad edilmiş ərazilərin dirçəldilməsinə heç bir xarici yardım olmadan başladı. Yeni hava limanları, ağıllı kəndlər tikildi, məcburi köçkünlər dədə-baba torpaqlarına planlı şəkildə köçürülməyə başladılar. İşlər indi də davam etdirilir.




### İbrət dərsləri

30 ilin zirvəsindən baxıldıqda 15 iyun tarixindən ibrət alınası bir çox məsələlər vardır. **Birincisi,** demokratiyanı bərqərar etmək üçün, ilk növbədə, dövlət olmalıdır. Zəif dövlət hakimiyyəti və anarxiya olan yerdə demokratik cəmiyyət qurmaq, insanın ali yaşamaq hüququnu təmin etmək mümkün deyildir. Anarxiya, xaos və başıpozuqluq demokratiya ilə ziddiyyət təşkil edir.

**İkincisi,** xalq dövləti idarə edən hakimiyyət sükanını heç bir zaman naşı, populist adamlara, millət–dövlət maraqlarını düzgün müəyyənləşdirə bilməyən, çətin anlarda qaçıb gizlənən şəxslərə etibar etməməlidir. Hakimiyyətə küçədən gəlmək cəhdlərinə imkan verməmək olmaz.

**Üçüncüsü,** Azərbaycan xalqının inkişafının və qarşısına qoyduğu məqsədlərə çatmasının, tərəqqinin, rifahının və demokratiyanın təməlində sabitlik, güclü dövlət və qüdrətli rəhbər dayanır.

**Dördüncüsü,** rəhbərlik ilə xalq arasında sıx birlik, hakimiyyətin qanadları arasında faydalı əməkdaşlıq daim qorunmalıdır.

**Beşincisi,** fikir müxtəlifliyinin və ziddiyyətlərin mövcud olması demokratik cəmiyyətlərə xas bir əlamət olduğundan onlar qarşıdurmalara, toqquşmalara gətirilməməli, küçələrdə, meydanlarda zor gücünə həll edilməməli, problemlər masa arxasında çözülməli, ideyaların hansının daha real və çox fayda verəcəyi əsas götürülməlidir.

***

Azərbaycan xalqı mövcud olduqca dövləti güclü və qüdrətli etmək istəyən, qarşıya çıxan problemləri həll etməyə çalışan rəhbərlər daim Heydər Əliyevin milli dövlətçilik, dövlət milliyyətçiliyi irsinə müraciət edəcəklər. Beləliklə, Azərbaycan dövləti mövcud olduqca Heydər Əliyevin güclü milli dövlətçiliyə dair ideya-nəzəri irsi də yaşayacaqdır.

Ötən illərin təcrübəsi göstərdi ki, sabitlik, güclü hakimiyyət və qüdrətli rəhbər olanda Azərbaycan qarşıya qoyduğu məqsədlərə çatır. Bunu Prezident İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan qələbə bir daha sübut etdi. Bütün bunlar ondan xəbər verir ki, Azərbaycan xalqının gözəl gələcəyi vardır.

**Musa QASIMLI,**
**Milli Məclisin deputatı,**
**AMEA-nın müxbir üzvü,**
**professor**

# Hilallı bayraqların qürurlu əsgərləri

## Birləşən hərbi qüdrətimiz bütün çağırışlara cavab verməyə qadirdir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə digər səfərləri kimi, iyunun 12-13-də gerçəkləşdirdiyi dövlət səfəri də qarşılıqlı dostluq-qardaşlıq mesajları ilə yadda qaldı. Xüsusilə, iki ölkə prezidentinin geniş tərkibli görüşündə səslənmiş fikirlər və liderlərin mətbuata bəyanatları Türkiyə–Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olduğunu bütün dünyaya, o cümlədən, bədxah qonşularımıza nümayiş etdirdi.**

“Bir millət, iki dövlət” fəlsəfəsinin ruhuna uyğun olaraq, münasibətlərin bütün vektorları kimi müdafiə və müdafiə sənayesi sahələrində əməkdaşlıq da durmadan inkişaf edir. Çünki müasir dünyada güc faktoru çox önəmlidir. Zənnimizcə, bu məqamda Prezident İlham Əliyevin mətbuata bəyanatındakı sözlərindən iqtibas gətirmək yerinə düşər: “Bugünkü dünyada güc amili ön plana çıxır. Əfsuslar olsun ki, beynəlxalq hüquq çalışmır. Biz bunu 30 illik işğal dönəmində görmüşdük və aparılan müzakirələr, danışıqlar heç bir nəticəyə gətirib çıxarmadı. Nəticəyə gətirib çıxaran bizim gücümüz oldu. Ona görə bundan sonra da birgə fəaliyyət istiqamətində aparılacaq işlər bizim gücümüzü həm bölgədə, həm dünyada daha da artıracaq”.

### Əlaqələr şərəfli tarixi keçmiş üzərində bərqərar olub

Həqiqətən də müasir dünyada beynəlxalq hüquq çalışmır və güc amili öz sözünü deyir. Eyni zamanda Cənabi-Haqq haqlı olanın gücünə güc qatır. Onu düşmənləri qarşısında daha güclü edir. Necə deyərlər, haqq nazilsə də, üzülmür. Azərbaycan 44 günlük Vətən müharibəsi dövründə Türkiyədən böyük mənəvi və siyasi dəstək aldı. Bu dəstək qədirbilən xalqımız tərəfindən heç zaman unudulmayacaq. Eləcə də Çanaqqala savaşında yüzlərlə azərbaycanlının türk qardaşları ilə çiyin-çiyinə vuruşaraq şəhid olması Türkiyədə daim ehtiramla xatırlanır. Azərbaycan–Türkiyə dostluq və qardaşlığının daha bir nümunəsi 1918-ci il olaylarıdır. Qafqaz İslam Ordusunun zabit və əsgərlərinin Bakının və digər bölgələrin erməni işğalından azad edilməsində qan tökmələri, can vermələri, böyük fədakarlıq etmələri ortaq tariximizin qürur örnəyidir. Bu şərəfli keçmişin üzərində kök atan Türkiyə–Azərbaycan hərbi əlaqələri getdikcə daha üstün səviyyəyə qalxır. Hətta, bəzi siyasi və hərbi ekspertlər iki ölkənin yaxın gələcəkdə vahid orduya malik olacağını qeyd edirlər. Onlar bildirirlər ki, Türkiyə və Azərbaycan orduları son zamanlar sanki bir orqanizmdir.

### Gücümüzə güc qatan birgə hərbi təlimlər

Sirr deyil ki, Türkiyə–Azərbaycan hərbi əlaqələrinin inkişafında birgə hərbi təlimlərin rolu danılmazdır. Cənab İlham Əliyev iyunun 13-də mətbuata bəyanatında bu haqda dedi: “Bu gün, eyni zamanda, müdafiə və müdafiə sənayesi sahələrində gələcək planlar haqqında danışdıq. Məmnuniyyətlə qeyd olundu ki, bu il 16 birgə hərbi təlim keçiriləcəkdir, onlardan 6-sı artıq keçirilmişdir. Mən İkinci Qarabağ müharibəsindən sonra demişdim ki, Azərbaycan Ordusu bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcək və biz bunu indi əyani şəkildə görürük. Bu dəstəyə görə də Sizə özəlliklə təşəkkürümü bildirmək istəyirəm”.

Ölkələrimizin qardaşlığı elə bir səviyyəyə gəlib çatıb ki, artıq Anadoluda keçirilən hərbi təlimləri Azərbaycansız, odlar yurdunda baş tutan hərbi təlimləri isə Türkiyəsiz təsəvvür etmək çətindir. İl ərzində planlaşdırılan 16 birgə təlimin 6-sının başa çatması hər ay bir ortaq hərbi təlimin təşkili deməkdir. Bu intensivlik gələcəkdə əldə edəcəyimiz böyük uğurlardan xəbər verir.

### Türkiyə modeli əsasında inkişaf böyük perspektiv deməkdir

Azərbaycan Ordusunun Türkiyə modeli əsasında inkişaf etdirilməsinin də üstünlükləri var. Artıq imzalanmasının ikinci ili tamam olan Şuşa Bəyannaməsində iki ölkənin təhlükə yaranacağı təqdirdə bir-birinə hərbi kömək göstərəcəyi qeyd olunub. Bunun üçün Bakı və Ankaranın mövcud sahədə daha çox yaxınlığı, inteqrasiyası lazımdır. Hərbi sahənin inteqrasiyası, birgə fəaliyyət göstərərək qayşıya qoyulan hədəflərə nail olmaq bir günün işi deyil. Burada çoxlu təlimlər, birgə tədbirlər tələb olunur. İki ölkənin sabah hansısa döyüş tapşırığını yerinə yetirə bilməsi üçün ordular bir-birinə son dərəcə bağlı olmalıdırlar. Azərbaycan Ordusunun Türkiyə modeli əsasında inkişafı əslində böyük perspektivlərə açılan pəncərədir. İnkişafın sonunun olmadığı kimi, bu perspektiv də ucsuz-bucaqsızdır. Azərbaycan–Türkiyə ordularının birgə fəaliyyətində ümumən qarşılıqlı hərbi əlaqələrin inkişafında da sonluq yoxdur, ümman var.

Digər tərəfdən, Türkiyənin hərbi sənaye kompleksi ilə Azərbaycanın müdafiə sənayesi bir-birinə inteqrasiya məqsədilə, müxtəlif səmərəli layihələrin reallaşdırılması istiqamətində sazişlər imzalayıblar. Azərbaycanda bu sahə üzrə bir neçə yeni müəssisə inşa olunur. Həmin müəssisələrdə birgə istehsal nəzərdə tutulub.

Əminliklə demək olar ki, Türkiyə–Azərbaycan hərbi əməkdaşlığı bundan sonra daha da dərinləşəcək, iki qardaş ölkə yeni nailiyyətlər əldə edəcək. Xalqlarımızın iradəsinə uyğun uğurların əldə olunması isə məhz türk dünyasının iki böyük şəxsiyyətinin – cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın adı ilə bilavasitə bağlıdır. Onların dostluğunun, qardaşlığının nəticəsi kimi qiymətləndirilməlidir.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

### Ekspert rəyi

**Şair RAMALDANOV, ehtiyatda olan polkovnik**



– Azərbaycan–Türkiyə əlaqələri bütün istiqamətlər üzrə yüksələn xətt üzrə inkişaf edir. Hərbi sahədə iki ölkənin işbirliyi isə mən deyərdim ki, digər sahələrdəki əməkdaşlığı üstələyir. Bu da təbiidir. Ona görə ki, hazırda gedən proseslər “sülh istəyirsənsə, müharibəyə hazır olmalısan” deyiminin aktuallığını itirmədiyini göstərir. Sülhü bərqərar etmək üçün güclü olmaq lazımdır.

Bu gün dünyada Azərbaycan–Türkiyə münasibətləri nümunədir. Çünki digər ölkələrin müttəfiqliyindən fərqli olaraq, Bakı–Ankara hərbi müttəfiqliyi və əlaqələrin yüksələn xətt üzrə artması regionumuzda sülhə, inkişafa, bölgədəki xalqların rifahını yüksəltməyə xidmət edir. Burada gedən proseslərin, böyük iqtisadi layihələrin həyata keçirilməsinin nəinki bölgədəki ölkələrin marağında olduğunu dəfələrlə eşitmişik. Belə olan halda burada sabitlik lazımdır. Sabitliyi də təmin edə biləcək yeganə vasitə gücdür. Bugünkü ikili standartlar və dünyada gedən hərc-mərclik, bəzi dövlətlərin digər dövlətləri təsir altına salmaları diplomatiya sahəsinin sülhü qoruma imkanının az olduğunu göstərir. Azərbaycan–Türkiyə hərbi müttəfiqliyinin məqsədi də regionda sülhün dayanıqlığını təmin etməkdir. Bizim prezidentimiz də qeyd etdi ki, bölgənin inkişafı, sabitliyi və təhlükəsizliyi nöqteyi-nəzərindən Türkiyə–Azərbaycan birliyi amili çox önəmlidir.

2021-ci ilin iyunun 15-də imzalanmış Şuşa Bəyannaməsi Türkiyə–Azərbaycan hərbi əməkdaşlığının inkişafının bəhrəsi idi. Qazi Mustafa Kamal Paşa Atatürkün, ulu öndər Heydər Əliyevin, cənab İlham Əliyevin və cənab Rəcəb Tayyib Ərdoğanın dostluq-qardaşlıq istiqamətində atdıqları addımlar Türkiyə-Azərbaycan əlaqələrinin inkişafının təminatçısı və lokomotividir. Hazırda bu dostluq xalqlarımıza, ümumiyyətlə türkdilli toplumlara xidmət nümunəsidir, habelə bütün dünyaya örnəkdir. Bu dostluqdan hamı ancaq müsbət nəticələr əldə edir. Biz “Bir yumruq” deyəndə Türkiyə ilə Azərbaycanın yumruq kimi birləşməsini nəzərdə tuturuq. Münasibətlərimizin möhkəmlənməsi isə yumruğumuzun daha güclü olması deməkdir.

**Azərbaycan–Ermənistan danışıqlarının, sülh gündəliyinin intensivliyinin iki ölkənin şərti sərhədində hərbi toqquşmalarla əvəzləndiyi hazırkı dövrdə, Rusiyanın bir sıra kütləvi informasiya vasitələri Bakı–İrəvan nizamlanmasının aktiv Qərb formatını gözdən salmağa çalışırlar. Mövcud xüsusda ABŞ-ın üzərinə, belə demək mümkünsə, yüklənmələr var. Daha konkret söyləsək, Rusiyanın bəzi media orqanları bildirirlər ki, Birləşmiş Ştatlar Qarabağ ermənilərinə Bakı ilə dialoq aparmaq üçün təzyiq göstərməkdədir. Əslində, başlıca diqqət yetirilməli məqam məhz dialoq məntiqinin qabardılmasıdır. Əlbəttə, mövcud xüsusda daha bir neçə vacib detalı da nəzərdən qaçırmaq olmaz.**

# ABŞ Dövlət Departamenti konkret olmalı idi...

## *Qurumun “Amerikanın səsi”nin erməni xidmətinə cavabına sözardı*

Ancaq əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin mayın 28-də Laçında doğma yurd-yuvalarına qayıtmış rayon sakinləri ilə görüşündə səsləndirdiyi fikirləri diqqətə çatdıraq. Dövlətimizin başçısı Qarabağdakı separatçı rejimin təmsilçilərinə amnistiyanın şamil oluna biləcəyindən söz açmışdı. Cənab İlham Əliyev separatçı rejimin nümayəndələrinin bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət edəcəkləri təqdirdə, onlara amnistiya şamil edilə bilmə ehtimalını qabartmışdı: “Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən, Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər”.

Qeyd edək ki, ABŞ Dövlət Departamenti Azərbaycan Prezidentinin mövqeyini alqışlayan açıqlama yaymışdı. Bu, Ermənistandakı siyasi dairələrin narazılığına səbəb olmuşdu. Rusiyanın bəzi kütləvi informasiya vasitələri isə manipulyasiyalara baş vurmuşdular. Onlar apardıqları təbliğatla elə təəssürat yaratmışdılar ki, sanki Vaşinqtonun Prezident İlham Əliyevin mövqeyini alqışlaması ABŞ-ın Qarabağda yaşayan ermənilərin taleyinə biganəliyidir.

***

“Amerikanın səsi” radiostansiyasının erməni xidməti məhz bu mövzuda ABŞ Dövlət Departamentinə sorğu ünvanlayıb. Əlbəttə, sorğuda konkretlik var. Sual təxminən belədir: “Rusiya KİV-ləri bildirirlər ki, Vaşinqton Qarabağa ABŞ-ın vasitəçiliyi ilə üçüncü ölkədə görüş keçirməklə bağlı təzyiq göstərir. Bu doğrudurmu?”

Dövlət Departamentinin cavabı diplomatikdir. Cavabda, ilk növbədə, bildirilir ki, Rusiya mediası dezinformasiya yayır. Bu motiv hətta bir qədər də sərt ifadə olunur: “Bildiyiniz kimi, Rusiyanın dezinformasiya tarixi var”. İkincisi: “Biz ardıcıl olaraq israr etmişik ki, regionda sülhə Dağlıq Qarabağ əhalisinin hüquqlarının və təhlükəsizliyinin qorunması daxildir. Biz buna töhfə verən istənilən dialoqu alqışlayırıq”.

Bəli, bu cavaba diqqət yetirəndə demək olmaz ki, ABŞ məsələyə birmənalı obyektiv münasibət bildirməkdədir. Yəni, faktiki olaraq onun da təşəbbüsü ilə aparılan kollektiv Qərb nizamlama xəttində Qarabağ erməniləri ilə bağlı hər hansı məqam yoxdur. Birləşmiş Ştatlar Azərbaycanla Ermənistan arasında vasitəçilik edir. Mövcud xüsusda hansı məsələlər var, o da cəmiyyətə açıqlanıb.

Digər tərəfdən, Azərbaycan Prezidenti İlham Əliyev hələ 2021-ci ildə “CNN Türk” televiziya kanalına müsahibəsində bildirmişdi ki, Xankəndidə və ətraf kəndlərdə yaşayan ermənilər də bizim cəmiyyətimizə mütləq inteqrə edilməlidir, onlar üçün bu, daha böyük fürsətlər yaradacaq. Dövlətimizin başçısı mayın 28-də laçınlılarla görüşündə isə bildirdi: “Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək”.

Ümumən, Azərbaycan dövlətinin rəsmiləri dəfələrlə bəyan ediblər ki, ölkəmizin Qarabağ ermənilərinə yanaşması, onların yalnız icma statusunun vurğulanması xüsusundadır. O icmalardan isə Azərbaycanda çoxdur. Yəni, ölkəmizdə digər xalqların nümayəndələrinin birlikləri var və buna yanaşma çox normaldır. Mövcud reallığı ABŞ-ın da, digər vasitəçilərin də qəbul etməsi vacibdir və qəbul edirlər də.

***

O ki qaldı, bilavasitə Dövlət Departamentinin “Amerikanın səsi”nin erməni xidmətinin sorğusuna cavabının daxili mahiyyətinə, hesab edirik ki, qurum ölkənin danışıqlar müstəvisindəki mövqeyini cavabına kifayət qədər uyğunlaşdıra bilməyib, sanki “nə şiş yansın, nə kabab” düşüncəsi ilə davranıb.

Birincisi, cavabda “Dağlıq Qarabağ” ifadəsi yer alıb ki, bu, qətiyyən yolverilməzdir. Çünki Azərbaycan ərazisində “Dağlıq Qarabağ” adlı inzibati ərazi vahidi yoxdur. İkincisi, söhbət Qarabağın erməni əhalisindən gedirsə, onların hüquq və təhlükəsizliyi baxımından Azərbaycanın müəyyənləşdirdiyi məsələlər var. Bir az əvvəl bildirdik ki, Qarabağ erməniləri də ölkəmizdə yaşayan digər xalqlar kimi eyni hüquqlara malikdirlər. Onlar indiki durumda öz hüquqlarından məhrum vəziyyətdədirlər. Ona görə ki, bölgədəki separatçı rejim buna maneə törədir. Ermənistan dövləti və hakimiyyəti isə Qarabağ erməniləri üçün hüquq və təhlükəsizlik ritorikası ilə daha çox həmin separatçı rejimin müdafiəsinə köklənib.

Yəni, yaxşı olardı ki, ABŞ Dövlət Departamenti həm haqqında söz açdığımız sorğuya cavaba konkret yanaşaydı. Bu gələcəkdə mümkün olacaq sorğu cavablarına da dürüst və obyektiv mövqenin göstərilməsi baxımından vacibdir. Nəzərə alaq ki, belə olduqda Birləşmiş Ştatlar yekun sülh prosesinə daha çox töhfə vermiş olar. İndiki durumda isə Dövlət Departamentinin qətiyyətsiz təsiri bağışlayan cavabı əslində Qarabağdakı erməni separatizminə, bir növ, qol-qanad verməkdə, heç də hər şeyin itirilmədiyinə dair ümid formalaşdırmaqdadır. Bunu erməni mediası və cəmiyyəti vurğulayır və mövcud vurğulanma istər Ermənistanın ictimaiyyətində, istər avantürist hakimiyyətində, istəsə də Qarabağdakı separatçı rejimdə illüziya yaradır. Unutmaq olmaz ki, illüziyalar sonradan ziyanlı nəticələr doğurmaq təbiətinə malikdir.

***R.ƏVƏZ, “Xalq qəzeti”***

# Paşinyanın Bakıya möhtac etirafı

**Ermənistanın baş naziri Nikol Paşinyan Soçidə Avrasiya İqtisadi Birliyinin iclasındakı çıxışında Azərbaycanın moderatorluğu altında həyata keçirilən regional nəqliyyat layihələri ilə bağlı fikirlər səsləndirib. O, əvvəlki bəyanatlarından fərqli olaraq, nəinki bu layihələrin önəmini təsdiqləyib, həmçinin, Ermənistanın da buna dəstək verməyə hazır olduğunu bildirib: “Ermənistan “Şimal–Cənub və Şərq–Qərb strateji istiqamətlərinin inkişafı üçün şəraitin təmin edilməsi üçün səylər göstərir”.**

### Paşinyan təsdiqlədi: “Çətinliklərlə üzləşirik”

Maraqlıdır, bəs necə olur ki, uzun illər ərzində bu aydın həqiqəti inkar etməkdən yorulmayan Ermənistan, indi birdən-birə tamam fərqli mövqe nümayiş etdirməyə başlayıb?

Paşinyan Soçidəki çıxışında fərqinə varmadan bu sualın cavabına aydınlıq gətirib: “Artıq atılan addımlara baxmayaraq, hələ də müəyyən çətinliklərlə üzləşirik. Bu baxımdan mən logistika zəncirlərinin gücləndirilməsi, nəqliyyat infrastrukturunun inkişafı və modernləşdirilməsi məsələlərində üzv dövlətlər arasında əməkdaşlığın vacibliyini vurğulamaq istərdim”.

Göründüyü kimi, Paşinyan etiraf edir ki, məhz Ermənistanın üzləşdiyi logistika problemləri, beynəlxalq nəqliyyat layihələrindən kənarda qalması gerçəyi rəsmi İrəvanı proseslərə yenidən, tamam fərqli aspektdən yanaşmaq məcburiyyəti qarşısında qoyub. İrəvanın hadisə və proseslərə qərəzsiz baxışı nəticəsində məlum olub ki, Ermənistanın tutduğu inkarçılıq mövqeyi, Azərbaycanla əməkdaşlıqdan imtina etməsi bu ölkəni beynəlxalq aləmdən əhəmiyyətli dərəcədə təcrid olunması ilə nəticələnib. Lakin Ermənistanın 30 illik işğal dönəmi və post-müharibə dövründə itirdikləri yalnız bununla bitmir.

### Qarabağın işğalı Ermənistana yalnız ziyan vurub

Ermənistanın ötən əsrin 90-cı illərində həyata keçirdiyi işğal siyasəti hər şeydən öncə onun Azərbaycan və Türkiyə ilə bütün əlaqələrinin sıfırlanması ilə nəticələndi. İqtisadi baxımdan yüksək inkişaf edən Türkiyə, habelə iqtsadi resurslarla zəngin Azərbaycanla sərhədlərin bağlanması, münasibətlərin düşmənçilik üzərində köklənməsi zəif Ermənistan iqtisadiyyatı üçün ölüm fərmanı demək oldu. Azərbaycan və Türkiyə ilə iqtisadi-ticari əlaqələrdən məhrum olan Ermənistan İran və Rusiyanın yardımları ilə ayaqda qalmağa cəhd etdi. Lakin bu yardımlar əvvəlcədən də bəlli olduğu kimi, kompensasiya etmədi. Zəif iqtisadiyyata malik ölkə tam olaraq çökdü, iqtisadi müstəqillik imkanından məhrum vəziyyətə düşdü.

İşğal siyasəti Ermənistanı beynəlxalq iqtsiadi layihələrdən də kənarda qoydu. İqtisadi təcrid və sürətlə yoxsullaşma prosesi ölkənin büdcəsini boş qoymaqla yanaşı, əhali araında da sosial vəziyyətin kəskin şəkildə ağırlaşmasına səbəb oldu.

2020-ci ilin 27 sentyabr tarixində başlanmış və erməni faşizminin rüsvayçı məğlubiyyəti ilə başa çatmış 44 günlük Vətən müharibəsi Ermənistanın hərbi potensialının 80 faizini sıradan çıxardı. Müharibə ölkənin ümumi büdcəsinə də sarsıdıcı zərbə vurmaqla, orada azsaylı sosial layihələrin tamamilə dayanması ilə nəticələndi. Müqayisə üçün qeyd edək ki, Azərbaycan hətta müharibə dönəmində belə, heç bir sosial layihəni təxirə salmamış, əksinə, pandemiya dönəmi ilə əlaqədar olaraq bu layihələrin say və miqyasını əhəmiyyətli dərəcədə artırmışdı.

### Tarix Prezident İlham Əliyevi yenə də haqlı çıxardı...

Xatırladaq ki, Prezident İlham Əliyev 10 yanvar 2023-cü ildə yerli televiziyalara müsahibəsində Zəngəzur dəhlizinin açılacağını, bu məsələdə Ermənistanın iradəsinin həlledici rol oynamadığını açıq şəkildə bəyan etmişdir. Prezident bildirmişdir ki, Ermənistan istəsə də, istəməsə də bu dəhlizini fəaliyyəti təmin ediləcək: “Zəngəzur dəhlizinin Azərbaycan üçün iqtisadi səmərəsi danılmazdır. Lakin dəhliz bizim üçün yalnız iqtisadi deyil, həm də strateji əhəmiyyətə malikdir. Bu layihənin həyata keçirilməsi bizim təbii hüququmuzdur və 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatda da əksini tapıb. Sənəddə konkret Zəngəzur dəhlizi ifadəsi yoxdur, lakin Azərbaycanın qərb rayonları və Naxçıvanla nəqliyyat əlaqəsinin təmin olunması göstərilib. Bu da Zəngəzur dəhlizinin açılması ilə mümkündür. Nəzərə alaq ki, Zəngəzur dəhlizi ifadəsini geosiyasi leksikona Prezident İlham Əliyev daxil edib.

### Zəngəzur dəhlizi layihəsi baş tutacaq

Paşinyanın Soçi görüşündə səsləndirdiyi fikirlər göstərir ki, artıq Ermənistan da məsələdə söz sahibi olmadığının fərqindədir. Bu gün İrəvan Azərbaycanın moderatorluğu altında gerçəkləşən nəqliyyat layihələrini təqdir etməklə, proseslərdən kənarda qalmamağa, bu layihələrdən müəyyən qədər də olsa, faydalanmağa can atır. Əslində, Paşinyanın Soçidə ortaya qoyduğu siyasi kurs İrəvanın Bakının mərhəmətinə möhtac olmasının etirafı kimi dəyərləndirilə bilər. Azərbaycan isə ilk gündən bəyan edib ki, ölkəmiz Ermənistanın iqtisadi inkişafına kömək etməyə hazırdır. Ancaq bunun üçün bütün tələblərimizi qəbul etməli, sülh və təhlükəsizlik üçün təhdid olmaqdan çıxmalıdır. Yalnız bu halda Ermənistan Azərbaycanın dəstəyinə, xoş münasibətinə ümid bəsləyə bilər.

***Seymur ƏLİYEV***

# Fikrət Sadıxov: Rusiya zəifləsə də, bir əli bölgədədir

## Təcrübəli politoloq hesab edir ki, Ukraynadakı xüsusi hərbi əməliyyatlarda gücdən düşən Rusiya bir əlini yenə də Cənubi Qafqazın üzərindən çəkmək istəmir



**Rusiyanın Qafqaza yönəlik siyasəti həmişə işğalçılığı və müstəmləkəçiliyi ilə seçilib. Dünən belə olub, bu gün də belədir. Bölgənin məhz əlverişli hərbi-strateji coğrafiyaya malik olması vaxtilə çar Rusiyasının buranı işğal etməsinə səbəb olub. Bu gün də Cənubi Qafqazla bağlı Rusiyanın özəl planlarının və maraqlarının olduğu kimi, imperialist Avropa dövlətlərinin də özünəməxsus hərbi-siyasi niyyətləri var. Azərbaycan isə bu iki güc blokları arasında qızışan mübarizədə özünün milli maraqlarını qorumalı, ədalətli sonluğa nail olmalıdır. Sülhdən yayınan İrəvanın hərbi təxribatlarına baxmayaraq, Bakı tarixin keşməkeşli dövründə bu missiyasını uğurla yerinə yetirir.**

Tanınmış politoloq Fikrət Sadıxovla söhbətimizin mövzusu Qarabağ sülh prosesinin üzləşdiyi reallıq, bölgədə marağı olan güclərin mübarizəsində Bakının diplomatik manevrləri və sabaha ümidlərlə bağlıdır. Fikrət müəllim əvvəlcə Ermənistanın şərti sərhəddəki Laçın postunda, Şərqi Zəngəzurda törətdiyi hərbi təxribatların səbəblərinə aydınlıq gətirməyə çalışdı:

– Ermənistan tərəfi Laçın yolunda sərhəd postunun quraşdırılmasına etiraz edirdi. Guya biz bununla Qarabağdakı etnik erməniləri blokadaya salacağıq, onların İrəvana getmələrinə imkan verməyəcəyik, yol gediş-gəliş üçün bağlanacaq və s. Amma tək ermənilərə deyil, bütün dünyaya sübut etdik ki, bu post beynəlxalq qaydalara uyğun, sivil şəkildə fəaliyyət göstərir, ermənilərin hərəkətinə də heç bir maneçilik törətmir. Əksinə, sərhəd buraxılış məntəqəsində onlar üçün lazımi şərait yaradılır ki, rahat gəlib-getsinlər. Əlbəttə, bu postun qurulması müəyyən qüvvələri qane etmirdi. Azərbaycanın mövcud istiqamətdə atdığı addımlar həmin qüvvələri qıcıqlandırdı.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfəri, buradan mühüm bəyanatların verilməsindən sonra belə bir təxribatın meydana gəlməsi təsadüfi sayıla bilməz. Ələlxüsus da Ərdoğanın Şuşada Türkiyənin Baş konsulluğunun açılacağı ilə bağlı qərarın qəbul olunması mesajını heç də asan həzm edə bilmədilər. Əslində, Türkiyə Prezidenti özü açıq şəkildə söylədi ki, bu xəbər müəyyən qüvvələrə mesaj xarakteri daşıyır. Aydın məsələdir ki, Ərdoğanın söylədikləri Cənubi Qafqazda söz və nüfuz sahibi olmağa iddialı aktorların, eləcə də Qarabağda erməniləri dəstəkləyən Rusiya sülhməramlılarının xoşuna gəlməyib.



**– Fikrət müəllim, Ermənistanın son hərbi təxribatlarının ssenari müəllifinin onun şimallı tərəfdarının olması versiyasına yanaşmanız necədir?**

– Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova çox maraqlı açıqlama vermişdi. O, dedi ki, Amerika Qarabağda yaşayan etnik erməniləri Bakı ilə danışıqlara sövq edir. Qorxudur ki, əgər dialoqa getməsəniz, guya əks hücuma məruz qalacaqsınız. Bu və digər diplomatik davranışlar ona dəlalət edir ki, bunların arxasında konkret qüvvələr var. Və həmin güclər gördüyümüz təxribatların törədilməsində tam maraqlıdırlar. Təbii ki, Azərbaycan bunlara qarşı özünün adekvat addımlarını atıb və bundan sonra da atacaq. Bu addımlar həm diplomatik müstəvidə, həm də, ehtiyac yaranarsa, hərb meydanında atıla bilər. Nəhayət, Şimaldakı, Qərbdəki o qüvvələr başa düşməlidirlər ki, Bakının mövqeyi dəyişməz və prinsipialdır.

**– İrəvan hər dəfə sülh danışıqlarının növbəti raundu yaxınlaşanda prosesə mane olmaqdan ötrü müxtəlif bəhanələr uydurur. Bu dəfə açıq hərbi təxribata əl atdı...**

– Vaşinqton və Brüssel görüşləri onu göstərdi ki, məhz bu qüvvələr mövcud münaqişənin tam yatırılmasında, sülhə nail olunmasında müəyyən səylər göstərir. Hesab edirəm ki, keçən ayın əvvəlində Vaşinqtonda çox səmərəli dialoq alındı. Bu da özünəməxsus bir reallıqdır ki, dörd gün ərzində aparılan danışıqlar Amerikanın birbaşa vasitəçilik missiyasının müdaxiləsi olmadan baş tutdu. Sülh danışıqlarının bu formatda təşkili birinci dəfə idi və bunun müəyyən müsbət nəticələrinin əldə edildiyini deyə bilərik. Vaşinqton trekinin davamı kimi Brüssel sülh meydançasını qeyd etmək lazımdır. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin açıqlamasına görə, həm Brüsseldəki üçtərəfli danışıqlar, həm də Kişineudakı beştərəfli təmaslar məhsuldar və konstruktiv keçib. Yəni, bu o deməkdir ki, artıq Moskvanı mövcud müstəvidə sıxışdırırlar.

**– Amma 10 noyabr Bəyanatına görə sülhyaratma missiyasına malik Rusiyanın bölgədəki maraqlarını nəzərə almaya bilmərik.**

– Bəli, bölgədə daim ciddi təsir rıçaqlarına malik güclü oyunçu, dövlət kimi Rusiya amilini kənara qoya bilmərik. Amma reallıq budur ki, indi Moskvanı bu coğrafiyadan kənarlaşdırmağa çalışırlar. Şübhəsiz ki, bu, Kremli qıcıqlandıran əsas amildir və o, hazırkı durumla heç cür barışmaq istəmir. Bu prosesin qarşısını almaqdan ötrü Rusiya rəhbərliyi bölgədə hansısa təxribatın törədilməsinin tərəfdarı ola bilər. Onun üçün bunu İrəvanın vasitəsi, ermənilərin əli ilə həyata keçirmək daha məqbul variantdır. Düşünürəm ki, sülh prosesinin digər meydançaları ilə müqayisədə biz hər halda Vaşinqton, Brüssel və Kişineu platformalarından daha çox faydalana bilərik. Ən azından ona görə ki, bu müstəvilərdəki danışıqlarda konkret təkliflər irəli sürülür və həmin təkliflərin həyata keçirilməsi mexanizmləri müzakirə olunur. Əgər Birləşmiş Ştatlar məsələnin tezliklə həllində maraqlıdırsa, bu halda özünün təsir gücünü daha açıq şəkildə nümayiş etdirməlidir. Bunun üçün Ermənistana ciddi təzyiq göstərməlidir. Vaşinqton heç bir halda Azərbaycanı Ermənistanla eyniləşdirməməlidir. Belə eyniləşdirmə bir sıra hallarda neqativ nəticələrə gətirib çıxarır. Kənardan görünən mənzərə də çox maraqlıdır. Ukraynada davam etdirdiyi xüsusi hərbi əməliyyatlarla bağlı Rusiya zəifləyib. İntəhası, yenə də Kremlin bir əli bizim bölgənin üzərindədir. Bunu Vaşinqtonda dərk etməli, vəziyyəti düzgün qiymətləndirməlidirlər. Məhz bu yanaşma tərzindən çıxış edərək, müvafiq tədbirlərini görməlidirlər.

*Söhbəti yazdı:*
*İ.HƏSƏNQALA,*
*"Xalq qəzeti"*

# Sərhəddə toqquşma – Ermənistan və havadarları Ərdoğanın Bakı səfərini "hədəfə alır"

## İrəvanın Türkiyə müstəvisində yeni siyasi oyunu Azərbaycanla sülh prosesini pozur

**Azərbaycan–Ermənistan sərhədindəki gərginlik və hərbi qarşıdurma fonunda regondakı gələcək siyasi konfiqurasiyalar mövzusunda müxtəlif baxışlar meydana çıxmaqdadır. Əlbəttə, İrəvanın siyasi dairələri gərginliyə görə Bakını günahlandırırlar. Halbuki, təxribatı törədən Ermənistandır. Bəs, ölkə nə üçün bunda maraqlıdır?**



Mövcud xüsusda müxtəlif versiyalar irəli sürmək mümkündür ki, bunlardan birinin məğzində Türkiyə amili dayanır. Ermənistanın siyasi gündəmi atəşkəsin pozulmasına görə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakıya səfərinə fokuslanır. Daha doğrusu, erməni siyasilər həm Ərdoğanın paytaxtımızda səsləndirdiyi fikirlərin üzərində dayanırlar, həm də özlərinin məlum səfərlə əlaqədar konspriativ düşüncələrini işə salırlar. Yekunda belə təsəvvür formalaşdırırlar ki, sanki, Türkiyə lideri gəldi və indiyədək gedən prosesləri alt-üst etdi, yeni reallıq formalaşdırdı. Azərbaycan isə guya sərhəddə toqquşmalar yaratmaqla, həmin yeni situasiyaya adekvat davranış ortaya qoymaqdadır.

Yeri gəlmişkən, qeyd edək ki, cənab Ərdoğan ölkəmizdəki bəyanatlarında xüsusən Zəngəzur dəhlizinin açılmasının vacibliyi üzərində dayanmış, dəhlizin ölkəsi və ümumilikdə Türk dünyasını üçün əhəmiyyətini dilə gətirmişdi. Təbii ki, Türkiyə lideri Şuşa Bəyannaməsinin işləkliliyini qabardıb, bunun Ermənistana və havadarlarına mesaj anlamını da vurğulamışdı.

Bəli, Ermənistan, necə deyərlər, qabaqdangəlmişlik edir. Ölkə sərhəddə təxribat törətməklə, öz aləmində Cənubi Qafqazda Türkiyə faktorunu önə çəkir ki, bölgədə maraqlı olan digər qüvvələrdə qıcıq yaransın. Təxminən belə: baxın, Ərdoğan gəldi, hər şeyi qarışdırdı. İrəvan həmin qüvvələrin hərəkətə keçəcəyinə siyasi sərmayə yatırır və beləliklə hazırda özü üçün məqbul olmayan reallıqları dəyişəcəyinə ümid bəsləyir. Böyük ölçüdə yanaşsaq, sərhəddəki təxribatın məqsədi məhz budur.

Yeri gəlmişkən, onu da diqqətə çatdıraq ki, hələ atəşkəsdən əvvəl Ermənistan mediası və siyasiləri Azərbaycanın və Ermənistanın xarici işlər nazirləri Ceyhun Bayramov və Ararat Mirzoyanın iyunun 12-də Vaşinqtondakı görüşünün Ərdoğanın səfərinə görə təxirə salınması məsələsinə toxunarkən, mövcud məqamı Bakının sülh danışıqlarından çıxması kimi qələmə verirdilər. Türkiyə Prezidenti Bakıya gəlib-getdikdən sonra atəşkəs pozuldu. Deməli, Ermənistan təxribat törətməklə, əvvəldə uydurduğu mülahizəyə məntiqi qanunauyğunluq libası geyindirdi.

İndi isə Ermənistan mediası qarşısına qoyduğu "məqsədi" regionun ictimai rəyində möhkəmləndirmək üçün hərəkətə keçib. Ölkənin müxtəlif politoloqları, belə demək mümkünsə, "Türkiyə və təxribat" ritorikasını inkişaf etdirməyə girişiblər. Mövcud istiqamətdə erməni ictimai rəyinə ən böyük dəstək, gözlənildiyi kimi, Rusiyadan gəlməkdədir. Bu baxımdan, Rusiyadakı Yaxın Şərq İnstitutunun rəhbəri, əvvəllər də anti-Azərbaycan baxışları ilə gündəmə gəlmiş Yevgeni Satanovskinin söylədiklərinə də diqqət yetirmək mümkündür.

Y.Satanovski soyadındakı şeytani mənanı işə salaraq deyir ki, Türkiyənin Cənubi Qafqaza yanaşması dəyişməyib. Bu, Azərbaycanın Ermənistana qarşı irəli sürdüyü kifayət qədər sərt ultimatumdan da görünür: "Ərdoğan seçkidə qalib gəldi. O, Bakının ən yaxın müttəfiqidir. İkinci Qarabağ müharibəsində də qalib gələnlərdən biridir. Qarabağ və onun Ermənistana məxsusluğu mövzusu qapanıb. Bunu Paşinyan edib. Ermənilərin orada qalıb-qalmayacağı və hansı ampluada qalacağı böyük sual altındadır. Bundan başqa, Azərbaycandan, Ermənistan ərazisindən keçməklə, Naxçıvana dəhliz mövzusu açıqdır. Daha böyük sual Ermənistanın Sünik rayonunun ölkənin nəzarətində qalıb-qalmayacağı ilə bağlıdır. Paşinyan açıq şəkildə Qarabağdakı Rusiya sülhməramlılarından və Ermənistandakı Rusiya hərbi bazasından xilas olmaq istəyir. Amma bu halda o, nə üçün hesab etmir ki, Bakı və Ankara ilə növbəti toqquşmada uduzmayacaq? Bu məsələ aydın deyil".

Göründüyü kimi, müəyyən qüvvələr Türkiyənin nəinki bölgə, ümumən Ermənistan üçün təhlükə təsvirini cızmaqda maraqlıdırlar. Onların 44 günlük müharibədə Ankaranın rolunu qabartmaları erməni ictimai rəyindəki anti-türk təmayülünü körükləməyə hesablanıb. Satanovski də bunu etməyə çalışanlardandır. Elə isə onun aşağıdakı fikirlərindəki Ermənistan dövlətçiliyinin iflası məntiqinə diqqət yetirək. "Ermənistan–Türkiyə münasibətlərinin normallaşması prosesinə gəlincə, hər şey hansı normallaşmadan danışmağımızdan asılıdır. Əgər Ermənistan bu gün Ərdoğanın inşa ermək istədiyi gələcək Osmanlı limanının periferik əyalətlərindən birinə çevrilərsə, o zaman normallaşma mümkündür", – deyən rusiyalı politoloq əlavə edib ki, Ermənistanı daha hansı aqibətin gözlədiyini başa düşməkdə çətinlik çəkir və indiki halda Paşinyanın sırf Qərbə yönəlməsi ölkə üçün müsbət perspektiv vəd etmir. Deməli, Stanovski Türkiyəyə fokuslanmaqla, nəzərləri həm də Qərbə yönəldir.

Ümumən, belə bir nəticəyə gəlmək mümkündür ki, Ermənistandakı revanşist dairələr Ankaranın, belə demək mümkünsə, hərbə-zorba gələn tərəf kimi təqdimatını aparmaqla, onu həm də Bakı–İrəvan tənzimləməsinin Qərb formatının pozucusu kimi göstərməyə çalışırlar. Deməli, Ərdoğanın Azərbaycana səfəri müstəvisində qurulmuş siyasi oyun son dərəcə incə mahiyyətə malikdir.

Oyunun məqsədi həm Qərbi, həm də Cənubi Qafqazda bilavasitə maraqlı olan Rusiyanı Türiyəyə qarşı qaldırmaqdır. Erməni siyasi isteblişmenti hər iki cinah üçün müstəqil siyasət yürüdən Ankaranın yolverilməzliyini anlayır. Diqqət yetirin, Satanovski Türkiyənin Osmanlı dövlətinin mirasına sahiblik ritorikasını qabardır. Bir növ, dünyanın yadına Osmanlı zamanını salır. Heç şübhəsiz, bu yanaşma 44 günlük müharibədən sonra Cənubi Qafqazda formalaşmış yeni siyasi düzəni öz xeyrinə çevirməyə çalışan İrəvan üçün müstəsna önəm daşımaqdadır. Satanovskilər ona bu anlamda lazımdır, baxmayaraq ki, belə şəxslərin yalnız Rusiyanın maraqlarını ifadə etdikləri, İrəvanı yenidən Moskvanın orbitinə qaytarmaq istiqamətində ideoloji səylər göstərdikləri yaxşı məlumdur.

Bəli, Satanovski Rusiyanın marağını özünün növbəti fikirlərində də ortaya qoymaqdadır. O, Türkiyənin Cənubi Qafqaz aktivliyindən söz açarkən, bunun ABŞ-ın mənafelərinə uyğunluğunu bildirir. O ABŞ-ın ki, Rusiya ilə ziddiyyətdədir. Deməli, indiki halda ABŞ–Türkiyə ikilisinin Rusiyaya qarşı çıxdığı təsəvvürü formalaşdırılır. Belə yanaşma isə Ankara-Moskva münasibətlərinin hazırkı pozitiv axarını zədələmək niyyəti güdür. Təsadüfi deyil ki, politoloq çox açıq mətnlə Ermənistanın Paşinyanın apardığı siyasətlə Türkiyənin əyaləti olacağını vurğulayır və əlavə edir ki, Türkiyə–Ermənistan normallaşmasın bu xətti Ərdoğan üçün tam sərfəlidir.

Sonda həm atəşkəsin pozulması, həm də qeyd etdiyimiz düşüncələrin fonunda belə nəticəyə də gəlirik ki, Ermənistan hakimiyyəti Azərbaycanla danışıqlar prosesindəki müsbət dinamikanı aradan qaldırmaq, sülh müqaviləsinin bağlanmasının qarşısını almaq üçün regionumuzda baş verən bütün proseslərdən istifadə etmək "əzmindədir". Bu isə aşkar spekulyativ yanaşmadır. Mövcud durumun hansı pesrpektiv nəticələr doğuracağını isə aləhəzrət zaman göstərəcək. Hər bir halda nəticənin Ermənistanın xeyrinə olmayacağı, əksinə ölkənin durumunu bir qədər də ağırlaşdıracağı birmənalıdır.

*Ə.CAHANGİROĞLU,*
*"Xalq qəzeti"*

# Azərbaycan XİN erməni təxribatını və yalanlarını kəskin pisləyib

**Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda Ermənistan silahlı qüvvələrinin iyunun 15-də Laçın dövlət sərhədindən buraxılış məntəqəsinə qarşı Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması ilə nəticələnmiş hərbi təxribatını qətiyyətlə pislənilib.**

Bildirilib ki, bu hərbi təxribat Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təcavüz olmaqla yanaşı, Azərbaycan tərəfdən sərhəd buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə, erməni sakinlərin təhlükəsiz, sərbəst və maneəsiz keçidinə, habelə Laçın yolu ilə hərəkətinə maneçilik törətmək məqsədi daşıyır: "Buraxılış məntəqəsindən erməni sakinlərin heç bir çətinlik olmadan sərbəst hərəkətini həzm edə bilməyən Ermənistanın bu hərbi təxribatı Ermənistanın Azərbaycanla münasibətlər qurmaqda və sülh prosesində maraqlı olmadığının bariz nümunəsidir".

***

**Ermənistanın baş naziri Nikol Paşinyanın iyunun 16-da hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialara bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin şərhində isə bildirilib:**

– Dünən Ermənistanın baş naziri Nikol Paşinyanın hökumət iclasında çıxışı zamanı Laçın dövlət sərhədindən buraxılış məntəqəsi təsis olunmasının "gərgin humanitar vəziyyət" yaratdığı, Azərbaycanın "erməni sakinlərin gündəlik tələbat malları və tibbi məhsullarla təmin olunmasının qarşısını aldığı", "etnik təmizləmə siyasəti həyata keçirdiyi", Azərbaycanın, guya, sərhədboyu ərazilərdə təxribat törətdiyi barədə növbəti dəfə səsləndirdiyi cəfəng iddiaları qətiyyətlə rədd edirik.

Məntəqədən Azərbaycan Respublikasının Qarabağ bölgəsinin yerli erməni sakinlərinin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlı keçidi üçün müvafiq şərait mövcuddur və məntəqə təsis edilən gündən yüzlərlə sakin bu yoldan sərbəst şəkildə istifadə etdiyi məlumdur.

İyunun 15-də Ermənistan tərəfindən bu məntəqəyə və sərhədçilərimizə qarşı törədilmiş təxribatın da məqsədi Azərbaycan tərəfdən sərhəd buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə kölgə salmaq, məntəqədən təhlükəsiz və sərbəst şəkildə istifadəyə maneçilik törətməkdir.

*"Xalq qəzeti"*

# Hadisə yeri ölkəmizin istisnasız suveren ərazisidir

**Xəbər verildiyi ki, iyunun 15-i saat 08 radələrində Ermənistan Respublikasının Silahlı Qüvvələri terror-təxribat əməllərini növbəti dəfə davam etdirməklə müxtəlif çaplı odlu silahlardan Azərbaycan Respublikasının suveren ərazisi olan "Laçın" Sərhəd Nəzarəti Məntəqəsinə dislokasiya olunub və ərazidə xidmət göstərən Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularına atəşlər açıb, nəticədə, bir nəfər hərbi qulluqçu, gizir Elşən Rüstəmov güllə yarası xəsarətləri alıb.**

Prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilərək cinayətin izləri rəsmiləşdirilib, maddi sübutlar götürülüb.

Faktla bağlı Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 29,120.2.1, 29,120.2.3, 29,120.2.4 və 29,120.2.11, 29,120.2.12-ci (bir qrup şəxs tərəfindən xidməti vəzifəsini yerinə yetirən şəxsi ümumi təhlükəli üsulla, terrorçuluqla əlaqədar və milli düşmənçilik niyyəti ilə öldürməyə cəhd), 214.2.1. 214.2.3 və 214.2.4-cü (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən odlu silahdan istifadə etməklə ağır nəticələrə səbəb olan terrorçuluq) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

# Azərbaycan–Pakistan dostluq və qardaşlığının yeni önəmli hədəfləri



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin iyunun 15-də mətbuata bəyanatlarında hər iki dost ölkənin iqtisadi əməkdaşlığının inkişaf etdirilməsi barədə ətraflı danışılıb. Dövlətimizin başçısı Pakistanın Baş naziri ilə görüşlərində ikitərəfli gündəlikdə nəzərdə tutulan regional proseslərin və regional təhlükəsizlik məsələlərinin müzakirə olunduğunu, bununla əlaqədar artıq Azərbaycandan bir neçə nümayəndə heyətinin Pakistana səfərinin planlaşdırıldığını bildirib.**

Xatırladaq ki, dövlət başçılarının nitqlərində iki ölkə arasında ticarətin həcminin artırılması üçün daha ciddi səylər göstərilməsinin zəruriliyi, bu istiqamətdə anlaşma memorandumunun imzalanması və məhsulların siyahısı üzərində işlənməsi diqqətə çatdırılıb. Əlbəttə, belə bir fəaliyyət davamlı ticarət dövriyyəsinin artırılması əminliyi yaradıb.

Yeri gəlmişkən, Baş nazir Məhəmməd Şahbaz Şərif respublikamızda səfərdə olarkən Azərbaycan–Pakistan iqtisadi münasibətlərinin inkişafı və bu istiqamətdə görüləcək işlər barədə də müzakirələr aparılıb.

İqtisadiyyat naziri Mikayıl Cabbarov, energetika naziri Pərviz Şahbazov, Pakistan İslam Respublikasının ticarət naziri Səid Navid Qəmər və neft üzrə dövlət naziri Musadik Məsud Malik arasında keçirilən görüşdə də dostluq və qardaşlığa əsaslanan əlaqələrin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyi vurğulanıb. Ticarətin Pakistanla tərəfdaşlığın əsas prioritetlərindən biri olduğu və bu sahəyə xüsusi töhfə verəcək Preferensial Ticarət Sazişinin imzalanması ilə bağlı işlərin davam etdirildiyi bildirilib. Bununla yanaşı, biznes forumlar və ticarət missiyaları kimi iqtisadi alətlərin də səmərəli əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində, həmçinin konkret layihələrin icrasında əhəmiyyətli rol oynadığı vurğulanıb.

Görüşdə Azərbaycanın uzunmüddətli strateji hədəflərindən bəhs edilib, ölkəmizin təşəbbüskarı və fəal iştirakçısı olduğu regional və qlobal enerji layihələrinin tərəfdaş ölkələrin enerji təchizatının diversifikasiyasına töhfə verdiyi qeyd olunub. Pakistanla energetika sahəsində əməkdaşlığın inkişafının və bu sahədə investisiyaların təşviqi üçün geniş imkanların mövcudluğu da diqqətə çatdırılıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Ticarət Nazirliyi arasında ticarət sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. Sənəd iki ölkə arasında ticarət əlaqələrinin dərinləşdirilməsi üçün müvafiq tədbirlərin həyata keçirilməsi məsələlərini əhatə edib.

Onu da deyək ki, Azərbaycan iyul ayından etibarən Pakistana güzəştli şərtlərlə mayeləşdirilmiş təbii qaz (LNG) tədarükünə başlayacaq.

Azərbaycandan LNG idxalına başlanılması bu ay Rusiyadan neftin ilk partiyasını aldıqdan sonra Pakistanın enerji ehtiyaclarını ödəməkdə əldə etdiyi ikinci böyük nailiyyət olub.

LNG tədarükü Pakistan Dövlət Neft Şirkəti (PSO) ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında bağlanmış müqavilə əsasında həyata keçiriləcək.

Qeyd edək ki, Azərbaycanla Pakistan arasında istər ənənəvi, istərsə də bərpa-olunan enerji sahəsində geniş imkanlar var. Görüşlərdə səsləndirilən fikirlərdən də bu, aydın görünür. Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin mətbuata bəyanatında vuğuladığı fikirlər də bunun bariz ifadəsidir: "Azərbaycan zəngin təbii sərvətlərə, o cümlədən böyük neft-qaz sərvətlərinə malikdir. Bizim, əlbəttə, bu sahədə sıxıntımız var. Biz çox bahalı idxala bağlı olan ölkəyik. Bu, bizim üçün çox baha başa gəlir. Ötən il biz bu sahəyə 27 milyard ABŞ dolları xərcləmişik. Yəni, əziz qardaşım, biz bunun öhdəsindən gələ bilmirik, çünki müxtəlif çağırışlarla üz-üzəyik".

Şübhəsiz ki, Pakistanın Baş naziri bu sözləri deyəndə inflyasiya, idxal olunan neftin qiymətinin qalxması və Ukrayna münaqişəsi səbəbindən ölkəsinin böyük təzyiqlə üz-üzə qaldığını nəzərdə tutur. Məhəmməd Şahbaz Şərifin Pakistanın enerjiyə 27 milyard ABŞ dolları xərclədiyini diqqətə çatdırması da bu məsələnin nə qədər ağır olduğu haqqında aydın təsəvvür yaradır. Ona görə də Pakistanın Baş nazirinin bildirdiyi kimi, Azərbaycanın bu sərvətə malik olması dost ölkənin üzləşdiyi problemin həllinə inam yaradır.

Danışıqlar prosesində Pakistan Azərbaycanla, eyni zamanda, neft-kimya məhsulları sahəsində əməkdaşlığa etmək istəyi də xatırladılıb. "Biz Səudiyyə Ərəbistanının "Aramco" şirkəti ilə danışıqlar aparırıq və çox şad olarıq ki, Azərbaycan da bu məsələyə qoşulsun və bizim həmin bu sahəyə xərclədiyimiz pulun bir hissəsini sərmayə olaraq öz üzərinə götürsün. Bizim Günəş enerjisi sahəsində potensialımız var. Biz arzularımızı gərgin əmək sayəsində həyata keçirə bilsək, əziz Qardaşım, Sizi inandırıram ki, biz çox bahalı olan bu xərci, yəni, nefti idxal etmək məsələsini Günəş enerjisi vasitəsilə mübadilə edə bilərik. Biz, hətta bu enerjini ixrac edə bilərik, bu, mümkündür. Çünki bizim bu sahədə potensialımız 10 min meqavata bərabərdir", – deyə Məhəmməd Şahbaz Şərif qeyd edib.

Burada bir məqamı da qeyd etmək istərdik. Pakistan Azərbaycana düyü ixrac edən ölkədir. Hazırda düyü ixracını artırmaq qarşıda duran əsas məsələlərdən biridir. Düzdür, Azərbaycan bu istiqamətdə ötən dövr ərzində bir sıra tədbirlər həyata keçirib, Pakistan düyüsünün Azərbaycan bazarına maneəsiz ixracı məqsədilə hər cür rüsumları aradan qaldırıb. Yaxın vaxtlarda isə Pakistanın Basmati düyü brendinin də Azərbaycanda supermarket şəbəkələrində təqdim olunacağı nəzərdə tutulub.

Prezident İlham Əliyev Pakistanla bağlı fikirlərində iki ölkə arasında əməkdaşlığın dostluq və qardaşlıq prinsiplərinə əsaslandığını, istər işğal dövründə, istər müharibə zamanı, istərsə də torpaqlarımız düşməndən təmizləndikdən sonra dost dövlətin haqq-ədalətin tərəfində dayandığını, belə bir mövqeyin, siyasi və mənəvi dəstəyin isə xalqımız tərəfindən yüksək dəyərləndirildiyini qeyd edib.

Dövlətimizin başçısı Pakistanla respublikamızın iqtisadi-ticari əlaqələrinin gücləndirilməsinin daim diqqətdə saxlanıldığını, qardaş ölkədən gətirilən düyü üçün xüsusi qaydaların tətbiqinin də bunun bariz ifadəsi olduğunu söyləyib. "Çünki biz bu addımı qarşılıqlı ticarət artımını stimullaşdırmaq üçün atmağa qərar verdik və Baş nazir Şahbaz Şəriflə müzakirə etdiyimiz kimi, biz bir-birimizi hansı növ məhsullarla təmin edə biləcəyimizi nəzərdən keçirməliyik. Əgər qardaş ölkədə yüksək keyfiyyətli düyü varsa, niyə biz düyünü başqa yerdən almalıyıq. Beləliklə, bu qərar açıq-aydın bizim qardaşlıq əlaqələrimizə əsaslanıb".

Beləliklə, dövlətimizin başçısının tapşırığı ilə hələ ötən il noyabrın 22-də Nazirlər Kabineti tərəfindən əhalinin qida rasionunda xüsusi yer tutan düyü məhsulunun idxalı ilə bağlı qərar qəbul edilib. Həmin qərara əsasən Pakistandan Azərbaycana gətirilən ölkə mənşəli düyünün idxalında gömrük rüsumu 2027-ci il dekabrın 31-nə qədər aradan qaldırılıb.

Yeri gəlmişkən, son illər ərzində dost ölkədə düyü istehsalı və ixracında yüksək göstəricilər qeydə alınıb. Statistikaya əsasən, Pakistanda düyü istehsalı 2019-cu ildə 7,5 milyon tona, 2021-ci ildə isə 9 milyon tona yüksəlib.

Hazırda bu ölkədə istehsalla yanaşı, ixrac da sürətlə artır. 2022-ci il 2,15 milyard dollarlıq düyü ixrac edən Pakistanda, cari ilin əvvəlinədək dost ölkənin bu məhsulla bağlı ixrac coğrafiyasının genişlənməsi nəticəsində həmin göstərici bir qədər də yüksəlib.

Xatırladaq ki, Azərbaycanda il ərzində orta hesabla 65-70 min ton düyü istehlak olunur. Bu həcmin isə təxminən 10 min tonu respublikamızda istehsal edilir, qalanı xaricdən alınır.

***V.BAYRAMOV, "Xalq qəzeti"***

# Ölkəmizdə 3-4 faiz illik iqtisadi artım gözlənilir

**Son illər ölkəmizdə Minilliyin İnkişaf Məqsədlərinə nail olunması üzrə kompleks tədbirləri əhatə edən dövlət proqramlarının uğurla həyata keçirilməsi nəticəsində bir çox istiqamətlərdə mühüm nailiyyətlər əldə olunub. Təkcə onu qeyd etmək kifayətdir ki, Azərbaycan yoxsulluğun yarıya qədər azaldılması öhdəliyini götürən 128 ölkə arasında buna əməl edən 18 dövlətdən biri olub. Bununla yanaşı, İnsan İnkişafı İndeksində göstəricilərini 30 faiz artıran Azərbaycan 2010-cu ildə "orta insan inkişafı" statusuna malik ölkələr qrupundan çıxaraq "yüksək insan inkişafı" kateqoriyasına daxil olub.**

Bu və ya digər məsələlər barədə iyunun 14-də Bakıda keçirilmiş "2030-cu ilə doğru: Azərbaycanda sosial-iqtisadi inklüzivlik" mövzusunda ikinci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqunda ətraflı bəhs edilib. Bildirilib ki, BMT-nin Minilliyin Bəyannaməsinin davamı olaraq Azərbaycan "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşulub. Ötən müddətdə ölkəmizdə DİM-in icrası uğurla davam etdirilib, bu istiqamətdə dünyada 10 ölkədən biri, regionda isə ilk ölkə olan Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna 3 hesabat təqdim edilib. Gələn il isə daha bir hesabatın təqdim olunması nəzərdə tutulur.




Beynəlxalq təşkilatların Azərbaycanda akkreditə olunan nümayəndələrinin, müvafiq qurumların rəhbərləri və əməkdaşlarının iştirak etdikləri tədbirdə Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov çıxış edərək Azərbaycanın BMT-nin Qlobal İnkişaf Strategiyasına qoşulduğunu və bu strateji proqrama töhfə verdiyini nəzərə çatdırıb. Qeyd olunub ki, Azərbaycan 2030-cu ilə kimi özünün Milli İnkişaf Konsepsiyasını həyata keçirir. Bu konsepsiyaya 40-dan çox proqram daxildir ki, bunlar da ölkədə sosial-iqtisadi inkişafın dayanıqlı olmasını təmin edir.

Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident-əlaqələndiricisi Vladanka Andreyeva çıxış edərək nəzərə çatdırıb ki, BMT-nin məqsədi inkişaf etməkdə olan ölkələrə yardım etməkdən ibarətdir. Bu gün dünyada mövcud problemlərin həll edilməsi üçün həm zaman, həm də resursların lazım olduğunu vurğulayan BMT nümayəndəsi bütün bunlara baxmayaraq, Azərbaycanın inklüziv inkişaf istiqamətində uğurlu addımlar atdığını bildirib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov çıxış edərək deyib ki, Azərbaycanın yeni strateji inkişaf mərhələsinin əsas hədəfləri milli iqtisadiyyatın rəqabət qabiliyyətinin və maliyyə dayanıqlılığının gücləndirilməsi, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyətin formalaşdırılması, ölkənin rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanına çevrilməsi, azad edilmiş ərazilərin sürətli reinteqrasiyası kimi 5 əsas məqsəddən ibarətdir. Bildirilib ki, strateyjanın icrası nəticəsində ölkə iqtisadiyyatının hər il orta hesabla 3-4 faiz, qeyri-neft və qaz ÜDM-nin illik orta hesabla 5 faiz, 2026-cı ildə qeyri-neft-qaz ixracının həcminin 2021-ci illə müqayisədə 85 faiz artırılması, eləcə də özəl sektorun iqtisadiyyatda payının 88 faizə çatdırılması planlaşdırılır. Nazir müavini, həmçinin deyib ki, regionlarda kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq, qeyri-formal məşğulluğa qarşı zəruri qabaqlayıcı və nəzarət tədbirləri gücləndiriləcək.

"2030-cu ilə doğru: Azərbaycanda sosial-iqtisadi inklüzivlik" mövzusunda ikinci Dayanıqlı İnkişaf Məqsədləri Dialoqunda ölkəmizin işğaldan azad edilmiş ərazilərinin bərpası istiqamətində həyata keçirilən tədbirlərdən də söhbət açılıb. İqtisadiyyat nazirinin müavini S. Məmmədov qeyd edib ki, hazırda Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, bərpası və dayanıqlı inkişafının təmin olunması üçün zəruri infrastruktur yaradılır, əhalinin doğma yurda qayıdışı istiqamətində lazımi tədbirlər görülür.

Nazir müavini bildirib ki, son onilliklər ərzində inkişaf etmiş ölkələrdə inklüzivlik, bərabər imkanlara əsaslanan inkişaf və regional bərabərsizliklərin aradan qaldırılması, rəqəmsal inkişaf, dairəvi iqtisadiyyat və yerli istehsal, "ağıllı" və dayanıqlı yaşayış məntəqələri, vətəndaş iştirakçılığı və s. amillər idarəetmənin yeni istiqamətləri kimi önə çıxıb. Onun dediyinə görə, bu məqsədlə işğaldan azad olunmuş ərazilərin bərpası və dayanıqlı inkişafı istiqamətində həyata keçiriləcək tədbirlər müəyyənləşdirilərkən sözügedən amillər ətraflı araşdırılıb, onların mümkün təsirləri təhlil edilib, BMT-nin və digər beynəlxalq qurumların irəli sürdükləri qlobal inkişaf prioritetləri nəzərə alınıb.

Azad edilmiş ərazilərin düşmən tərəfindən minalanmasının torpaqların reabilitasiyasına mane olduğunu diqqətə çatdıran Sahib Məmmədov deyib ki, bu il martın 2-də Bakıda keçirilmiş Qoşulmama Hərəkatının COVID 19-a Qarşı Mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşündə Prezident İlham Əliyev tərəfindən minatəmizləmə fəaliyyətinin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi BMT-nin 2030 Gündəliyinə əlavə edilməsi təşəbbüsü irəli sürülüb.

Tədbirdə dayanıqlı inkişafa nail olunmasında bütün maraqlı tərəflərlə səmərəli əməkdaşlığın və dialoqun qurulmasının xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Qeyd olunub ki, "DİM Dialoqlar" təşəbbüsü çərçivəsində istər dövlət, istər qeyri-hökumət təşkilatları, özəl sektor və beynəlxalq təşkilatlarla aparılacaq müzakirələrin ölkəmizdə "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəliy"in icrasına və iqtisadi və sosial inklüzivliyin təmin edilməsi istiqamətində aparılan siyasətə öz müsbət töhfəsini verəcək.

***M. YAQUBZADƏ, "Xalq qəzeti"***

## Bölgə xəbərləri

### Naxçıvanda sahibkarlarla görüş

**Bugünlərdə Naxçıvanda qida və xidmət sektoru üzrə fəaliyyət göstərən sahibkarlarla qanunvericiliyin tələblərinə əməl olunması ilə bağlı görüş olub.**

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev açaraq deyib ki, qəbul olunmuş dövlət proqramlarına uyğun olaraq Naxçıvanda yeni istehsal, xidmət sahələri yaradılmış, yeni sosial və infrastruktur obyektləri istifadəyə verilmiş və ya əsaslı bərpa edilmiş, tikinti-energetika kompleksi hərəkətə gətirilmiş, irimiqyaslı suvarma-meliorasiya tədbirləri həyata keçirilmişdir.

Vurğulanıb ki, sahibkarlığın inkişafına xüsusi diqqət yetirilməsi, yeni iş yerlərinin açılması, əhalinin keyfiyyətli yerli məhsullara olan tələbatının ödənilməsi muxtar respublikada aparılan iqtisadi siyasətin əsas istiqamətlərindəndir. İqtisadiyyat Nazirliyi olaraq daim sahibkarların yanında olmaqla, onlara hüquqi-maddi dəstək verməklə bərabər, istehlakçıların da hüquqlarının qorunması, vətəndaş məmnunluğunun təmin olunması əsas vəzifələrdən biridir.



Diqqətə çatdırılıb ki, bu gün sahibkarlar istehsal olunan məhsulların satışını genişləndirməklə yeni iş yerləri açmağa, muxtar respublika büdcəsinə daxil olmaları artırmağa kömək etməklə əhalinin tələbatının daha dolğun ödənilməsini təmin edirlər. Bu görüşdən sonra xidmət sektorunda qanunvericiliyin tələblərinə ciddi əməl olunmaqla əhaliyə yüksək və keyfiyyətli xidmət göstəriləcək, yerli istehsal daha keyfiyyətli, rəqabətədavamlı məhsul üzrə ixtisaslaşacaq, daxili bazarın idxaldan asılılığı azalacaqdır.

Görüşdə Naxçıvan Muxtar Respublikasının səhiyyə nazirinin birinci müavini Samiq Sadıxov səhiyyə sahəsində tətbiq olunacaq yeniliklərdən danışıb, gigiyena-epidemiologiya tədbirlərinin diqqətdə saxlanılmasının vacibliyini vurğulayıb. Bildirilib ki, əhaliyə göstərilən iaşə xidmətlərində gigiyena qaydalarına ciddi əməl edilməlidir.

Görüşdə Naxçıvan Muxtar Respublikasının Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Qida Təhlükəsizliyi şöbəsinin müdiri Orxan Orucovun və Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin direktor müavini Zakir Cəfərovun da çıxışları dinlənilib.

Sonda sahibkarları maraqlandıran mövcud problemlərlə bağlı müzakirələr aparılıb.

***Səbuhi HƏSƏNOV, "Xalq qəzeti"nin bölgə müxbiri***

### Göygöl rayonu 2 beynəlxalq sertifikat alıb

**Göygöl Rayon İcra Hakimiyyəti idarəetmə sistemini ISO 9001 və ISO 37001 beynəlxalq standartları üzrə quran və sertifikatlara layiq görülən ilk yerli icra qurumu olub.**

Azərbaycan Prezidentinin 2022-ci il 4 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın 2.11. bəndində



ISO 37001 "Antikorrupsiya idarəetmə sistemləri" beynəlxalq standartının tətbiqinin nəzərdən keçirilməsi və bununla bağlı təkliflər verilməsi, bu sahədə qabaqcıl beynəlxalq təcrübənin, müvafiq standartın tətbiqi imkanlarının öyrənilməsi, təkliflərin toplanılması, habelə qiymətləndirilməsi istiqamətində araşdırma aparılması, nəticədə, "Antikorrupsiya idarəetmə sistemləri"nin qurulmasının təşviqi ilə bağlı aidiyyəti dövlət orqanlarına tapşırıq verilib.

Qeyd edilən tədbirin icrası ilə bağlı, eləcə də idarəetmənin səmərəli təşkili, işçilərin peşəkarlığının yüksəldilməsi, keyfiyyətin artırılması, sənədləşmənin düzgün aparılması, daimi təkmilləşmə sisteminin formalaşması, riskin azaldılması, həmçinin təsbitliyin yaranması, səlahiyyətlərin düzgün bölgüsü və qarşılıqlı əlaqə sisteminin qurulması, resursların səmərəli istifadəsi, vətəndaş məmnunluğunun artırılması kimi faydaları özündə ehtiva edən, hazırda dünyada ən çox tətbiq edilən ISO 9001 "Keyfiyyəti idarəetmə sistemləri–tələblər" beynəlxalq standartlaşdırmanın tələblərinin araşdırılması, öyrənilməsi və tətbiq edilməsi istiqamətində Göygöl Rayon İcra Hakimiyyətində işlər uğurla həyata keçirilib.

Bu münasibətlə Göygöl Rayon İcra Hakimiyyətində görüş keçirilib. İcra hakimiyyətinin başçısı Elvin Paşayev ölkə rəhbərinin tapşırıq və tövsiyələri əsasında da respublikamızda aparılan sosial-iqtisadi islahatlardan, əldə olunan nailiyyətlərdən danışaraq qurumun fəaliyyətinin ISO 9001 və ISO 37001 beynəlxalq standartlarının tələblərinə uyğunlaşdırılması məqsədilə mərhələli şəkildə həyata keçirilən işlərdən danışıb. Rayon rəhbəri qeyd olunan standartların tətbiqinin icra hakimiyyətinin fəaliyyətində idarəetmənin effektivliyinin artırılmasına və vətəndaş məmnunluğunun təmin edilməsinə əhəmiyyətli töhfə verəcəyini bildirib.

Tədbirin sonunda ABŞ-nın "STAREGISTER" təşkilatının Azərbaycandakı yerli təmsilçisi, İNCERT şirkətinin rəhbəri Şamo Muradov tərəfindən Göygöl Rayon İcra Hakimiyyətinə ISO 9001:2015 – "Keyfiyyəti idarəetmə sistemləri" və ISO 37001:2016 – "Antikorrupsiya idarəetmə sistemi" beynəlxalq standartları üzrə sertifikatlar təqdim olunub.

***Hamlet QASIMOV, "Xalq qəzeti"nin bölgə müxbiri***

# TAP-ın genişləndirilməsi Avropanın Azərbaycan qazına tələbatını ödəməyə yönəlib

## Bu kəmərin nəqletmə gücü ikiqat artaraq 20 milyard kubmetrə çatacaq

**Azərbaycanın təbii qazını Avropaya nəql edən Trans-Adriatik boru kəmərinin istifadəyə verilməsi ölkəmizin enerji sahəsində etibarlı tərəfdaş kimi mövqeyini bir qədər də gücləndirib. Bu da "mavi yanacağa" tələbatın ildən-ilə artdığı bir şəraitdə ölkəmizlə enerji sahəsində əməkdaşlıq etmək istəyən ölkələrin sayının xeyli artmasına səbəb olub. Avropada Azərbaycan qazına tələbatın artması isə Cənub Qaz Dəhlizinin genişləndirilməsi zərurətini yaradır.**




İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxışları zamanı iki ölkə arasında enerji sahəsində əməkdaşlığın gələcək inkişaf perspektivlərindən bəhs edilib. Azərbaycandan Türkiyəyə qaz ixracının bundan sonra da artırılması ilə bağlı razılıq əldə edildiyini diqqətə çatdıran dövlətimizin başçısı İlham Əliyev bildirib ki, Avropa ölkələrində də Azərbaycan qazına böyük tələbat var. Bu da Azərbaycan qazının qardaş ölkə vasitəsilə Avropaya ixracının ildən-ilə artmasına səbəb olur.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da bəyanatında enerji sahəsində əməkdaşlığa dair bir sıra vacib məqamlara toxunub. Enerji sahəsində istər TANAP, istərsə də TAP ilə bağlı illərdən bəri görülən işlərin təfərrüatlarının iki ölkənin nazirləri tərəfindən müzakirə olunduğunu vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan bildirib ki, Avropa enerji sahəsində, xüsusilə Türkiyə vasitəsilə alacağı qaz məsələsində çox narahatdır və buna görə davamlı xahişlər edir. Qardaş ölkənin rəhbəri bu məsələ ilə əlaqədar Azərbaycan və Türkiyənin üzərinə düşən işləri bundan sonra da həyata keçirməkdə davam edəcəklərini vurğulayıb.

Hazırda Avropa İttifaqı (Aİ) infrastrukturun genişləndirilməsi tədbirlərinə sərmayələrin yatırılmasını təmin etmək üçün azərbaycanlı tərəfdaşlarla işi davam etdirir. Bunu Avropa İttifaqının nümayəndəsi bildirib. O deyib ki, REPowerEU planı (Rusiya qazından asılılığı azaltmaq) və Aİ ilə Azərbaycan arasında yeni strateji enerji tərəfdaşlığına dair Anlaşma Memorandumu 2027-ci ilə qədər Cənub Qaz Dəhlizinin illik gücünü 2 dəfə artıraraq 20 milyard kubmetrə çatdırmaq məqsədi daşıyır. Bunun Avropanın enerji ehtiyatlarının təmin edilməsində mühüm rol oynayacağını vurğulayan nümayəndə onu da deyib ki, Cənub Qaz Dəhlizinin genişləndirilməsi onun Avropa hissəsinin, Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) modernləşdirilməsini nəzərdə tutur.

Məlum olduğu kimi, TAP-ın genişləndirilməsi Avropaya ötürülən Azərbaycan qazının həcminin artırılmasına imkan yaratsa da, "mavi yanacağ"ın ölkələrə çatdırılmasında interkonnektorlar (birləşdirici kəmərlər) da mühüm rol oynayır. Bunu Yunanıstan–Bolqarıstan interkonnektorunun timsalında aydın görmək mümkündür. Xatırladaq ki, adıçəkilən kəmər 2022-ci ildə ilkin gücü ildə 3 milyard kubmetr olmaqla istismara başlayıb. Ötən müddətdə Yunanıstan–Bolqarıstan interkonnektoru ilə 1 milyard kubmetrdən çox təbii qaz nəql olunub.

Qeyd edək ki, Yunanıstan-Bolqarıstan interkonnektoru Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının istismarının ikinci mərhələsi çərçivəsində hasil edilən "mavi yanacağ"ın Bolqarıstana nəqlini nəzərdə tutur. Ümumi uzunluğu 182 kilometr olan birləşdirici boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Gələcəkdə kəmərin illik ötürücülük qabiliyyətinin 5 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

TAP AG layihəsi üzrə icraçı direktor Luka Skyepatti isə bildirib ki, hazırki mərhələdə Yunanıstanın Kipoy şəhərindəki mövcud kompressor stansiyasına bir əlavə kompressor aqreqatının quraşdırılması və obyektlərin modernizasiyası tələb olunur. Erkən mərhələdə Kipoyda tikinti işlərinin 2023-cü ilin ikinci yarısında başlayacağını diqqətə çatdıran icraçı direktor onu da qeyd edib ki, istənilən infrastruktur genişləndirmə ssenarisində əlavə borular tələb olunmur. "TAP-ın və bütünlükdə Cənub Qaz Dəhlizinin dizaynı əlavə kompressor qurğuları və stansiyaları hesabına ötürücülük qabiliyyətini ildə 20 milyard kubmetrədək artırmağa imkan verir.

Azərbaycanın energetika naziri Pərviz Şahbazov da bu yaxınlarda bildirib ki, hazırda TAP konsorsiumu kəmərin ötürücülük qabiliyyətinin artırılması üçün 3 ssenarini nəzərdən keçirir. Məhdud ssenari kəmərin ötürücülüyünün ildə 10 milyard kubmetrdən 14,4 milyard kubmetrə, qismən artırılma 17,1 milyard kubmetrə, tam artırılma isə 20 milyard kubmetrə qədər çatdırılmasını nəzərdə tutur.

*Mirbağır YAQUBZADƏ,*
*"Xalq qəzeti"*

**Ekspert rəyi**



**Elman İSKƏNDƏROV,**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti neft-qaz-mədən fakültəsinin dekanı, texnika elmləri doktoru, professor**

Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Cənub Qaz Dəhlizi artıq reallığa çevrilib. Məlum olduğu kimi, Azərbaycan 2020-ci il dekabrın 31-dən Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya qaz tədarük etməyə başlayıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə olaraq öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarıb. Dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan, həm də öz ixrac imkanlarını şaxələndirməyə nail olub.

Hazırda sözügedən dəhliz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə xidmət edən Cənub Qaz Dəhlizi Bakıdan başlayaraq Gürcüstan, Türkiyə, Yunanıstan və Albaniya ərazisindən keçməklə İtaliyaya qədər uzanır. Azərbaycanın "Şahdəniz" yatağından hasil olunan qaz Trans-Anadolu (TANAP) və Trans-Adriatik (TAP) kəmərləri, eləcə də interkonnektorlar vasitəsilə Şərqi Avropa ölkələrinə çatdırılır.

İlkin olaraq Cənub Qaz Dəhlizi ilə 10 milyard kubmetr qaz ixracı planlaşdırılmışdı. Lakin Avropanın təbii qaza olan tələbatı dəhlizin genişləndirilməsi məsələsini aktuallaşdırdı. Elə bu səbəbdən də ötən ilin iyul ayında Avropa Komissiyasının sədri Ursula Fon der Lyayen və enerji məsələləri üzrə komissar Kadri Simsonun Bakıya səfəri çərçivəsində Avropa İttifaqı ilə Azərbaycan arasında Cənub Qaz Dəhlizinin genişləndirilməsinə dair memorandum imzalandı. Memoranduma əsasən, Azərbaycan Avropaya nəql etdiyi qazın həcmini 2027-ci ildə 20 milyard kubmetrə çatdıracaq.

Memorandumun icrası Avropanın enerji təminatını bir qədər də gücləndirəcək. Yaxın zamanlarda isə Avropaya daha çox qaz tədarük olunması üçün Cənub Qaz Dəhlizinin son seqmenti sayılan Trans-Adriatik Boru Kəmərinin genişləndirilməsinə başlanılacaq. TAP-ın, bütövlükdə isə, Cənub Qaz Dəhlizinin genişləndirilməsinin Azərbaycan üçün də müstəsna əhəmiyyəti vardır. Hər şeydən əvvəl, ölkəmiz Avropaya daha çox qaz ötürmək imkanı qazanacaq. Eyni zamanda, Avropa məkanında Azərbaycan qazının alıcılarının sayının artması nəticəsində ölkəmiz özünün ixrac coğrafiyasını xeyli genişləndirməyə nail olacaq.

## Kənd təsərrüfatında istehsal genişlənir

**2023-cü ilin ötən 5 ayında Azərbaycanın aqrar sektorunda istehsal olunmuş ümumi məhsulun faktiki qiymətlərlə dəyəri 3 milyard 116 milyon manat təşkil edib. Bunun da 2 milyard 372,3 milyon manatı heyvandarlıq, 743,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.**

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, ölkəmizdə kənd təsərrüfatının istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,5 faiz, bitkiçilik məhsulları üzrə isə 10,9 faiz artıb.

## Yükdaşımalar 3 dəfə artıb

**Cari ilin yanvar-may aylarında Şimal–Cənub nəqliyyat dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsindən 317 min tona yaxın yük daşınıb. Bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 dəfə çoxdur.**

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən verilən məlumata görə, Sumqayıt–Yalama stansiyasında yol təsərrüfatı yeniləndikdən, sürət həddi artdıqdan sonra daha çox müştəri cəlb olunacaq. Bu isə Şimal–Cənub nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcminin bir qədər də artmasına səbəb olacaq.

*"Xalq qəzeti"*

## 5 ayda 11,9 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub

**2023-cü ilin yanvar-may aylarında Azərbaycanda 11,886 milyon kilovat-saat elektrik enerjisi istehsal olunub.**

Bu barədə Energetika Nazirliyinin 2023-cü ilin 5 ayı üzrə operativ məlumatında bildirilir. Məlumatda qeyd olunur ki, ölkədə elektrik enerjisinin istehsalı 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 629,3 milyon kilovat-saat və ya 5,6 faiz artıb.

Cari ilin may ayında isə ölkə üzrə elektrik enerjisinin istehsalı 2 milyard 34,3 milyon kilovat-saat təşkil edib ki, bu



da 2022-ci ilin eyni dövrü ilə müqayisədə 28,9 milyon kilovat-saat, yaxud 1,4 faiz çoxdur.

*"Xalq qəzeti"*

## Azərbaycan 5 ayda Avropaya 5 milyard kubmetr qaz ixrac edib

**Bu ilin yanvar–may aylarında Azərbaycanın təbii qaz ixracının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 9,6 faiz artıb.**



Bunu energetika naziri Pərviz Şahbazov "Twiter"də bildirib. Məlumata görə, ötən 5 ayda qazın 4,8 milyard kubmetri Avropaya, 4,3 milyard kubmetri Türkiyəyə, 1,2 milyard kubmetri isə Gürcüstana ixrac olunub. Nazirin sözlərinə görə, hesabat dövründə Trans-Anadolu Qaz Boru Kəməri Türkiyəni 2,4 milyard kubmetr "mavi yanacaq"la təchiz edib.

Hazırda Azərbaycan qazının Avropanın cənubuna nəql olunduğu Cənub Qaz Dəhlizinin Avropa hissəsi olan Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir.

Qeyd edək ki, Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü 2020-ci il dekabrın 31-dən başlayıb.

*"Xalq qəzeti"*

**Prezident İlham Əliyevin dəvəti ilə ölkəmizdə dövlət səfərində olan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də mətbuata bəyanatında bir sıra məsələlərlə bərabər, Naxçıvan üzərindən Türkiyəyə dəmir yolu xəttinin çəkiləcəyini də vurğulayıb.**

Qardaş ölkənin lideri ən çox həssaslıq göstərilən Zəngəzur dəhlizi layihəsindən danışarkən bu təşəbbüsün sürətlə həll olunacağına əminliyini bildirib. Eyni zamanda, belə bir layihənin hər iki qardaş ölkəyə iki mühüm imkan qazandıracağını deyib. Belə ki, Türkiyə rəhbəri istər avtomobil, istərsə də dəmir yolları ilə bağlı atılacaq addımlar sayəsində Azərbaycandan İğdıra, Naxçıvana yolun açılması ilə qardaş ölkənin muxtar respublika ilə ki, sözügedən müqavilə Türkmənistan, Özbəkistan, Qazaxıstan, İran, Oman, Hindistan və Pakistan arasında Avrasiya regionunda nəqliyyat əlaqələrinin inkişafını gerçəkləşdirmək məqsədi daşıyır.

Adları çəkilən ölkələr vasitəsilə həyata keçirilən beynəlxalq yükdaşımaların Zəngəzur dəhlizindən Avrasiya bazarlarına çatdırılması Qarabağ regionunun iqtisadi potensialının artmasında xüsusi rol oynaya bilər.

# Naxçıvandan Türkiyəyə dəmir yolu çəkiləcək

## Bu xətt qardaş ölkənin Zəngəzur dəhlizinə qoşulmasına imkan yaradacaq



əlaqəsinin daha güclü olacağını diqqətə çatdırıb. Ərdoğan daha sonra bildirib: "Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək. Çünki yol mədəniyyətdir. Əgər yolunuz varsa, mədənisiniz. Yolunuz varsa, mədəniyyətə çatmısınız. Əgər yol yoxdursa, heç bir şey yoxdur. Hazırda Azərbaycanın, xüsusilə müharibələrdən sonra infrastrukturla bağlı böyük həssaslıq göstərdiyi ən əhəmiyyətli məsələ yollardır. Bundan əvvəlki səfərimdə də gördüm, bütün tunellər, viaduklar Azərbaycanın Qarabağ müharibələrindən – istər Birinci, istərsə İkinci Qarabağ müharibəsindən sonra necə inkişaf etdiyini ən gözəl şəkildə ortaya qoyur".

Bakıda keçirilən Azərbaycan ilə Türkiyə arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 10-cu iclasında da bu barədə ətraflı bəhs edilib. İclasda Azərbaycanın əsas hissəsi ilə Türkiyə arasında Naxçıvan vasitəsilə birbaşa dəmir yolu əlaqəsinin təmin edilməsi baxımından Qars–İğdır–Aralık–Dilucu–Sədərək–Naxçıvan–Culfa dəmir yolu layihəsinin reallaşdırılmasının mühüm önəm daşıdığı xüsusi vurğulanıb. Eyni zamanda, Zəngəzur dəhlizinin açılması və Naxçıvana dəmir yolunun çəkilməsi nəticəsində Azərbaycan–Türkiyə iqtisadi–ticari əlaqələrinin genişlənəcəyi diqqətə çatdırılıb.

Yeni yaranmış reallıqlar fonunda nəqliyyat kommunikasiyalarının açılmasının əməkdaşlıq üçün yaxşı imkanlar vəd etdiyi bildirilən həmin tədbirdə Zəngəzur dəhlizinin açılmasının regional əməkdaşlığı daha da gücləndirəcəyinə, bölgə ölkələrinin iqtisadi tərəqqisinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Zəngəzur dəhlizindən söz düşmüşkən, xatırladaq ki, bu infrastruktur ölkəmizin Qərb hissəsi ilə Ermənistanın ərazisindən keçərək Naxçıvanla nəqliyyat əlaqələrinin yaradılmasını nəzərdə tutur. Bununla da sözügedən dəhliz Mərkəzi Asiya və Cənubi Qafqaz, Avropa və Asiya arasında olan iqtisadi əlaqələrin yaranmasında və inkişaf etdirilməsində həlledici rolu şərtləndirir.

Prezident İlham Əliyev çıxışlarının birində Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətindən danışaraq deyib: "Təkcə Orta Asiya ölkələrinin yükgöndərmə potensialını və oraya Avropa istiqamətindən gedən yükləri nəzərə alsaq görərik ki, hətta biz bütün bu layihələri icra etsək və genişləndirsək, yenə də çatmayacaq. Ona görə Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır".

Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətindən bəhs edərkən bir məqama da toxunmaq istərdik. Bunun üçün əvvəlcə Orta Dəhlizin fəaliyyətinə nəzər salaq. Hesablamalar göstərir ki, Çindən Avropaya gedən yük qatarı bu dəhliz vasitəsilə 12 gün ərzində 7 min kilometr məsafə qət edir. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə adıçəkilən infrastrukturun nə qədər sərfəli və təhlükəsiz olduğunu göstərir. Halbuki eyni qatar Cənub Dəhlizi üzrə Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. Bu mənada Azərbaycan reallaşmasına töhfə verdiyi Orta Dəhliz öz imkanları ilə şübhəsiz ki, region ölkələrinin koordinasiyalı əməkdaşlığı sayəsində dünya ticarətinin ən mühüm həlqələrindən biri kimi diqqət çəkir.

Zəngəzur dəhlizinin də Orta Dəhlizə inteqrasiya ediləcəyi nəzərdə tutulur. Belə halda Azərbaycan ərazisindən illik təxminən 35 milyon ton yükün daşınmasına imkan yaranır. Zəngəzur dəhlizinin digər bir iqtisadi əhəmiyyəti isə Mərkəzi Asiya ölkələrinin bu yeni nəqliyyat dəhlizindən gələcəkdə istifadəsi ilə bağlıdır. Başqa sözlə, bu dəhliz "Aşqabad müqaviləsi" adı ilə tanınan anlaşmaya qoşulan ölkələrinin Avropaya reinteqrasiyası üçün yeni perspektivləri şərtləndirir. Belə

**Ekspert rəyi**



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatında Orta Dəhlizin fəaliyyətini yüksək dəyərləndirib. Cümhurbaşqanı çıxışında Orta Dəhlizin həm Türkiyə, həm Azərbaycan, həm də bütövlükdə Türk Dünyası üçün böyük önəm daşıdığını vurğulayıb.

Mürəkkəb geopolitik vəziyyət səbəbi ilə Orta Dəhlizin dünya ticarətində bir inqilab olması isə göz önündədir. Belə ki, hazırda Çin–Avropa Birliyi (AB) ticarət əlaqələri Çin–ABŞ iqtisadi-ticari əlaqələrini geridə qoyur.

Xatırladım ki, 2022-ci ildə Çin–AB arasında ticarət dövriyyəsi 850 milyard avro olub. Bunun əksinə, Çin–ABŞ arasında xarici ticarət dövriyyəsi 690 milyard dollar təşkil edib ki, burada da xarici ticarət dövriyyəsi 382,9 milyard dollarlıq mənfi saldo təşkil edib. Yəni sadə dildə desək, bir il ərzində iki dövlət arasında əmtəə və xidmət ticarətindən 383 milyard dollara yaxın vəsait Çin iqtisadiyyatına "axıb".

Prezident İlham Əliyev isə mətbuata bəyanatında indiki geosiyasi şəraitdə Orta Dəhlizin öneminin daha da artdığını, Xəzər dənizi ilə daşınan yüklərin həcminin ildən-ilə çoxaldığını bildirib. Dövlətimizin başçısı məhz bu səbəbdən Azərbaycanda nəqliyyat və logistika imkanlarının genişləndirildiyini, Bakı Dəniz Limanının imkanlarını 25 milyon tona çatdırıldığını vurğulayıb.

Xatırladaq ki, 2017-ci ildə fəaliyyətə başlayan bu layihənin əhəmiyyəti 2022-ci ildə Ukraynada hərbi əməliyyatların başlanmasından sonra özünü daha qabarıq bürüzə verib. Belə ki, əgər 2022-ci ilə qədər Trans–Sibir dəmir yoluna üstünlük verilirdisə, hazırda Rusiya–Ukrayna müharibəsi kontekstində mövcud reallıq Avropa İttifaqı ilə ticarət prosesini ciddi şəkildə mürəkkəbləşdirib.

Buna görə də hazırda Orta Dəhliz Avropa ilə Asiya arasında ən təhlükəsiz və qısa yol hesab olunur. Bu nəqliyyat marşrutu həm də okeana çıxışı olmayan Azərbaycan, Türkmənistan, Özbəkistan və Əfqanıstan kimi ölkələr üçün qlobal bazarlara çıxış əldə etmək baxımından mühüm önəm daşıyır.

Beləliklə, 123,8 kilometrlik Horadiz–Cəbrayıl–Zəngilan–Ağbənd, 70 kilometrlik Xudafərin–Qubadlı–Laçın, 73 kilometrlik Kəlbəcər–Laçın, 13 kilometrlik Füzuli–Hadrut və 45 kilometrlik Bərdə–Ağdam yollarının inşası Qarabağ regionunun, o cümlədən Azərbaycanın nəqliyyat dəhlizlərinə çıxışını çoxşaxəli etməklə bu coğrafiyadan keçəcək xətlərin önəmini də artıracaq.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*

# Oxşar təxribat, eyni izlər...

## Hayların Laçın postunda, Zəngilan, Şuşa, Gədəbəy istiqamətlərində növbəti silahlı təxribatlarının əsas məqsədi Zəngəzur dəhlizinin açılmasına maneçilik törətməkdir



**Atəşi birinci erməni tərəfi açıb. Bu, ilk dəfə deyil və 15 iyun təxribatı qətiyyən təsadüf sayıla bilməz. Səbəblər aydındır, təxribatın hazırlanması və həyata keçirilməsinin ideya müəllifləri barədə isə hələlik ehtimalla danışa bilərik.**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, ardınca Pakistanın Baş naziri Şahbaz Şərifin Azərbaycana səfərləri və bu iki qardaş ölkənin liderlərinin Bakıdan səsləndirdikləri bəyanatlara diqqət yetirək. Xüsusilə Rəcəb Tayyib Ərdoğanın Bakı və İrəvan arasında davam etdirilən sülh danışıqları, Zəngəzur dəhlizinin açılması, Şuşada Türkiyənin Baş konsulluğunun açılacağı ilə bağlı yaxın qonşularımıza, eləcə də Cənubi Qafqazda maraqlarını güdən dünya güclərinə verdiyi mesajlar İrəvanda və onun tərəfdarlarında şok effekti və qıcıq doğurmaya bilməzdi. Türkiyə liderinin Zəngəzur dəhlizinin açılmasına tək Tehranın mane olduğunu söyləməsi isə yuxarıdakı ehtimal versiyalarından birinin üstünə işıq salа bilər.

"Biz 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatda nəzərdə tutulduğu kimi, regiondakı nəqliyyat-kommunikasiya xəttlərini açmağa hazırıq". Bunu Ermənistanın baş naziri Nikol Paşinyan, sanki heç nə olmayıbmış kimi, hökumətin iclasında dilə gətirib. Hayastanın keçmiş baş naziri Qrant Baqratyanın açıqlaması isə daha çox maraq doğurur: "Sülh sazişi imzalandıqdan sonra Rusiya sülhməramlı kontingentini saxlamağın sadəcə mənası qalmayacaq. İndi bu, artıq ona görə problemdir ki, həmin sülhməramlılar Laçın dəhlizinə nəzarət etməyi bacarmır və istəmirlər".

### Bayrağımıza tuşlanan güllə

İyunun 15-i saat 08:45-də Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu, gizir Elşən Rüstəmov postda Azərbaycan Bayrağını qaldırarkən xain erməni snayperinin güləsinə tuş gəlib. Sərhədçimiz şərti sərhədin o üzündən, yəni Ermənistan ərazisindən açılan atəş nəticəsində yaralanıb. Bununla bağlı Dövlət Sərhəd Xidmətinin məlumatında deyilir ki, yaralanmış hərbi qulluqçumuza ilkin tibbi yardım göstərilmiş, həyatı təhlükəsi yoxdur. Dünən DSX rəisinin müavini general-leytenant Cavid Abdullayev hazırda müalicəsi Kliniki Tibbi Mərkəzdə davam etdirilən hərbi qulluqçumuzu ziyarət edib.

Əvvəlcədən planlaşdırıldığı şübhə doğurmayan erməni hərbi təxribatının budəfəki coğrafiyası geniş olub. İyunun 16-sı saat 00:15-dən saat 00:20-dək Basarkeçər rayonunun Göysu yaşayış məntəqəsi istiqamətindəki mövqelərdən Ordumuzun Gədəbəy rayonunun Qalakənd yaşayış məntəqəsi istiqamətində olan mövqeləri atıcı silahlardan atəşə tutulub. Həmin gecə saat 00:50-dən saat 04:10-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Ordumuzun Şuşa istiqamətində yerləşən mövqeləri də fasilələrlə atəşə məruz qalıb. Atəşkəs rejiminin bir deyil, daha çox nöqtədə pozulması faktı "nizamlanmış əməliyyat planı"ndan xəbər verir.

"Həkəri çayının Laçın rayonu ərazisindən keçən hissəsindəki körpünü Azərbaycan bu yaxınlarda inşa edib. Ermənistan isə orada Azərbaycan bayrağının dalğalanmasının əsassız olduğunu iddia edir". Bunu Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə "Twitter"də yazıb. XİN rəsmisi xatırladıb ki, iyunun 15-də öz suveren ərazimiz olan Həkəri körpüsündə Azərbaycan bayrağı ucaldılıb, bu zaman Ermənistan silahlı qüvvələrinin bölmələri hərbi qulluqçularımıza atəş açıblar.

### Əsas plan: dəhliz təxribatı

Qeyri-rəsmi razılaşmaya əsasən, İrəvan Bakının Laçın yolunda sərhəd-keçid postunu qoymasını Zəngəzur dəhlizində də eyni rejimin tətbiq edilməsi şərti ilə qəbul etdi. Fəqət, Azərbaycan Laçın yolunda istədiyinə nail olsa da, Zəngəzur dəhlizi məsələsini kənara qoymadı. Əslində Türkiyə və Rusiyanın bu məsələdə eyni baxışı nümayiş etdirməsi, avtomatik olaraq Bakının mövqeyini gücləndirən amil kimi qəbul olunmalıdır. Zəngəzur dəhlizinin reallaşmasını ləngitməklə özünü diplomatik labirintə salan Ermənistan rəhbərliyi Laçın yolundakı Həkəri postunu ləğv etmək qərarına gəlibmiş. İyunun 15-dək bunu danışıqlarda dilə gətirən İrəvan artıq bu niyyətini əməldə "sübut etməyə" girişib. Kənardan görünən mənzərə belədir. Hayların belə riskli addımı atmağa təhrik edildikləri şübhə doğurmasa da, hərbi təxribata start düyməsinin haradan basıldığı hələlik aşkar görünmür. Onların bununla Bakıya təzyiq vasitəsi kimi Laçın postunun fəaliyyətini iflic etməyi hədəfləməsi ehtimalını ciddi qəbul etmək isə tam mümkündür. Artıq postda hərəkət müvəqqəti olaraq dayandırılıb. İrəvan durumdan beynəlxalq müstəvidə Bakıya təzyiq üçün yararlana bilərmi? Onun bununla Zəngəzur dəhlizi məsələsində mövqeyini gücləndirməyə, Həkəri postunda Qarabağın erməni sakinləri ilə azərbaycanlıların təmaslarının qarşısını almağa cəhd göstərəcəyi şəksizdir. Laçın postunun ardınca Şərqi Zəngəzurda – Zəngilanda dəhliz istiqamətində hücumları, planlanmış "dəhliz təxribatı" ssenarisinin tərkib hissəsi olub. May ayının sonlarında mövcud istiqamətdə erməni diversiya qrupunun hücumu da buna hesablanmışdı. Yəni, eyni izlərin apardığı çıxardığı oxşar dəst-xətt.

Bəli, münaqişədə tərəf sayılan bəzi güclərə Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə inteqrasiyası, o cümlədən Xankəndi–Laçın yolundakı sərhəd postumuzun sabit və normal fəaliyyəti sərf eləmir.

Azərbaycan Dövlət Sərhəd Xidmətinin məlumatında deyilir ki, cavab tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin Zəngilan istiqamətində təxribata başladığı postu darmadağın edilib. Bu addım Ermənistan silahlı birləşmələrinin sərhəd zastavasına atıcı silahlarla atəş açmasına, daha sonra isə minaatan artilleriya və digər döyüş sursatlarını işə salmasına cavab olaraq atılıb.

**Ekspert rəyi**



**Üzeyir CƏFƏROV, ehtiyatda olan polkovnik, hərbi ekspert**

Ermənistanın növbəti hərbi təxribatlarının indiki məqamda baş verməsi təsadüfi sayıla bilməz. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, ardınca Pakistanın Baş naziri Şahbaz Şərifin Bakıya səfərləri və onların buradan sülh prosesi, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı region ölkələrinə, eləcə də dünya güclərinə verdikləri mesajlar İrəvanda və onun tərəfdarlarında qıcıq yaratmaya bilməzdi. Amma Azərbaycan Ordusu, Dövlət Sərhəd Xidməti hər an istənilən təxribatın qarşısını almağa və düşmənin layiqli cavabını verməyə hazırdır. DSX-nin sərəncamında ən müasir artilleriya qurğuları, hücum və kəşfiyyat PUA-ları mövcuddur. Sərhədçilərimizin atıcı və digər silahlardan, hərbi texnikadan istifadəsi Müdafiə Nazirliyimiz ilə demək olar ki, eyni səviyyədədir. İki gün əvvəl bütün bu imkanlardan istifadə edən qəhrəman sərhədçilərimiz təlimlərdə qazandıqları peşəkarlıqla Zəngilan istiqamətində mövqelərimizi atəşə tutan düşmən postlarını məhv edib, onlara layiqli cavab verib. DSX-nin təxribatların qarşısının alınmasında heç bir sıxıntısı və narahatlığı yoxdur. Sərhədçilərimiz 44 günlük müharibədə böyük döyüş təcrübəsi qazanıb və bu təcrübə komandanlığın müntəzəm keçirdiyi təlimlərlə müasir tələblərə uyğun şəkildə möhkəmləndirilir. Ona görə də sərhədçilərimiz çox rahat şəkildə düşmənin atəş nöqtələrini, postlarını darmadağın edir.

### Prk urə luq ultimatum verdi

Erməni separatçılarının növbəti təxribatı ilə bağlı Baş Prokurorluğun Mətbuat xidmətinin yaydığı məlumatda qeyd olunur ki, prokurorluq əməkdaşları tərəfindən hadisə (Həkəri postu) yerinə baxış keçirilərək cinayətin izləri rəsmiləşdirilib, maddi sübutlar götürülüb. "Müəyyən edilib ki, Ermənistan Respublikasının Silahlı Qüvvələrinin qeyd edilən cinayət əməlləri nəzarət məntəqəsinə ziyan vurub və həmin təxribat nəticəsində postun iş rejimi pozulub. Ermənistanın təxribat hücumundan sonra Azərbaycan Laçın postunu bağlayıb: İrəvan təxribata görə məsuliyyəti üzərinə götürməyənə, baş verənlərlə bağlı tədqiqat aparılmayana qədər post istifadəyə açılmayacaq", – məlumatda deyilir.

Hərbi təxribat törədildiyi zaman Sankt-Peterburqda Rusiya və Ermənistanın baş prokurorları ilə görüşən Baş Prokuror Kamran Əliyev orada bəyanatla çıxış edib. O, iyunun 15-də Ermənistanın silahlı qüvvələri tərəfindən terror-təxribat əməlləri növbəti dəfə davam etdirilməklə müxtəlif çaplı odlu silahlardan Azərbaycanın suveren ərazisi olan Laçın–Xankəndi avtomobil yolunun başlanğıcında yerləşən Laçın sərhəd nəzarəti məntəqəsinə dislokasiya olunmuş və ərazidə xidmət göstərən DSX-nin hərbi qulluqçularına atəşlərin açıldığını, nəticədə 1 nəfər hərbi qulluqçumuzun yaralandığını diqqətə çatdıraraq, bu kimi təxribat xarakterli addımların bölgədə sülhün bərqərar olmasına maneə olduğunu bildirib.

### Dövlət Departamentinin narahatlığı davam edir

"ABŞ şərti Azərbaycan–Ermənistan sərhədindəki vəziyyətdən narahatdır". Bu sözləri ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller keçirdiyi növbəti brifinqdə deyib. "Biz bu vəziyyətdən narahat olmağa davam edirik və hər iki tərəfi qalan fikir ayrılıqlarını aradan qaldırmaq üçün birbaşa işləməyə çağırırıq", - deyən cənab Miller Vaşinqtonun mövqeyini bir daha təkrarlayıb. Sülh sazişinin hələ də əldə ediləbiləcəyini vurğulayan Dövlət Departamentinin rəsmisi "Biz inanırıq ki, razılaşma hələ də əldə edilə bilər və irəli getmək üçün hər iki tərəflə görüşməyi səbirsizliklə gözləyirik".

Sülh danışıqlarının əsas trekinə çevrilməkdə olan Vaşinqton platformasında dialoqun ləngiməsindən Bakı da narahatdır, amma səbirlə güclərin "münasibətlərini aydınlaşdırmasının" sonunu gözləyir.

Bu arada Rusiyanın və Ermənistanın bəzi media resursları RF XİN-dəki anonim mənbəyə istinadla xəbər yayıblar ki, guya Ağ ev Qarabağ ermənilərindən Bakı ilə neytral zonada danışıqlar aparmağı tələb edib. Əks təqdirdə Azərbaycan Ordusu tərəfindən xüsusi əməliyyatın keçirilməsi qaçılmaz olacaqmış. Qaynaqsız feyk xəbərlərin təşkilatçıları "dəhliz təxribatı"nı hazırlayanlarla eyni cəbhənin "döyüşçüləridirlər". Görünür, bu kontekstdə onlara Bakının mövqeyini bir daha xatırlatmağa ehtiyac var. Qarabağ separatçıları ilə üçüncü ölkədə heç bir danışıq olmayacaq, eləcə də beynəlxalq nəzarət mexanizmi məsələsi də gündəliyə salınmayacaq. Hayların bütün bu ideoloji hazırlıqlarının sülh prosesində alternativ treklər üçün əlavə başağrısı yaradılmasına xidmət etdiyi məlumdur. Azərbaycanın Qarabağın bütün ərazisi üzərində suverenliyi müzakirə predmeti ola bilməz. Ermənistanın sülh prosesinə qarşı etdiyi "səlib hücumlarında" Rusiya kimi İranın da bu və ya digər formada iştirakı istisna edilməməlidir. Bakı vətəndaşına çevriləcək Qarabağın erməni sakinlərinin ehtiyaclarını təmin etməyə hazırdır və bunu xeyli öncə də bəyan etmişdi. Onların zəruri tələbat mallarının Ermənistandan deyil, Bakıdan göndəriləcəyinə az qalıb. Bununla da, erməni əhalisinin reinteqrasiyası, Xankəndidə mərkəzi hakimiyyətin bərpası prosesi yekunlaşmış olacaq.

### Hər şey sonluğa doğru

Laçın yolunda qurduğumuz Həkəri sərhəd-keçid məntəqəsindən erməni əsilli Azərbaycan vətəndaşlarının, humanitar yüklərin sərbəst hərəkət etməsinə bölgədə marağı olan bütün tərəflər şahid oldular. Bunu anlamaq və qəbul etmək istəməyən rəsmi İrəvan və Araikin separatçı rejimi özlərində sərhədçimizə atəş açmaq cəsarətini tapır. Deməli, yolunu və başını itirmişlərin sonuncu "nəğmələri" belə olurmuş. Bəli, bu gün həmin yoldan icazəsiz quş da uça bilməz. Deyəsən, Ermənistana bunu bir daha başa salmağa və yerini göstərməyə zərurət yaranıb. Həm şərti sərhəddə, həm Şərqi Zəngəzurda, həm də Şuşa və Gədəbəydə törədilən silahlı insidentlərə görə bütün məsuliyyət Ermənistanın, eləcə də ona açıq və gizlin dəstək verənlərin üzərinə düşür. Onlar üzərlərinə düşən bu məsuliyyət yükünün ağırlığını tezliklə hiss edəcəklər.

*İmran BƏDİRXANLI, "Xalq qəzeti"*

---

**Ermənistanın baş naziri Nikol Paşinyanı bir çox əməllərinə görə qınayırıq. O, ölkəsində də qınanır. Nəinki qınanır, təhqir də olunur ki, məqsədimiz bu barədə danışmaq deyil. Başqa mətləblərdən söz açacağıq.**

Azərbaycan cəmiyyətinin fikrincə, Nikol siyasətçi kimi sözünün üstündə dayanan deyil, yəni qeyri-ciddi biridir, təfriqə və təxribat yaratmağa meyillidir və s. Ancaq insaf naminə onun müsbət addımlarından da söz açmaq lazımdır. Daha bilmirik, bu yazımız oxucular tərəfindən Paşinyanın işinə pozitiv qiymət kimi nəzərə alınacaq, ya yox, hər bir halda haqqında danışacağımız mövzu bütövlükdə hay cəmiyyətində geniş diskusiyalar doğurub.

Əlqərəz, erməni baş nazirin ölkənin gerbini dəyişdirmək təşəbbüsü, həqiqətən təqdirəlayiqdir. Hərçənd, baş nazir himnin sözlərinə də müdaxilənin vacibliyini vurğulayır və onun belə yanaşması ilə razılaşmaq olar. Sonda nə üçün razılaşmadığımızı izah edəcəyik.

Hələlik qeyd edək ki, Ermənistanın hazırkı gerbində aslan və qartal təsvirləri yer alıb. Bu canlıların ikisi də özlərinin qorxmazlıqları ilə seçilirlər. Ümumiyyətlə, onlar böyüklüyü, mərdliyi və dəyanəti tərənnüm edirlər. Paşinyan isə deyir ki, 1991-ci ildə qəbul olunmuş nistan tarixi Ermənistana, yoxsa tarixi Ermənistan həqiqi Ermənistana xidmət etməlidir?", - deyə Nikol ölkə parlamentindəki çıxışında vurğulayıb.

Erməni baş nazir qaldırdığı məsələni münaqişəsiz həll edə bilməyin mümkünlüyündən də söz açıb. O bildirib ki, tarixi Ermənistanın guya 12 paytaxtından 6-sı (?) Ermənistan Respublikasının ərazisində yerləşir. Ən əsası isə: "Sonuncu dəfə bu paytaxtlarda nə vaxt olmusunuz? Onlar hansı vəziyyətdədirlər? Ənənələr və dəyərlər haqqında çox danışırsınız. Bu gün tarixi rəmzlərimiz xarabalıqdadır".

Əlbəttə, Paşinyan açıq şəkildə deyə bilməz ki, Ermənistan dövləti olmayıb və onun tarixi paytaxtı da yoxdur. Hərçənd, Nikolun hazırkı çıxışında söhbəti bir müddət əvvəl ortaya atdığı "kadastr şəhadətnaməsi" üzərinə gətirməsi, elə qeyd etdiyimiz məqamın ifadəsi kimi diqqət çəkməkdədir.

Yeri gəlmişkən, bildirək ki, Nikol ölkəyə "kadastr şəhadətnaməsi" almaq istəyindən söz açarkən, faktiki olaraq hazırkı Ermənistanın bir dövlət kimi

# Nikolun Ermənistanın gerbini və himnini dəyişmək niyyəti

## Yaxud Paşinyanın "bizi məhv edin" məntiqinə sözardı



gerbin müasir Ermənistanla heç bir əlaqəsi yoxdur.

Məsələ heç də onda deyil ki, 1991-ci ildə müasir Ermənistanın özünü aslan və qartal kimi hiss etməsi mənasız idi. Hesab etsək ki, erməni millətçiliyi Qarabağı və digər Azərbaycan ərazilərini işğal etməklə öyünürdü, həmin ildə təcavüz hələ gerçəkləşməmişdi.

Digər tərəfdən, Ermənistan 44 günlük müharibədə rüsvayçı məğlubiyyətə uğradı. Deməli, onun qartal və aslan təsvirinə eytiyacı qətiyyən yoxdur. Ancaq, obrazlı desək, aslanın qırxıldığını, qartalın isə toyuq kimi yolunduğunu vurğulamaq niyyətindən də uzağıq.

Söhbət heç ondan da getmir ki, Ermənistanın əzəmət kimi simvolizə olunan canlıları öz gerbində göstərməsi onların daşıdıqları anlamlara münasibətdə hörmətsizlikdir. Ancaq İrəvan hakimiyyətinin bunu nəzərə almalı və dəyişiklik aparmalı olduğu vacibdir.

Hələ bir təklifimiz də var: ölkə heyvanları müqəddəsləşdirmək istəyirsə, gərək, tülkü və çaqqala üstünlük versin. Bu iki məxluq tipik erməni xəstəliyinin mahiyyətinə hakim kəsilmiş xislətdədir. Hər ikisi ilk növbədə namərddir.

Həqiqətən də erməni avantürizmi tarix boyu nəyi əldə edibsə, ya tülkülüyün, ya da çaqqallığın hesabına edib. Nə aslan kimi döyüşüb, nə də qartal kimi çarpışıb. Müasir Ermənistan dövlətinin siyasəti də məhz həmin avantürizm üzərində qurulub. Deməli, ölkəni avantürizmdən qurtarmaq lazımdır ki, Paşinyan, belə demək mümkünsə, erməni damarı tutmayanda, bu barədə danışmağı və gündəm yaratmağı xoşlayır. Hərçənd deyə bilmərik ki, o, mövcud istiqamətdə uğurludur, çağırışları fayda verir. Baxın, çaqqallar və tülkülər bir neçə gün əvvəl hərbçilərimizi atəşə tutublar...

Əlqərəz, Nikol Ermənistanın gerbinin dəyişdirilməsi ideyası ilə çıxış edərkən, haqqında söz açdığımız erməni xəstəliyinə toxunur. Üstəlik, gerbin incəliklərinə diqqət yetirir. "Gerbimiz psixologiyamızı güclü şəkildə əks etdirir. Orada nə göstərilir? Ağrı dağında Nuhun gəmisi və Ermənistanın dörd sülaləsinin gerbləri. Bu yaxınlarda bir sualım oldu: hamımız üçün müqəddəs olan bu obrazın 1991-ci ildə qurulan dövlətə nə dəxli var? Mərkəzə baxanda Ağrı dağında Nuhun gəmisini və indiki Ermənistan Respublikasının su altında qalan ərazisini görmək olar. Orada uzun müddət Ermənistanın təbii şəraitində yaşamayan şiri də görmək mümkündür. Müzakirə etdiyimiz bu problem əslində bizim hər birimizdə olan ikililikdədir – tarixi Ermənistanla real Ermənistan arasındadır. Bütün müzakirəmizdə söhbət nədən gedir? Nə qədər emosional və hansı arqumentlərlə əsaslandırılmasından asılı olmayaraq, sual yaranır: həqiqi Ermə-

mövcud olmadığını vurğulamış, həmçinin bildirmişdi ki, indi ölkəsinə, belə demək mümkünsə, "kupça" almaqla, onun gələcək nəsillərə miras kimi saxlanılmasını istəyir.

Baş nazirin mövcud xüsusda söylədiklərinin də hay cəmiyyətində böyük hiddət doğurduğunu vurğulamalıyıq. Həmin vaxt Nikolu sərt tənqidə məruz qoyanlardan biri müxalifətin parlament fraksiyasının üzvü Qeqam Manukyan idi. Nikol parlamentdə gerb və himn dəyişikliyinin zəruriliyinə aydınlıq gətirərkən, həmin Manukyanın səsləndirdiyi fikirlərə reaksiya verib.

Qeyd edək ki, Manukyan baş nazirin qaldırdığı "kadastr şəhadətnaməsi" məsələsinə toxunaraq bildirmişdi ki, əgər Ermənistan hakimiyyəti belə bir sənədi axtarırsa, onu respublikanın gerbi haqqında qanununda tapmalıdır. Nikol isə hesab edir ki, Manukyanın yanaşması Ermənistan üçün təhlükə yaradır. "Əgər bəyan etsək ki, bu (gerb – red.), bizim kadastrla bağlı sənədimizdir, bu o deməkdir ki, "bizi məhv edin" demiş oluruq", - deyən baş nazir əlavə edib ki, özündən vətənpərvər kimisə təsəvvürə gətirmir. Yəni, faktiki olaraq, öz doğruluğu üzərində israr edir və şəxsinə ünvanlanacaq əks reaksiyalara qarşı, bir növ, daxili müqavimət, immunitet formalaşdırır.

Bəli, N.Paşinyan gözəl bilir ki, ölkənin nəinki gerbi, eləcə də bir sıra atributları ərazi iddiası üzərində qurulub. Ən başlıcası isə gerbin aşıladığı düşüncə cəmiyyətdə psixoz yaratmaqdadır. Məsələn, Qarabağ münaqişəsi və Azərbaycanla münasibətlər fonunda psixoz hələ də davam edir. Ən pisi isə budur ki, bu hal Paşinyan başda olmaqla, Ermənistan dövlətinin də fəaliyyətinə təsirsiz ötüşmür. Yəni, ölkə iqtidarı xəstəliyin təsiri altına düşmək məcburiyyətində qalır. Ancaq başqalarından fərqli olaraq, Nikol gedişatın ölkəni məhvə apardığını anlayır.

Gələk, sonda toxunmağı vəd etdiyimiz məqama. Paşinyanın ölkənin gerbini dəyişdirmək niyyətindən söz açdıq. Himnə gəlincə, onun fikrinə görə, himnin sözləri qaydasında olsa da, sonluğu ölüm səhnəsinin təsviri ilə başa çatır ki, bu, yolverilməzdir.

Əslində isə, Nikol haqsızdır. Çünki nə o, nə də komandası barəsində söz açdığımız psixozu dəyişdirmək iqtidarında görünmür. Belə olan təqdirdə isə Ermənistanın himninin son sözlərindəki fikirlərin saxlanılması yerinə düşür. Axı ölüm vərsa, onun ifadəsi üçün rekviyem də lazımdır. Ermənistan dövləti hazırkı destruktiv mövqeyi ilə həmin rekviyemin yüksək səslə bəyan edilməsinə doğru gedir.

*Ə.RÜSTƏMOV, "Xalq qəzeti"*

# Üç qardaşın söz və əməl birliyi

## Azərbaycan–Pakistan–Türkiyə üçlüyünü tarixi uğurlar gözləyir



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana dövlət səfəri başa çatdıqdan bir gün sonra Bakıya daha bir qardaş ölkənin rəhbər şəxsi təşrif buyurdu. İyunun 15-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif paytaxtımızda səfərdə oldu. Bu səfər də qarşılıqlı dostluq-qardaşlıq mesajları, həmçinin əlaqələrin gələcək perspektivi ilə bağlı bir sıra önəmli açıqlamalarla yadda qaldı.**

Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk ölkələrdən biri Pakistandır. Bu əlamətdar hadisə 1991-ci ilin dekabrın 12-də baş verib. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci ilin iyunun 9-da qurulub. Pakistanın Bakıda səfirliyi 1993-cü ilin martın 12-də, Azərbaycanın İslamabadda səfirliyi isə 1997-ci ilin avqustun 24-də təsis edilib. Pakistan Azərbaycanın suverenliyini və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünü daim dəstəkləyib, Ermənistanın təcavüzünü hər zaman pisləyib. Heç şübhəsiz, bu sırada altından qırmızı xətt çəkərək yazılması lazım gələn məqam Pakistanın Ermənistanı rəsmən tanımaması və bu ölkə ilə indiyədək diplomatik əlaqələr qurmamasıdır. Əlbəttə, bu böyük mənəvi dəstək Baş nazirin Bakıya səfəri zamanı bir daha qeyd olundu. Prezident İlham Əliyev mətbuata bəyanatında dedi: “Pakistan Ermənistan ilə diplomatik münasibətlər qurmayan ölkədir və bu, məhz işğal səbəbindən baş vermişdir. Bu isə qardaş ölkə mövqeyidir, buna görə mən minnətdaram”.

Zənnimizcə, dövlətimizin başçısının “Azərbaycan xalqı çox gözəl bilir ki, 44 günlük müharibə dövründə kim bizimlə bir yerdə idi. Bu, Türkiyə və Pakistan idi. Hər iki ölkə müharibə zamanı ciddi siyasi dəstək nümayiş etdirdi” fikri də Ankara və İslamabadın Bakıya verdiyi dəstəyin yüksək qiymətləndirildiyinin göstəricisi sayıla bilər.

Məhəmməd Şahbaz Şərif isə bu xüsusda bildirdi: “Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Biz Qarabağ üzərində Azərbaycanın hüququnu hər zaman birmənalı dəstəkləmişik. Sizin Ordunuz çox cəsarətlə döyüşərək Qarabağı azad etmişdir, ölkənizin ərazi bütövlüyünü bərpa etmişdir. Pakistan Azərbaycanı hər zaman dəstəkləmişdir. Bu, bizim qardaş olaraq vəzifəmiz, borcumuz idi və biz bunu həyata keçirdik. Məmnunam ki, Ermənistanla sülh sazişi üzərində artıq danışıqlar gedir. Bildiyiniz kimi, Pakistan Ermənistanla diplomatik münasibətlər qurmayan bir neçə ölkədən biridir və bu, bizim mənəvi öhdəliyimizdir. Siz yalnız Ermənistanla sülh sazişini imzalayandan sonra bizə bir mesaj versəniz, bu məsələyə yenidən baxa bilərik. Bu məsələdə də biz birmənalı olaraq Azərbaycanı dəstəkləyirik”.

***

Azərbaycan torpaqlarının işğalda olduğu dövrdə – 2012-ci ildə Pakistan Senatının Xarici Əlaqələr Komitəsi, 2017-ci ildə Milli Assambleyanın Xarici İşlər Komitəsi Xocalı soyqırımını tanıyan və erməni təcavüzünü pisləyən qətnamələr qəbul edib. İslamabad, həmçinin İkinci Qarabağ müharibəsində Azərbaycanla həmrəylik nümayiş etdirib. 2020-ci ilin oktyabr ayında Pakistan Milli Assambleyası Azərbaycanın Qarabağ bölgəsində Ermənistanın təcavüzünü pisləyən qətnaməni yekdilliklə qəbul edib. Pakistan Senatında Kabinet Katibliyi üzrə daimi komitə tərəfindən Azərbaycana qarşı Ermənistanın təcavüzünü pisləyən və ölkəmizə dəstək ifadə edən qətnamə də yekdilliklə qəbul olunub.

44 günlük Vətən müharibəsinin ilk günündə – sentyabrın 27-də Pakistan Xarici İşlər Nazirliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsində növbəti hərbi təxribatını pisləyən bəyanat yayıb. Həmin bəyanatda deyilir: “Erməni silahlı qüvvələri tərəfindən sentyabrın 27-də Azərbaycanın Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının kəndlərinin mülki əhalisinin intensiv atəşə tutulmasını qınayırıq və bu, növbəti təxribatdır. Bu, bütün bölgənin sülh və təhlükəsizliyi üçün ciddi təhdiddir. Pakistan qardaş Azərbaycan xalqının yanındadır və onun ərazi bütövlüyünü dəstəkləyir. Azərbaycanın BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı olan qətnamələrinə əsaslanan mövqeyini dəstəkləyirik”.

Qədirbilən Azərbaycan xalqı dost və qardaş Pakistanın bu dəstəyini unutmur. Cənab İlham Əliyevin bu istiqamətdə fikirləri diqqəti cəlb edir: “Ölkələrimiz arasında münasibətlər birgə tarix, mədəniyyət, din, həmrəylik və qarşılıqlı dəstək üzərində qurulub. Biz Pakistana minnətdarıq ki, işğal dövründə Azərbaycana dəstək verib və 44 günlük Vətən müharibəsi zamanı da bizə güclü dəstək göstərib”.

***

Öz növbəsində Azərbaycan Pakistana bütün platformalarda dəstəyini əsirgəmir. Rəsmi Bakı Cəmmu və Kəşmir məsələsində İslamabadın haqlı mövqeyini dəstəkləyir və bu məsələdə Pakistanla həmrəydir. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Cəmmu və Kəşmir məsələsi üzrə kontakt qrupun üzvüdür. Prezident İlham Əliyev bununla bağlı olaraq dedi: “Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır”.

İslamabad da bu dəstəyə görə ölkəmizə minnətdardır. “Cənab Prezident, Siz Kəşmir məsələsində hər zaman bizim bacı-qardaşlarımızın yanında olmusunuz. Sizə mənəvi dəstəyə görə təşəkkür edirəm. Bu, bizim üçün çox dəyərlidir və bizi, kəşmirli bacı-qardaşlarımızı ruhlandırır”, – deyən Pakistanın Baş naziri mətbuata bəyanatında ümid etdiyini bildirib ki, onlar özlərinin müqəddəratlarının təyin edilməsi məsələsinə də bir gün nail olacaqlar.

***

Azərbaycan–Pakistan ikitərəfli əlaqələri ilə yanaşı Azərbaycan–Pakistan–Türkiyə formatında son illərdə qurulmuş uğurlu əməkdaşlıq platforması regionda güc mənbəyinə çevrilməkdədir. Üç ölkənin xarici işlər, həmçinin müdafiə nazirləri arasında üçtərəfli formatda mütəmadi görüşlər keçirilir. Xarici işlər nazirləri arasında ilk üçtərəfli görüş 2017-ci ilin 30 noyabr tarixində Bakıda baş tutub. Bundan əlavə, üç ölkənin xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə birgə hərbi təlimlər gerçəkləşdirilir. Prezident İlham Əliyev bununla bağlı dedi: “Eyni zamanda, biz müdafiə sənayesi sahəsində əməkdaşlığı müzakirə etdik. Artıq qeyd etdiyim kimi, birgə hərbi təlimlərin sayının artırılması məsələsini müzakirə etdik, buna ehtiyac var. Çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik nöqtələri artır, ona görə də güclü hərbi potensial müstəqilliyin və ərazi bütövlüyünün qarantıdır”.

Əminliklə bildirmək olar ki, üç qardaş dövlətin başçısının siyasi iradəsinə uyğun olaraq Azərbaycan–Pakistan–Türkiyə müttəfiqliyi bundan sonra da güclənəcək, əməkdaşlıq sahələri daha da genişlənəcəkdir. Üç ölkənin xalqı da onların dövlətləri arasında bütün məsələlər üzrə qarşılıqlı anlaşmanın hökm sürməsindən məmnundur. Çünki bu dostluq və qardaşlıq sosial sifarişdir və birgə mənafelərə, həmçinin dövlətlərin milli maraqlarına tam uyğundur. Ümumiyyətlə, Azərbaycan–Pakistan–Türkiyə müttəfiqliyi üçüncü qüvvələrə qarşı yönəlmədiyi üçün bütün sülhpərvər dövlətlərin və xalqların marağında olmalıdır.

***Səxavət NAZİMOĞLU,***
***“Xalq qəzeti”***

### *Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

– Tarixən Bakı və İslamabad arasında dostluq və qardaşlıq münasibətləri olub. Azərbaycan Cənubi Qafqaz, Pakistan isə Cənubi Asiya regionunda sülhə, sabitliyə və dayanıqlılığa xidmət edir. Pakistan Azərbaycanın haqq işini daim dəstəkləyib. Bunun arxasında çox böyük ürək və məram dayanırdı. Azərbaycan da Cəmmu və Kəşmir məsələsində Pakistanın mövqeyini müdafiə edir. Düşünürəm ki, Pakistanla ikitərəfli və Türkiyə ilə birgə üçtərəfli əməkdaşlıq hərbi müttəfiqliyə gətirməlidir. Azərbaycanla Pakistan arasında ənənəvi yanaşmalardan kənarda əməkdaşlıq yolları axtarılmalıdır. Pakistanın Türkiyə ilə də sıx əlaqələri var. Azərbaycan–Pakistan–Türkiyə hərbi ittifaqının mümkünlüyü üçün İslamabadın Şuşa Bəyannaməsinə qoşula bilmə imkanları nəzərdən keçirilməlidir. Güclü hərbi əməkdaşlığın mövcudluğu və Şuşa Bəyannaməsinə Pakistanın da qoşulması, əlbəttə, arzuolunandır. Diqqətçəkən məqam səfərin məhz Şuşa Bəyannaməsinin imzalanmasının ikinci ildönümünə təsadüf etməsidir.

Üçtərəfli formatda əməkdaşlığın həyata keçirilməsinin regionlarımız və dövlətlərimiz üçün faydalı olacağına inanıram. Regional və beynəlxalq proseslərdə ölkələrimiz arasında üst-üstə düşən maraqlar bu formatı iqtisadi baxımdan da çox cazibədar edir. Bu üçtərəfli əməkdaşlıqdan yaranan imkanlar ölkələrin yerləşdiyi regionlar üçün də əhəmiyyətlidir. Belə ki, Anadolu, Cənubi Qafqaz və Cənubi Asiya ölkələrinin iqtisadi imkanları Avropa ilə Çini birləşdirəcək dəhliz formalaşdıra biləcək.

# İslamabadla əməkdaşlığın yeni dönəmi

**Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olan Pakistanla ölkəmiz arasındakı əməkdaşlıq qarşılıqlı hörmət və ehtirama, qardaşlığa, həmrəyliyə söykənir. Bu isə özünü həm Kəşmir, həm də Qarabağ probleminə münasibətdə daim hiss etdirirb. Pakistanın Baş naziri Şahbaz Şərifin ölkəmizə səfəri zamanı verilən bəyanatlar, səslənən açıqlamalar bir daha göstərdi ki, iki dövlət arasında əməkdaşlıq dərin tarixi köklərə malik olmaqla yanaşı, həm də böyük perspektiv vəd edir.**



### Eyni cəbhənin silahdaşları...

Xatırladaq ki, Azərbaycan Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini beynəlxalq təşkilarlarda daim dəstəkləyib və bu gün də dəstəkləməkdədir. Prezident İlham Əliyev Pakistanın Baş naziri Şahbaz Şəriflə birlikdə mətbuata verdiyi açıqlamada bu dəstəyin bundan sonra da davam edəcəyini vurğulayıb: “Azərbaycan Pakistanı Kəşmir məsələsində hər zaman dəstəkləyib, bu dəstək davam edəcəkdir. Biz bütün beynəlxalq təşkilatlarda bu dəstəyi və həmrəyliyi nümayiş etdiririk. Əlbəttə ki, qarşılıqlı dəstək bizim ölkələri və xalqları daha da yaxınlaşdırır”.

Dövlət başçısı Pakistanın Qarabağ məsələsində daim ölkəmizə ciddi siyasi-diplomatik dəstək verdiyini, bu dəstəyin 44 günlük Vətən müharibəsində də özünü hiss etdirdiyinə toxunub: ***“Azərbaycan xalqı çox gözəl bilir ki, 44 günlük müharibə dövründə kim bizimlə bir yerdə idi. Bu, Türkiyə və Pakistan idi. Hər iki ölkə müharibə zamanı ciddi siyasi dəstək nümayiş etdirdi”.***

Türkiyə ilə yanaşı, Pakistanın da ölkəmizin maraqlarını qətiyyətlə müdafiə etməsi, bu kontekstdə dünya birliyinə açıq mesajlar ünvanlaması Ermənistanın havadarları üçün də çəkindirici amil oldu. Erməni faşizminin himayədarları bu mesajlar sayəsində anladılar ki, Azərbaycan tək deyil və onun müdafiəsinə hazır olan güclü dövlətlər var.

Azərbaycan Qarabağ, Pakistan isə Kəşmir məsələsində haqlı olduğunu hələ illər öncə inkaredilməz faktlarla bütün dünyaya sübut edib. Hər iki qardaş dövlət göstərib ki, onlar haqq, ədalət işi uğrunda mübarizə aparmaqdadır. Bu baxımdan həm Azərbaycanı, həm də Pakistanı eyni cəbhənin silahdaşları adlandırmaq mümkündür.

Heydər Əliyev: ***“Kəşmir problemi haqqında Azərbaycan Respublikası öz mövqeyini daim bildirib”.***

Azərbaycan Ulu öndər Heydər Əliyevin hakimiyyəti dönəmində də Kəşmir məsələsində Pakistan dövləti ilə həmrəylik sərgiləyib, onun haqq işini dəstəkləyib. Nümunə üçün qeyd edək ki, ümummilli lider 11 aprel 1996-cı il tarixində Pakistan Televiziyasına müsahibəsində bir daha Azərbaycanın Kəşmir problemi ilə bağlı mövqeini ifadə edib, açıq şəkildə Pakistan dövlətinə dəstək nümayiş etdirib: “Pakistan üçün çox mühüm olan Kəşmir problemi haqqında Azərbaycan Respublikası öz mövqeyini daim bildiribdir, yəni biz beynəlxalq təşkilatlarda, başqa lazımi səviyyələrdə Pakistanın bu barədə haqq-ədalət işini, Kəşmir problemi ilə əlaqədar olaraq onun mövqelərini daim müdafiə etmişik və bu gün də müdafiə edirik. Mən həm cənab prezidentlə görüşəndə, həm də hörmətli baş nazir ilə görüşəndə bu barədə öz bəyanatlarımı vermişəm. Kəşmirdə insan hüquqlarının pozulmasını biz qətiyyətlə pisləyirik və buna öz etirazımızı bildiririk”.

Prezident İlham Əliyevin 15 iyun 2023-cü il tarixində Pakistanın Baş naziri Şahbaz Şəriflə görüşündə səsləndirdiyi fikirlər göstərdi ki, dövlətimiz bundan sonra da Kəşmir məsələsində qardaş Pakistan xalqına dəstək verməkdə davam edəcək.

### Tarixi dostluqdan yeni hədəflərə doğru...

Hər iki dövlət rəhbərinin 15 iyun tarixində mətbuata verdiyi bəyanatlar göstərdi ki, yaxın gələcəkdə bu əməkdaşlığın daha da genişlənməsi nəzərdə tutulur.

Əməkdaşlığın genişləndiriləcəyi sahələrdən biri də təhsil sektorudur. Qeyd edək ki, Prezident İlham Əliyev öz açıqlamasında Azərbaycadna daha çox pakistanlının təhsil almasını arzuladığını ifadə edib: “Biz bununla yanaşı, təhsil sahəsində böyük potensialı görürük. Bu gün Azərbaycanda Pakistandan olan 750 tələbə təhsil alır və bu prosesin necə sürətlə getdiyinə baxsaq görərik ki, ötən il sadəcə 100 tələbə təhsil alırdı. Yəni, biz daha çox pakistanlı qardaşlarımızı burada görmək istəyirik. Eyni zamanda, Pakistanda təhsil alan azərbaycanlılar da var. Bu gün onlar müxtəlif sahələrdə təhsil alaraq, qayıdıb ölkəmizə töhfələrini verirlər”.

Bir sözlə, baş nazir Şahbaz Şərifin ölkəmizə səfərinin Pakistan–Azərbaycan münasibətlərinin inkişafına böyük töhfə verəcəyi göz önündədir. Bu töhfə qardaş ölkələrin milli maraqlarının uğurla müdafiəsini təmin edəcək.

***Seymur ƏLİYEV***

# Ermənistan Rusiyaya niyə etirazını bildirib?

**Ötən gün Azərbaycanın Laçın sərhəd-buraxılış məntəqəsini atəşə tutaraq təxribat törədən ermənilər nədənsə Rusiyaya kəskin narazılıqlarını bildiriblər.**

Bu gün Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin Ermənistan Xarici İşlər Nazirliyinə çağırılıb.

"Bu gün Xarici İşlər Nazirliyində Rusiya Federasiyasının səfiri ilə keçirilən görüşdə Ermənistanın bu insidentlə bağlı kəskin narazılığı ifadə edilib. Xarici İşlər Nazirliyi vəziyyəti aydınlaşdırmaq üçün bütün lazımi tədbirləri görməyə çağırıb", - deyə Ermənistan XİN-in məlumatında bildirilir.

Təxribatın Ermənistan Silahlı Qüvvələri tərəfindən törədildiyini nəzərə alsaq, İrəvanın Rusiyaya qarşı ittihamı çaşqınlıq yaradır.

***“Xalq qəzeti”***

# İran vətəndaşlarına beynəlxalq hava limanlarında viza verilməsi dayandırılır



**İyunun 23-dən Azərbaycan İran vətəndaşlarına Azərbaycanın beynəlxalq hava limanlarında viza rəsmiləşdirilməsini dayandırır.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə bildirib.

O qeyd edib ki, Azərbaycana səfər edəcək İran vətəndaşları öncədən “ASAN viza” almalı və ya Azərbaycanın Təbrizdəki Baş Konsulluğundan viza əldə etməlidirlər.

***“Xalq qəzeti”***

# Milli Məclis 2023-cü il dövlət büdcəsinə əlavə və dəyişikiliyi təsdiqlədi




**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin yaz sessiyasının növbəti növbədənkənar plenar iclası keçirildi.**

S.Qafarova gündəliyə 13 məsələnin daxil edildiyni və ilk 3 məsələnin müzakirəyə dövlət başçısının bir məktubu ilə daxil olunduğunu bildirdi.

Üçüncü oxunuşda müzakirəyə çıxarılmış "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi.

Yenidən baxılmış 2023-cü ilin dövlət büdcəsinin əsas parametrləri ilə bağlı məlumata əsasən, gəlirləri təsdiq olunmuş 30 milyard 774 milyon manata qarşı 3 milyard 5 milyon manat və ya 9,8 faiz artırılaraq 33 milyard 779 milyon 500 min manat təşkil edəcək. Dövlət büdcəsinin təsdiq olunmuş 33 milyard 353 milyon 300 min manat məbləğində xərcləri 3 milyard 215 milyon 500 min manat və ya 9,6 faiz artırılaraq 36 milyard 568 milyon 800 min manata çatdırılacaq. Dövlət büdcəsinin kəsiri təsdiq olunmuş 2 milyard 579 milyon 300 min manata qarşı 210 milyon manat və ya 8,1 faiz artırılaraq 2 milyard 789 milyon 300 min manat olacaq. Kəsirin cari ilin sonuna gözlənilən ümumi daxili məhsula nisbəti 2,5 faiz həcmində olacaq.

Yenidən baxılmış 2023-cü il icmal büdcənin gəlirləri 42 milyard 949 milyon 100 min manat proqnozlaşdırılır. Bu, təsdiq olunmuş göstəriciyə nisbətən 9 milyard 923 milyon 400 min manat və ya 30 faiz çoxdur. İcmal büdcənin xərcləri isə 41 milyard 213 milyon 900 min manat proqnozlaşdırılır. Bu da təsdiq olunmuş göstəriciyə nisbətən 3 milyard 244 milyon 500 min manat və ya 8,5 faiz çoxdur. İcmal büdcə 4 milyard 943 milyon 600 min manat kəsirlə proqnozlaşdırılsa da, 6 milyard 678 milyon 900 min manat əlavə gəlirlər hesabına 1 milyard 735 milyon 300 min manat profisit yaranacaq.

Deputat Məlahət İbrahimqızı "Dövlət sosial müdafiə fondunun 2023-cü il büdcəsi haqqında" və "İşsizlikdən sığorta fondunun 2023-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihələrinə əlavə təklif olmadığından səsə qoyulmasını təklif etdi.

Hər 3 qanun layihəsi səsə qoyularaq qəbul edildi.

S.Qafaraova digər qanun layihələrinin də müzakirəyə ölkə Prezidentinin bir məktubu ilə daxil olduğunu, məzmun və mahiyyətcə yaxınlığını bildirdi. Həmin sənədlər də səsə qoyularaq qəbul edildi.

Bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Baş prokurorun Sankt-Peterburq səfəri

**Xəbər verdiyimiz kimi, Rusiyanın Baş prokuroru İqor Krasnovun dəvəti ilə Azərbaycanın Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ötən günlərdə Sankt-Peterburq şəhərində işgüzar səfərdə olub.**




Nümayəndə heyəti Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin 1949–1950-ci illərdə təhsil aldığı SSRİ Dövlət Təhlükəsizlik Nazirliyinin Ali Məktəbinin binası qarşısında ümummilli liderin barelyefi ziyarətedib, dahi rəhbərin əziz xatirəsini yad edib.

İqor Krasnov ilə görüşdə Kamran Əliyev rusiyalı həmkarına Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülən işlər, biznes və investisiya mühitinin yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyi və milli iqtisadiyyatın sürətli inkişafı barədə məlumat verib. Rusiyanın Baş prokuroru bu ilin sentyabr ayında Bakıda keçiriləcək Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Baş prokurorlarının Əlaqələndirmə Şurasının 33-cü iclasının yüksək səviyyədə təşkil olunacağına əminliyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilməklə gələcək əməkdaşlığın fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb. Baş prokurorlar Azərbaycan Respublikasının Baş Prokurorluğu və Rusiya Federasiyasının Baş Prokurorluğu arasında 2024–2025-ci illəri əhatə edən Əməkdaşlıq Proqramını imzalayıblar.

Səfər zanmanı Azərbaycan, Rusiya və Ermənistanın baş prokurorları arasında 2021-ci ildən etibarən sayca 5-ci üçtərəfli görüş keçirilib. Söhbət zamanı Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış bəyanatların icrası və hüquqi sahədə gələcək əməkdaşlıq məsələləri müzakirə edilməklə gələcəkdə gərginliyə səbəb ola biləcək halların qarşısının alınması üçün preventiv tədbirlərin gücləndirilməsi ilə bağlı əldə olunan razılaşmanı bir daha dəstəkləyiblər.

***"Xalq qəzeti"***

# Gənc ədliyyə əməkdaşları ilə görüş





**Milli Qurtuluş Günü münasibətilə ədliyyə naziri Fikrət Məmmədov böyük əksəriyyətini gənclər təşkil edən yeni əməkdaşlarla görüşüb.**

Nazirlikdə keçirilən tədbirdə gəncləri əlamətdar yubiley - "Heydər Əliyev İli"ndə qulluğa qəbul olunmaları münasibətilə təbrik edən nazir ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən, xilaskarlıq missiyasından danışıb, gənclərə qayğısını qeyd edib. Bildirib ki, Ümummilli Lider fəaliyyətinin bütün dövrlərində milli, o cümlədən hərbi kadrların yetişdirilməsi, gənclərin hərtərəfli inkişafı üçün əvəzsiz xidmətlər göstərib. Onun təməlini qoyduğu dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Bu istiqamətdə Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən mühüm tədbirlər həyata keçirilir.

Çıxış edən gənclər bu əziz bayram günündə qulluğa qəbul olunmalarından böyük qürur hissi keçirdiklərini bildirib, şərəfli ədliyyə işçisi adını daim uca tutacaqlarını vurğulayıblar.

Yeni təyinat almış əməkdaşlar and içiblər, onlara xidməti vəsiqələr təqdim edilib.

***Qəzənfər QASIMOV,***
***"Xalq qəzeti"***

# Müdafiə Nazirliyinin kollegiya iclası

**İyunun 16-da Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə bu ilin birinci yarısının yekunlarına dair Müdafiə Nazirliyinin kollegiya iclası keçirilib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən qəzetimizə bildirilib ki, Müdafiə naziri giriş nitqi ilə çıxış edərək Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin modeli əsasında inkişaf etməsi ordu quruculuğu istiqamətində aparılan islahatların müsbət nəticəsinin göstəricisidir fikirlərini xüsusi vurğulayıb.

İclasda 2023-cü ilin birinci yarısında bütün qoşun (qüvvə) növlərinin xidməti-döyüş fəaliyyəti təhlil edilib, geniş məruzələr dinlənilib.

Sonra Azərbaycan–Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonunda mövcud əməliyyat şəraiti təhlil edilib. General-polkovnik Z.Həsənov ordumuzun Ermənistan silahlı qüvvələri və qeyri-qanuni erməni silahlı dəstələrinin mövqelərimizi intensiv atəşə tutmasının və istənilən təxribatının qarşısının qətiyyətlə alınmasına hər an hazır olması barədə göstərişlər verib.

Müdafiə naziri Ali Baş Komandan tərəfindən 2023-cü ilin növbəti yarımili üçün Azərbaycan Ordusu qarşısında qoyulan tapşırıqları kollegiya iştirakçılarına çatdırıb.

***"Xalq qəzeti"***

**İyunun 15-də Şuşa şəhərində "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının və Türkiyənin Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə Milli Qurtuluş Gününə və Şuşa Bəyannaməsinin imzalanmasının ikinci ildönümünə həsr olunmuş "Qurtuluşdan Zəfərə" adlı beynəlxalq konfrans keçirilib.**

# Şuşada "Qurtuluşdan Zəfərə" beynəlxalq konfransı





Yeni Azərbaycan Partiyasından redaksiyamıza bildirilib ki, məclisin əvvəlində "Qurtuluşdan Zəfərə" adlı film nümayiş etdirilib.

Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayıb və konfransın işinə uğurlar arzulayıb. Tahir Budaqov bildirib ki, 2023-cü il bir millətin iki dövləti olan Azərbaycan və Türkiyə üçün olduqca əlamətdardır: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. "Heydər Əliyev İli" çərçivəsində müasir müstəqil Azərbaycanın banisi, xalqımızın ümummilli lideri, Türk dünyasının böyük oğlu, dünyanın ən nüfuzlu siyasətçilərindən olan Heydər Əliyevin zəngin dövlətçilik irsinin tədqiq olunması, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması istiqamətində istər respublikamızda, istərsə də onun hüdudlarından kənarda, o cümlədən, qardaş Türkiyədə silsilə tədbirlər həyata keçirilir. Eyni zamanda, bu il dünyada Türkiyə Cümhuriyyətinin yaradılmasının 100-cü ildönümü böyük coşqu və ruh yüksəkliyi ilə qeyd edilməkdədir".

YAP Sədrinin müavini qeyd edib ki, anadan olmasının 100-cü ildönümünü qürurla və minnətdarlıqla qeyd etdiyimiz ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında xidmətləri misilsizdir: "Müdrik dövlət xadimi iki fərqli dövrdə – istər SSRİ dönəmində, istərsə də dövlət müstəqilliyinin bərpasından sonra respublikamıza uğurla rəhbərlik edərək xalqımız və dövlətimiz üçün taleyüklü məsələlərin həllinə nail olmuş, Azərbaycan xalqının parlaq gələcəyini təmin etmişdir. 30 il bundan əvvəl – 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi tariximizə Milli Qurtuluş Günü olaraq yazıldı. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan amildir".

YAP Sədrinin müavini söyləyib ki, 44 günlük Vətən müharibəsində şanlı qələbənin qazanılmasında qardaş Türkiyənin Azərbaycana yüksək mənəvi-siyasi dəstəyinin müstəsna rolu var. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsi bizim müştərək şanlı tariximizdir. Azərbaycan–Türkiyə münasibətləri 44 günlük Vətən müharibəsindən sonra hər iki ölkənin liderlərinin məqsədyönlü siyasəti nəticəsində tamamilə yeni bir səviyyəyə qalxmış, iki il bundan əvvəl – 15 iyun 2021-ci il tarixində Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik səviyyəsinə yüksəlmişdir.

Ədalət və İnkişaf Partiyası Sədrinin birinci müavini, Türk Dövlətləri Təşkilatı Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım bildirib ki, Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycan ilə Türkiyə arasında münasibətlər strateji müttəfiqlik səviyyəsinə yüksəlib. Xüsusilə, 44 günlük Vətən müharibəsində qazanılan Zəfərdən sonra Qarabağın yenidən qurulmasında Türkiyənin yaxından iştirak etməsindən məmnunluq duyuruq. AK Parti Sədrinin birinci müavini vurğulayıb ki, Azərbaycanın müstəqil və güclü dövlət kimi formalaşmasında böyük xidmətləri olan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyi qürurla qeyd edilir.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov çıxışında qeyd edib ki, Azərbaycanın dövlətçilik tarixinin dönüş nöqtəsi, ölkənin parlaq gələcəyinin təməlinin qoyulduğu 15 İyun Milli Qurtuluş Gününü qardaş Türkiyədən olan hörmətli qonaqlarla müasir Azərbaycanın qurucusu, ulu öndər Heydər Əliyevin hər bir azərbaycanlının iftixar nöqtəsi adlandırdığı Şuşada qeyd etmək qürurvericidir.

Ədalət və İnkişaf Partiyası Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Efkan Ala, Milli Məclisin deputatı, Azərbaycan–Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupun üzvü Ramil Həsən, Türkiyə Böyük Millət Məclisinin üzvü, Türkiyə–Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Şamil Ayrım Azərbaycan–Türkiyə münasibətlərinin indiki yüksək səviyyəyə qalxmasında ulu öndər Heydər Əliyevin tarixi rolunu, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın son 20 ildə bu yöndə ardıcıl fəaliyyətini vurğulayıblar.

Daha sonra konfrans öz işini panel iclası ilə davam etdirib.

***"Xalq qəzeti"***

# "Bilgəh" istirahət mərkəzində Milli Qurtuluş Günü



**Dövlət Təhlükəsizliyi Xidmətinin "Bilgəh" istirahət mərkəzində 15 İyun – Milli Qurtuluş Gününün 30-cu ildönümünə həsr edilmiş tədbir təşkil olunub.**

DTX-nın rəisi general-polkovnik Əli Nağıyev və Xidmətin rəhbər əməkdaşları, təhlükəsizlik orqanlarının veteranları tədbirdə iştirak ediblər.

Ümummilli lider Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Sonra "Bilgəh" istirahət mərkəzinin tarixini əks etdirən foto və video materiallar, o cümlədən, mərkəzin 1953-cü ildə fəaliyyətə başlaması, ulu öndər Heydər Əliyevin təhlükəsizlik orqanının rəhbəri olduğu zaman birbaşa onun təşəbbüsü ilə 1968-ci ildə həmin mərkəzin keçmiş SSRİ Zaqafqaziya sərhəd dairəsinin balansından çıxarılaraq Azərbaycan təhlükəsizlik orqanına verilməsi, bu il istirahət mərkəzinin yaradılmasının 70 illiyinin qeyd olunması iştirakçıların diqqətinə çatdırılıb.

Bu mərkəz ömrünün 25 ilini təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş dahi rəhbər Heydər Əliyevin sevdiyi məkan olub. Ulu öndər təhlükəsizlik orqanlarında çalışarkən yay aylarında ailə üzvləri ilə birlikdə istirahətini burada keçirib.

Tədbir mədəni proqramla davam etdirilib.

# Bölgələrdə Qurtuluş Günü şənlikləri





## Abşeron

Ulu öndərin hakimiyyətdə olduğu dövrlərdə sürətli tərəqqi edən bölgələrdən biri də Abşeron olub. Xüsusən də dövlət müstəqilliyi illərində Heydər Əliyevin diqqət və qayğısı sayəsində rayon inkişaf edib, abadlaşıb. Bunun nəticəsi olaraq, 2006-cı ildə Xırdalan qəsəbəsinə şəhər statusu verilib.

Bayram tədbirlərində bütün bunlar barədə ətraflı danışılıb. Ulu öndərin adını daşıyan parkda təşkil olunan konsertdə müstəqil Azərbaycanın memarı Heydər Əliyevin 1993-cü ilin iyun aynda Bakıya gəlməsi və bundan sonra ölkədə həyata keçirilən irimiqyaslı işlər bir daha xatırlanıb. Bildirilib ki, tariximizə qızıl hərflərlə yazılmış 15 İyun Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malikdir. Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi ilə ölkəmizdə vətəndaş müharibəsinin, dövlətçiliyin məhv olmasının və ölkənin parçalanmasının qarşısı alınıb. Azərbaycan dönməz tərəqqi yoluna qədəm qoyub.

Respublikamızın tanınmış incəsənət xadimlərinin müxtəlif repertuarlarla çıxış etdiyi və sakinlərin böyük coşqu ilə qarşıladığı konsert proqramı atəşfəşanlıqla sona çatıb.

## Naxçıvan



15 İyun Milli Qurtuluş Günündə Naxçıvan şəhərində Heydər Məscid kompleksi istifadəyə verilib. Açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, digər rəsmi şəxslər və dindarlar iştirak ediblər.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev çıxış edərək bildirib ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin dini həmrəylik ideyaları və dövlət–din siyasəti uğurla davam etdirilir. Müstəqillik illərində muxtar respublikada 74 məscid tikilib, 95-i isə yenidən qurulub və bərpa olunub. Hazırda muxtar respublika ərazisində 214 məscid fəaliyyət göstərir.

Yeni məscid kompleksinin isə ümumi ərazisi 82 min 250 kvadratmetrdir. Məscidin minarələrinin hündürlüyü 38, gümbəzlərinin hündürlüyü isə 14 metrdən artıqdır. Binanın daxilində müqəddəs



“Quran-i Kərim”dən ayələr həkk olunub. Burada eyni vaxtda 5 min nəfər ibadət edə biləcək.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirib ki, bu gün ən böyük məscid binasının istifadəyə verilməsi yerli dindarlara qiymətli bayram töhfəsidir. “Heydər Əliyev İli” çərçivəsində, Milli Qurtuluş Günündə bu məscidin istifadəyə verilməsi böyük rəmzi məna daşıyır. Ulu öndər həmişə islami dəyərlərə hörmət və ehtiramla yanaşıb, belə ibadətgahların yaradılmasını arzu edib.

Fuad Nəcəfli yeni kompleksi ölkə Prezidenti İlham Əliyevin xalqımızın dini-mənəvi dəyərlərinə verdiyi qiymətin daha bir




ifadəsi kimi dəyərləndirib, dindarları yeni məscidin istifadəyə verilməsi münasibətilə təbrik edib. Səlahiyyətli nümayəndə məscidə müqəddəs kitabımız “Quran-i Kərim” hədiyyə edib.

Sonra məsciddə ilk namazlar qılınıb, ehsan süfrələri açılıb, ulu öndər Heydər Əliyevin və şəhidlərimizin ruhuna dualar oxunub.

## Sumqayıt

Gənclik şəhərində Milli Qurtuluş Gününə həsr olunmuş ümumşəhər bayram şənliyi keçirilib. Tədbirdə şəhər rəhbərliyi, Milli Məclisin komitə sədrləri Tahir Mirkişili, Hicran Hüseynova, idarə, müəssisə, təşkilat rəhbərləri və şəhər ictimaiyyəti iştirak ediblər.

Əvvəlcə iştirakçılar ümummilli lider Heydər Əliyevin adını daşıyan parkda unudulmaz dahi şəxsiyyətin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüblər. “Kimyaçı” Mədəniyyət Sarayının tamaşa zalında davam edən toplantıda şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcov bildirib ki, 1993-cü ildə ölkədə xaos və milli dövlətçiliyin yox olmaq təhlükəsi yarananda xalq öz xilaskarına üz tutdu. Ümummilli liderimiz taleyinə yazılmış xilaskarlıq missiyasını həmin ağır günlərdə öz üzərinə götürdü. Beləliklə də, xalqın təkidli tələbi ilə ulu öndərin hakimiyyətə qayıdışı xalqın qurtuluşu oldu.

Qeyd edilib ki, Heydər Əliyevin siyasi zəkası nəticəsində xalqımız XX əsrin çox çətin sınaqlarından müstəqil Azərbaycan dövlətini qurmaqla çıxdı. Azərbaycanı öz varlığı qədər sevən Heydər Əliyev onun gözəl bir guşəsi olan Sumqayıta da daim diqqət göstərirdi. Sumqayıtı bütün Azərbaycanın gözəl təcəssümü adlandırır və onun tərəqqisi üçün mümkün olan hər şeyi edirdi. Ulu öndər Sumqayıta hər səfəri ilə bu şəhərə sanki xeyir-bərəkət gətirir, gələcəyə möhkəm inam yaradırdı.

Natiq deyib ki, ümummilli liderin ən layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi çox uğurlu daxili, xarici və iqtisadi siyasət nəticəsində Azərbaycanın əldə etdiyi nailiyyətlər qloballaşan dünyada dövlətimizi önə çıxarmışdır. 44 günlük Vətən müharibəsində Azərbaycan əsgəri, sözün əsl mənasında, xalqımızın böyük zəfər tarixini yazdı. Biz torpaqlarımızı azad etməklə dünyada qalib xalq, qalib dövlət kimi tanındıq.

Sonra Milli Qurtuluş Gününə həsr olunan sənədli film nümayiş etdirilib.

## Goranboy

Yaddaqalan, məzmunlu bir konfrans oldu. Adı da maraqlı idi. “Heydər Əliyev – əsrin adamı”.

Heydər Əliyevin Azərbaycana ikinci dəfə qayıdışına həsr olunan qısa bir filmin nümayişindən sonra rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev məruzə ilə çıxış etdi. Rayon rəhbəri qeyd



etdi ki, bugünkü konfrans “2023-cü il – Heydər Əliyev ili” ilə bağlı silsilə ümumrayon tədbirlərinin bir növ davamıdır. 15 İyun Milli Qurtuluş Gününə həsr olunan tədbir 30 il əvvəl ölkədə baş verən vətəndaş qarşıdurmasının, hakimiyyətdə olan səriştəsiz Xalq cəbhəsi–Müsavat cütlüyünün yaratdığı özbaşınalığın, qardaş qırğınının qarşısının alınmasında ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərinə həsr olunur.

Ümummilli liderin arzularını, ərazi bütövlüyümüzün bərpasını, torpaqlarımızın yağı düşməndən xilas edilməsini cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev həyata keçirdi.

AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev çıxış edərək Heydər Əliyevin alimlərə, ziyalılara, yaradıcı adamlara, tarixi şəxsiyyətlərə göstərdiyi diqqət və qayğıdan danışdı. Qeyd etdi ki, Akademiyanın Gəncə filialının açılması da bilavasitə Heydər Əliyevin təşəbbüsüdür.

Konfransda Əməkdar jurnalist Hamlet Qasımov, mədəniyyət işçisi Gündüz Hacıyev və başqaları çıxış edərək 15 İyun Qurtuluş Gününün xalqımızın böyük bayramı olduğunu bildirdilər.

## Zaqatala

Azərbaycanın dövlətçiliyinin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, hüquqi dövlət quruculuğu prosesinin uğurla həyata keçirilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər ikinci dəfə Azərbaycanın idarəçilik sükanı arxasına keçdikdən sonra xalqımızı qardaş qırğınından, vətəndaş qarşıdurmasından, müstəqilliyimizi itirmək təhlükəsindən xilas edib, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, banisi və qurucusu kimi daxil olub.

15 İyun Milli Qurtuluş Günü münasibətilə Zaqatala Rayon İcra Hakimiyyətinin və hüquq-mühafizə orqanlarının rəhbər şəxsləri, ictimaiyyətin nümayəndələri ulu öndərin Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildiriblər.

Tədbirdə vurğulanıb ki, həyatda elə əlamətdar günlər, hadisələr var ki, ölkənin, milyonlarla insanın taleyində, müqəddəratında həlledici rol oynayaraq bütöv bir xalqın yaddaşına əbədi həkk olunur, tarixinə qızıl hərflərlə yazılır. Azərbaycan üçün 1993-cü ilin 15 iyunu məhz belə tarixi hadisələrdəndir. Həmin əlamətdar tarixi gün ümummilli lider Heydər Əliyevin respublika rəhbərliyinə qayıdışı, dövlətçiliyimizin xilas anının başlanğıcı, Milli Qurtuluş Günüdür.

Çıxışlarda 1993-cü ilin iyununda respublikamızda baş verən ictimai-siyasi proseslərə geniş nəzər salınıb, dövlətçiliyimizin qorunması və vətəndaş qarşıdurmasının aradan qaldırılmasında ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri bir daha xatırlanıb. Vurğulanıb ki, müstəqil respublikamızın son illər əldə etdiyi uğurlar birbaşa Heydər Əliyevin adı ilə bağlıdır. Məhz ulu öndərin respublika rəhbərliyinə qayıdışından sonra ölkəmiz sürətli inkişaf yoluna qədəm qoyub, onun layiqli davamçısı İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində ölkəmizin iqtisadi qüdrəti daha da artıb, müstəqil Azərbaycan dünya birliyində öz layiqli yerini tutub.

## Yevlax

Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə “Heydər Əliyev İli” çərçivəsində Milli Qurtuluş Gününə həsr olunmuş bayram konserti keçirilib.

Heydər Əliyev Parkında baş tutan konsertin aparıcıları Milli Qurtuluş Gününün tarixi və əhəmiyyəti barədə ətraflı məlumat veriblər. Bildirilib ki, ulu öndərin missiyası yalnız Azərbaycan dövlətinin dayaqlarının möhkəmləndirilməsi, müstəqilliyin inkişafı və dövlətçilik tariximizin müasir mərhələsinin davamlılığının təmin edilməsi kimi şərəfli bir vəzifəni yerinə yetirməklə məhdudlaşmadı. Dahi rəhbər müstəqil Azərbaycan dövlətinin yaradılması konsepsiyasını həyata keçirdi, eyni zamanda Azərbaycan vətəndaşlarını birləşdirən, xalqımızı beynəlxalq aləmdə vahid məqsəd və məram uğrunda səfərbər edən milli təlim –“Azərbaycançılıq” ideologiyasını da yaratdı.

Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu tərəfindən 44 günlük müharibə nəticəsində torpaqlarımızın erməni işğalçılarından təmizlənməsi tədbirdə iftixarla vurğulanıb. Həmin parlaq Qələbə və ümumilikdə Azərbaycanın saysız-hesabsız uğurlar qazanması bir daha onu göstərdi ki, müstəqil Azərbaycanın Qurtuluşuna imza atmış tarixi şəxsiyyətin ideyaları yaşayır və əbədi olaraq yaşayacaq!

Milli Qurtuluş Gününə həsr edilmiş bayram tədbiri konsert proqramı ilə davam edib.



## Ağsu

Böyük el bayramı – Milli Qurtuluş Günü münasibətilə Ağsuda silsilə tədbirlər təşkil olunub.

Ümumrayon tədbiri öncəsi Dövlət Himni səsləndirilib və ulu öndər Heydər Əliyevin, dövlətçiliyimiz, ərazi bütövlüyümüz uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videofilm nümayiş etdirilib.

Toplantıda çıxış edən rayon icra hakimiyyətinin başçısı Rövşən Bağırov tarixi gün münasibətilə ürək sözlərini bölüşüb. “Milli



dövlətçiliyimizin xilaskarı” adlı tədbirin “Heydər Əliyev İli” çərçivəsində keçirilən silsilə tədbirlərin davamı olduğunu bildirib. İcra başçısı ulu öndərin keçdiyi yolları və tarixi vərəqlədikcə onun atdığı addımların hər bir azərbaycanlını qürurlandırdığını qeyd edib.

Bildirilib ki, ümummilli lider hakimiyyətə gəlişi ilə ən geridə qalmış və təhlükələrlə üz-üzə olan Azərbaycanda siyasi sabitlik yaradılmasına nail oldu, ölkəni qısa bir vaxtda inkişaf etdirdi. 1993-cü ildə əvvəlcə Ali Sovetin sədri, sonra isə xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilən ümummilli lider şöhrət və şərəf tariximizə silinməz səhifələr yazdı .

Toplantıda çıxış edənlər diqqətə çatdırıblar ki, xalqımız azərbaycanlı olması ilə ömrü boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyevin ideallarına daim sadiqdir. Müzəffər Ali Baş Komandan, ata vəsiyyətini ləyaqətlə yerinə yetirən Prezident İlham Əliyevin uzaqgörən siyasəti, düşünülmüş islahatları və müdrik qərarları ilə müstəqil Azərbaycanın dinamik inkişaf yoluna çıxdığı, artıq bütün dünyada qalib dövlət sayılması xüsusi vurğulanıb.

Daha sonra tədbir rayonun mədəniyyət və incəsənət ustalarının hazırladığı konsert proqramı ilə davam etdirilib.

## Neftçala

Kürsahili şəhərdə düzənlənən tədbirin iştirakçıları ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Ulu öndərin və şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Bayram tədbirində çıxış edən Neftçala Rayon İcra Hakimiyyətinin başçısı Mirhəsən Seyidov tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü ilin 15 iyun gününün hər bir vətənpərvər azərbaycanlı üçün çox əziz olduğunu bildirib. Qeyd edib ki, 30 il öncə yenicə müstəqilliyini qazanan respublikamızı dağılıb məhv olmaqdan, vətəndaş qarşıdurmasından xilas edən ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan öz müstəqilliyini və dövlətçiliyini qoruyub saxlayıb və daha da möhkəmləndirib.

Natiq ümummilli lider Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsini, Azərbaycanın daha da möhkəmlənməsi və qüdrətlənməsi istiqamətində görülən işləri konkret faktlarla diqqətə çatdırıb.

Digər çıxış edənlər də ulu öndərin hakimiyyətə qayıdışından sonra respublikamızın əldə etdiyi uğurlardan, Milli Qurtuluş Gününün müstəqilliyimizin tarixinə şanlı səhifə kimi yazılmasından söz açıb, unudulmaz dahi şəxsiyyətlə bağlı xatirələrini bölüşüblər.

Bayramla bağlı Biləsuvar Regional Mədəniyyət İdarəsinin hazırladığı musiqi proqramı coşqu ilə qarşılanıb.

## Xocavənd

Milli Qurtuluş Günü münasibətilə Xocavənd qəsəbəsindəki Bayraq meydanında rəngarəng konsert proqramı təqdim olunub. Xocavənd Rayon İcra Hakimiyyəti və Kürdəmir Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə idarə və müəssisələrin, hüquq-mühafizə orqanlarının rəhbərləri, məktəblilər, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbirdə Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyasından ətraflı bəhs edilib. Bildirilib ki, 1993-cü ildə yenicə müstəqilliyini qazanmış respublikamız dağılmaq, parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı bir vaxtda ulu öndər Heydər Əliyevin qətiyyəti, bacarığı, təcrübəsi sayəsində Azərbaycan dövləti ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxıb. Ümummilli liderin qətiyyəti xalqda böyük ruh yüksəkliyi yaradıb, inamımızı özümüzə qaytarıb, sabitlik və əmin-amanlıq yaradıb və bununla da 15 İyun şərəf və şöhrət tariximizə Milli Qurtuluş Günü kimi daxil olub.

Şənlikdə bəstəkar və xalq mahnıları, rəqs nümunələri təqdim olunub. Bayram konserti alqışlarla qarşılanıb, iştirakçılarda xoş əhval-ruhiyyə yaradıb.

***Tahir RÜSTƏMLİ,***
***Əli ƏLİYEV,***
***İlqar HƏSƏNOV,***
***Hamlet ZEYNALOĞLU,***
***“Xalq qəzeti”***

## 17 İyun Səhiyyə İşçiləri Günüdür

# Ömürlərə ömür calayanlar

**Ümummilli lider Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə Tibb İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur. Həmin gün öz başlanğıcını Azərbaycan Xalq Cümhuriyyətindən götürür.**

Bu gün işğaldan azad olunmuş rayonlarda səhiyyə infrastrukturu formalaşır. Azərbaycan Prezidenti İlham Əliyev Zəngilan rayonunun Ağalı kəndinə səfəri zamanı "Huayvei-Azərbaycan" şirkətinin baş meneceri "Ağıllı kənd" rəqəmsal texnologiyasını Prezidentə təqdim edəndə bildirib ki, "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradılaraq, "ağıllı səhiyyə" sistemi həyata keçiriləcək.

Bu gün ağxalatlıların Ağalıdakı fəaliyyəti insanda ruh yüksəkliyini, yaşamağa ümidi və inamı artırır. Çünki Ağalıda tam təchiz olunmuş, ən müasir Ailə Sağlamlıq Mərkəzi və Təcili Tibbi Yardım briqadaları fəaliyyət göstərir. Qeyd edək ki, Ağalıdakı Ailə Sağlamlıq Mərkəzində hamiləliyə nəzarət və reproduktiv sağlamlıq, peyvəndlənmə, körpə izləmə, prosedur, ailə həkimi, laborator xidmətləri otaqları və stomatoloji kabinet fəaliyyət göstərir. Məntəqə ən müasir USM cihazı (4 problu), defibrilator, EKG cihazı, sterilizator, portativ lampa, ekspress laborator test cihazları, aspiratorla təchiz olunub. Mərkəzdə ölkəmizdə ilk dəfə olaraq Teletibb otağı yaradılıb. Bu otaq xüsusi kurs keçmiş tibb işçilərinə respublikamızda və dünyada fəaliyyət göstərən həmkarları ilə portativ cihaz vasitəsilə onlayn qaydada diaqnoz və müalicə təyini ilə bağlı məsləhətləşmələr aparmaq imkanı verir.

Biz Ağalıya zəng edəndə həkim-terapevt Ceyran Abbasovanın telefonunu başqası açdı: "Həkim xəstə ilə məşğuldur, bir az sonra zəng edin." – dedi. Kiminsə xəstə olmasına sevinməsək də, yurd həsrətilə doğma ocağa dönənlərin peşəsinin başında olması bizi qürurlandırdı.

Qeyd edək ki, Ceyran xanım əslən Zəngilanın Üdgün kəndindəndir. Ailəsi Ceyranın yeddi yaşında doğma el-obanı tərk edib. Paytaxtda təhsil də alıb, ailə də qurub. Rəbbim ona mələksimalı üç qız övladı da bəxş edib. Amma, bunlara baxmayaraq, yaddaşına hopan doğma yurd həsrəti onu tərk etməyib... Bakıda öncə 11 saylı Birləşmiş Şəhər Xəstəxanasında çalışıb. Xəstələrə xidmət etmək böyük amalı olub. Hər sağalan xəstəni həyatda qazandığı uğur hesab edib. Sonra 32 saylı Birləşmiş Şəhər Xəstəxanasında xəstələrin sağalması üçün əlindən gələni əsirgəməyib. İşdən sonra evdə olanda da zəng edib onların halını soruşub. Ceyran xanım Zəngilanın azadlığından sonra yurda qayıtmaq üçün ilk müraciət edənlərdən olub. Ailəsi ilə Ağalıya 4-cü köçlə 25 iyul 2022-ci ildə gəlib. "Havasına, suyuna qurban olduğum yerlərə ayaq basanda keçirdiyim hissləri ancaq yurdu viran olduqdan sonra o yerlərin həsrəti ilə yaşayıb, sonra ora qədəm basanlar bilər. Hər şey gözümdə fərqli idi, işim də, evim də, getdiyim küçələr də. Yenidən yeni həyata başlayırdım. Məni sonun nə olacağı yox, bu gün və mənə pənah gətirən xəstələrimə göstərəcəyim xidmət düşündürürdü."– deyir Ceyran həkim. Gəlişindən 3 gün sonra – iyulun 28-də Ağalı Sağlamlıq Mərkəzinin bölmə müdiri olaraq işə başlayıb. Həyat yoldaşı Şamxal Göyüşov da mərkəzdə mühafizə xidmətində işə qəbul olunub. Dövlət onları hər şəraiti olan evlə təmin edib.

– Xəstələriniz, müraciət edənləriniz varmı, çoxmu?– soruşuram.

– Nə danışırsınız, "varmı" – nədir? İlk 4 ayda müraciət edənlərin sayı 1500 nəfər olmuşdu. Hazırda fəaliyyətə başlamağımız heç bir il deyil, amma mövsümi xəstəliklə, travma ilə bağlı müraciət edənlər çoxdur. 11 ay ərzində 5 minə yaxın xəstə qəbul edib xidmət göstərmişik. (Biz zəng edəndə telefonu başqasının açması da onu göstərirdi ki, xəstə müraciəti vaxta, zamana baxmır. Və onları dinləmək, hər hansı vacib zəngdən də mühüm vəzifədir.) Kənd sakinlərinin sayı 419 nəfər olduğuna baxmayın. Hər yerdə tikinti, abadlıq, quruculuq işləri gedir. Tikintidə işləyənlər, hərbçilər daha çox müraciət edirlər. Yaralananların, zədə alanların sayı daha çoxdur. Onlara yalnız ilkin tibbi yardım göstəririk. Ehtiyac olanda xəstələri Beyləqana təxliyə edirik.

Mərkəzdə rəsmi olaraq 11 nəfər çalışır. İki nəfər Təcili Tibbi Yardımın həkim və sürücüsü də gecə–gündüz xidməti borcunu yerinə yetirir. Tibb bacısı Xatirə Abdullayeva 23 iyul 2022-ci ildə ilk köçlə gəlib. Onun bir devizi var: "Mən ki,



ata-baba yurduma qovuşdum, nə qədər çalışsam da, yorulmaram". Fəqanə Hüseynova isə 3 mart 2023-cü ildə doğma yurda dönüb. "Yurd yeri haqqında söylənən bayatıların dərin mənasını doğma torpağa qədəm basanda bildim"–deyir. Zülfiyə Xəlilova da əslən Ağalıdandır. Deyir ki, böyüklərimizin nələr çəkdiklərini indi daha yaxşı hiss edirəm. Bu axar-baxarlı, gündə min bir dona girən təbiətin füsunkar mənzərələri insanı yaşamağa səsləyir.

Onu da əlavə edək ki, bugünlərdə Laçın rayonunda da Təcili Tibbi Yardım Briqadası fəaliyyətə başlayıb. Tibb personalı növbəlilik prinsipi ilə sutka ərzində fəaliyyət göstərir. Təcili və Təxirəsalınmaz Tibbi Yardım briqadaları Bakı şəhəri "113" xidmətindən, Xocavənd Rayon Mərkəzi Xəstəxanasından və Laçın Rayon Mərkəzi Xəstəxanasından növbəlilik əsasında ezam olunublar.

Ömürlərə ömür calamaq, ümid yeri olmaq, xəstələrə şəfa vermək xeyirxah olduğu qədər də gərəkli və müqəddəs işdir. Elə bu nəcib peşələrinə görə tibb işçiləri hər cür hörmət və ehtirama layiqdirlər. Bayramınız mübarək, dəyərli və vacib peşə sahibləri!

*Zərifə BƏŞİRQIZI,*
*"Xalq qəzeti"*

## Günün sualı

# Azərbaycanda dərmanlar niyə bahadır?

**Ölkəmizdə dərmanların baha qiymətə satılması, keyfiyyətinin aşağı olması, qıtlığı ilə bağlı ilin əvvəlində Səhiyyə Nazirliyinə sorğu göndərmişdik. Bir aydan sonra nazirlikdən aldığımız cavablar nə sualları əhatə etmiş, nə də problemi çözməyə ipucu vermişdi. Əksinə, bu məsələ "bizlik deyil" qənaəti yaratmışdı. Bununla bağlı növbəti yazımıza isə heç cavab verilməmişdi.**



Ölkəmizdə dərmanlarla bağlı problem isə qalmaqda davam edir. Ötən dövrdə bəzi dərman idxalçılarından da nəsə öyrənmək istədik. Lakin onlardan da suallarımıza doğru-düzgün cavab ala bilmədik. Kimisi "deyilən söz-söhbətlər doğru deyil", kimisi "qiymətlərin bahalığı bizdən asılı deyil" – kimi cavablarla özlərini kənara çəkdilər.

Üz tutduq öz fəaliyyətində minimum qiymət, maksimum keyfiyyət prinsipini əsas götürərək keyfiyyətli Avropa və Türkiyə istehsalı olan dərmanların idxalı, marketinqi və satışını həyata keçirən yerli UNİTU şirkətinə. Qeyd edək ki, şirkət 2011-ci ildən rəsmi olaraq bir preparatla fəaliyyətə başlayıb. Hazırda isə Azərbaycanda ən geniş yayılmış xəstəlikləri əhatə etmək üçün öz dərman siyahısını artırmağa davam edir. Məqsəd insanları sağlamlığı və təsirli müalicə metodları üçün vacib olan dərmanlarla təmin etməkdir.

Şirkətin təsisçisi Fikrət Əliyevlə Azərbaycanın dərman bazarında mövcud olan vəziyyətlə bağlı söhbət etdik. Dərmanların bahalığından başladıq, onun səbəblərini və vəziyyətdən çıxış yollarını aradıq.

**– Fikrət müəllim, etiraf edək ki, Azərbaycanın satışa çıxarılan dərmanların qiyməti qonşu ölkələrə nisbətən 3–5 dəfə bahadır. Şəxsən hər gün istifadə etdiyim "Tripleksam"ın burada qiyməti 28 manat, Türkiyədə isə dəfələrlə ucuzdur. "Preduktal" da, "Kartan" da, "Ocuvite" da elə... Hansını deyək? Bəlkə, səbəbini idxalçı şirkət rəhbəri olaraq, siz açıqlayasınız.**

– Digər ölkələrlə müqayisədə Azərbaycanda dərmanların bahalığı son 5 ildə, xüsusən də 2020-ci ildən sonra daha çox gündəmdə olan məsələdir. Bu, aktual problemdir. Azərbaycanda dərmanların xarici ölkələrə nisbətən baha olması doğrudur və onun bir neçə səbəbi var. Mən 10 ildən artıqdır ki, dərman idxal edən bir şirkət rəhbəri olaraq, bunu faktlarla deyə bilərəm. Birinci və başlıca səbəb ölkəmizdə dərman istehsalının olmamasıdır. Azərbaycanda bu məsələ həllini tapmadığına görə, biz daha çox ehtiyac olan dərmanları idxal edirik.

İdxal prosesində isə fərqli nüanslarla rastlaşırıq. Elə istehsalçı ölkələr var ki, məsələn, lap yaxın qonşularımız Türkiyə, Gürcüstan, yaxud digər Avropa ölkələri dərman istehsal etməklə yanaşı, həm də idxalla məşğuldur. Ən mühümü odur ki, bizim ölkədən fərqli olaraq, orada dərmanlar gömrük və vergi rüsumundan azaddır.

Bizdə isə idxal olunan dərmanlara həm gömrük rüsumu, həm də vergi tətbiq olunur. Yəni, biz istehsalçıdan aldığımız məhsulu Azərbaycana gətirəndə, hansı qiymətə almağımızdan asılı olmayaraq, qiymətin üzərinə 36 faiz gömrük rüsumu əlavə edilir, 18 faiz vergi rüsumu (ƏDV) hesablanır. Yol, anbar xərci də var. Əlavə olaraq, sertifikatlaşma və laboratoriya xərcləri... Bütün bunlar toplananda 58 faiz əlavə xərc çıxır.

Azərbaycanda dərmanların satışa qeyri-ölkələrə nisbətən baha qiymətə çıxarılmasının əsas səbəbləri bunlardır. Yəni, bu gün satışda olan 10 manatlıq dərman vergidən və gömrükdən azad olarsa, avtomatik olaraq 5 manat 80 qəpik qiymətində endirim yaranar və həmin dərman 4 manat 20 qəpiyə satılar. "Niyə Türkiyədə ucuzdur?"– soruşursunuz. Çünki orada istər idxal, istərsə də ixrac zamanı dərmanlar vergidən və gömrükdən azaddır.

Adını çəkdiyiniz "Tripleksam" dərmanını Türkiyənin öz istehsalı olduğuna görə, orada 6–7 manata, burada isə 25 manata əldə edə bilirik. Bu, təbii və normaldır, çünki biz onu oradan 6 manata alırıqsa, Azərbaycana gələndə qiymətin üzərinə 58 faiz rüsumlar əlavə olunur, 10 manatdan yuxarı olur. Amma onu da qeyd etməliyik ki, bir sıra dövlətlər idxal etdiyi məhsulları ixrac edəndə fərqli qiymət tətbiq edir. Bəzən elə düşünürlər ki, xaricdə 6 manata olan dərman topdansatış yolu ilə aşağı qiymətə alınır. Əsla belə deyil. Hansısa ölkə 5 manata satdığı dərmanı ixrac edəndə, 10 manata verir. Bu, yalnız Türkiyədə deyil, bütün dünya təcrübəsində belədir. Dərman istehsal edən ölkələr ixrac zamanı qiyməti qaldırır. Azərbaycanda dərman istehsalı olarsa, qiymətlər avtomatik düşər.

Əlavə olaraq onu demək olar ki, Azərbaycanda elə dərman məhsulları var ki, qiymətləri Tarif Şurası (TŞ) tərəfindən müəyyən edilir. Hazırda satışda olan dərmanların 50 faizi belədir. Tarif Şurası tərəfindən müəyyənləşdirilən qiymətlərə kimsə müdaxilə edə bilmir: nə dərman idxalçıları, nə satış depoları, nə də apteklər. Məsələn, Şura hər hansı dərmana qiymət qoyubsa ki, bu, 26 manata satılacaq, biz ondan nə bir manat aşağı, nə bir manat yuxarı sata bilərik. Çünki dərman bazarında qiymətləri onlar müəyyənləşdirir.

**– Hətta əczaçılar da təsdiq edirlər ki, indiki dərmanların keyfiyyəti və təsiri azalıb. Cəmiyyətdə belə fikir formalaşıb ki, dərman idxalçıları istehsalçı müəssisələrlə razılığa gəlib dərmandan müəyyən tərkib hissəsini çıxarmaq və ya dozasını azaltmaqla preparatın daha ucuz başa gəlməsinə, bununla da daha çox qazanc əldə edilməsinə nail olurlar. Bu fikrə münasibətiniz...**

– İnsanların söylədiklərində müəyyən həqiqət var, amma tam olaraq elə deyil. Öncə onu deməliyəm ki, pandemiyadan sonra bütün dünyada qiymət artımı yarandı, eləcə də, Azərbaycanda. Dünyanı dərman xammalı ilə 2 ölkə – Çin və Hindistan təmin edir. Xüsusən də dərman bazarında xam məhsul istehsal edən Çində pandemiya dövründə dərman istehsal edən zavodlar iflas edib bağlandığına görə istehsalçılarda qiymətlər, təbii olaraq, artdı.

Bahalaşmadan sonra Tarif Şurasının təyin etdiyi qiymətlər dəyişməyib. Amma istehsalçıdan dərmanı artıq 2 qat baha alırıq. Belə olan halda iki yol qalır. Ya həmin məhsulu ölkəyə gətirməməliyik, ya da qiymətin qalxmaması üçün dərmanın tərkibində doza aşağı salınmalıdır. Bu, preparatdan hansısa tərkibi çıxarmaq deyil, dərmanın qəbulunda dəyişiklikdir. Əvvəl 1 tabletdən gündə 1 dəfə qəbul edilirdi, tərkibində 100 mlq Vit C vardı. İndi isə 1 tabletin tərkibində 50 mlq Vit C olur və gündə iki dəfə qəbul edilməlidir ki, xəstə həmin sutkalıq dozanı ala bilsin.

Bu addımı atmağa da məcburuq. Çünki Tarif Şurası qiyməti dəyişmir, istehsalçı isə qiyməti artırıb. Artıq 100 mlq-lıq dərman baha olduğundan ala bilmirsən. Ona görə də bəzi şirkətlər əvvəlki dərmanları indi gətirmir, bəziləri də dediyimiz üsuldan istifadə edir. Doza iki dəfə azaldılır, bu, dərmanın keyfiyyətini aşağı salmır. Dərman sənəddə göstərilən dozaya uyğun gəlmirsə, həmin məhsula satış sertifikatı verilmir. Kimsə dərmanın tərkibində dəyişiklik edə bilməz. Məhz bu məsələyə görə, insanlarda belə fikir yaranıb ki, dərmanlar əvvəllər daha keyfiyyətli idi.

**– Nə istehsalçı itirir, nə də idxalçı. İtirən istehlakçı – insanlar olur. Əvvəl bir qutu dərmanı 5 manata alan xəstə, indi həmin dozanı qəbul etmək üçün 10 manat xərcləyir...**

– Başqa yol yoxdur. Ya dərmanların dozası azalmalıdır, ya da gətirilməməlidir. Öncəki sualın ikinci tərəfinə gəldikdə, deyə bilərəm ki, belə formada qazanc artmır. Dərmanı neçəyə almağından asılı olmayaraq, onu təyin edilən qiymətdən baha sata bilməzsən.

**– Apteklərdə dərmanların satışına idxalçı şirkətlər nəzarət edə bilirmi?**

– Apteklər sərbəst bazar iqtisadiyyatında olduğundan dərmanların satışına idxalçı şirkətlər nəzarət edə bilmir. İqtisadiyyat Nazirliyi onların hər birinə sərbəst qiymət təyinetmə ixtiyarı verib. Məsələn, şəhərin mərkəzində, Fəvvarələr meydanında olan apteklə, deyək ki, Hövsandakı aptekdə dərmanların satışında qiymət fərqi olacaq. Çünki burada aptek sahibi deyir ki, icarə haqqına 10 min manat ödəyirəm. Hövsandakı isə 500 manat ödəyir. Hər biri özünə görə qiymət artımı edir. Digər ölkələrdə isə belə deyil, icarə haqqı standartdır.

**– İdxal etdiyiniz məhsulların satışını necə həyata keçirirsiniz? Həkimlərlə razılaşma yolu ilə dərmanların reklamla satışına, yoxsa apteklərlə razılaşmaya üstünlük verirsiniz?**

– Ümumiyyətlə, dünya bazarında idxal olunan dərmanların reklamları fərqli aparılır. Bəzi şirkətlər TV reklamlarına üstünlük verir, bəziləri konfranslar, konqreslər, seminarlar keçirməyi münasib bilir. Bəzi şirkətlər isə xəstəxana, poliklinika daxilində təqdimatlar keçirir. Bir çoxları həkimlərə əyani vizitlərlə öz məhsulunun təqdimatını edir, bəziləri də dediyiniz kimi, apteklərlə. Yəni həkimlər tərəfindən təyin edilən dərmanların aptek tərəfindən reklam olunması qeyri-mümkündür. Sifarişçi olmasa, hansı dərman və kimə reklam olunacaq? Aptekə həkimin resepti gəlməlidir ki, əczaçı dərmanı sata bilsin.

Amma, bəzi preparatlar da var ki, onlara dünya bazarında otisi (həkim tərəfindən təyin olunmayan) dərmanlar deyirlər. Buna əczaçının özünün sərbəst təqdim edə biləcəyi bəzi ağrıkəsicilər, vitaminlər, siroplar aiddir. Hər hansı şirkətin aptekdə belə dərmanları varsa, əczaçı onu özü istədiyi şəkildə reklam edə və sata bilər.

Bundan başqa, biz dərmanlarımızın satışı məqsədilə hər bir imkandan yararlanmağa çalışırıq, televiziyada, sosial mediada reklam edirik, həkimlərlə əməkdaşlığa daha çox üstünlük veririk. Sosial səhifələrimizdə dərmanların istifadə qaydası, hansı xəstəliklərdə xeyirli olması barədə videoçarxlar hazırlanıb cəmiyyətə təqdim edilir. Siz o səhifələrimizə nəzər salsanız, görərsiniz ki, hər il nə qədər konfranslar keçirir, xarici həmkarlarımızın konqreslərinə evsahibliyi edirik.

**– Fikrət müəllim, arzu edək ki, göstərilən problemlər tezliklə həllini tapsın, qiymətlər aşağı düşsün.**

*Müsahibəni qələmə aldı:*
*Z.HÜSEYNOVA,*
*"Xalq qəzeti"*

# "Əfsanəvi xilasedici" – şəhid həkim Turqut Xəlilbəyli

**Səhiyyə İşçiləri Günündə ağxalatlılarımızın Vətən müharibəsində fədakarlıqlarını da qürurla qeyd edirik. Digər hərbi qulluqçularla yanaşı, tibb işçiləri də öz adlarını şərəfli tariximizə yazıblar. Statistik məlumatlarda göstərilir ki, müharibə zamanı 159 hərbi tibb işçisi yaralanıb, 42 tibb işçisi isə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Onlardan 9-u həkim, 7-si feldşer, 26-sı isə sanitardır. Bu gün ilk şəhid həkim olan leytenant Turqut Xəlilbəylidən söhbət açmaq istəyirik.**



Turqut 1993-cü il iyulun 4-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Yengicə kəndində dünyaya göz açmışdı. Uşaqlıqdan onda hərbçi peşəsinə maraq oyanmışdı. Anası isə istəyirdi ki, oğlu həkim olsun. Bundan xəbər tutan yaxın qohumu, ixtisasca hərbi həkim, ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Çingiz Məmmədovun məsləhəti ilə onun ardıcılı olmaq qərarına gəlib ki, həm özünün, həm də anasının istəyi həyata keçsin. "Dədə Qorqud" Türk liseyini bitirdikdən sonra Azərbaycan Tibb Universitetinə daxil olaraq hərbi həkim ixtisasına yiyələnib. Universiteti bitirdikdən sonra təyinatı Beyləqana verilib. Orada hərbçi kimi fəaliyyətə başlayıb və üç il işləyib. İkinci Qarabağ müharibəsi başlananda Turqut arxa cəbhədə hospitalda işləməli olsa da, korpus komandirinin adına ərizə yazaraq, öz xahişi ilə ön cəbhəyə yollanıb.

Davanın ilk günlərindən Füzuli və Cəbrayıl rayonlarında yaralanan əsgər və zabitlərin həyatını xilas etmək üçün var gücü ilə çalışır, vəzifə borcunu layiqincə yerinə yetirir. Oktyabr ayının 7-də Turqut növbəti döyüşün gedişində yenə də yaralı əsgərlərimizi atəş altından çıxarmaqla məşğul olur. Həmin gün o, yaralıları xilas etmək məqsədilə birbaşa atəş zonasına üç dəfə uğurlu gediş edir. Dördüncü cəhdində düşmənin atdığı artilleriya mərmisi Turqutun yaxınlığına düşür. Bu zaman o, özünü yaralı əsgərimizin üzərinə atır və öz canı bahasına onun həyatını xilas edir. Amma aldığı ağır qəlpə yaraları səbəbindən leytenant Turqut Xəlilbəylinin həyatını qurtarmaq mümkün olmur.

Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarına qatılan Turqut Xəlilbəyli hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı fərqləndiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", "Cəsur döyüşçü", eləcə də Füzulinin və Cəbrayılın azad olunmasına görə medalları ilə təltif edilib.

Turqut Xəlilbəyli İkinci Şəhidlər Xiyabanında dəfn edilib. Qulluq etdiyi hərbi hissədə şəhid polkovnik Şükür Həmidov, əsgər Elnur Vəliyevlə birlikdə Turqutun da xatirəsi əbədiləşdirilib.

Atası Nadir Xəlilbəyli oğul itkisinin ağrılarını yaşasa da, onun müqəddəs yolun yolçusu olmasından iftixarla danışır: "Böyük arzuları vardı. Azərbaycanın ərazi bütövlüyünün təmin olunması da həmin arzulardan biri idi. Sonuncu dəfə onun yanına getmişdim. Görüşdük, hər şeyin qaydasında olduğunu bildirdi. Sağollaşanda qulağıma pıçıldadı ki, harada olduğumu anama demə, nigaran qalmasın. Belə bala idi Turqut. Təskinliyimizi onda tapırıq ki, ərazi bütövlüyümüz onun kimi mərd övladlarımızın sayəsində təmin edildi".

Anası Almaz Hüseynova isə Turqutun müharibənin odlu meydanında olmasından xəbərsizmiş. "Haçan telefonla danışırdıqsa, deyirdi hər şey yaxşıdır. Ön cəbhədə olduğunu bildiyimdə mənə söylədi ki, yoldaşları orada yaralanarsa, mütləq köməklərinə çatmalıdır. Hər gün telefonla danışırdıq. Şəhid olduğu gün səhər tezdən son dəfə danışmışdıq..."

Ehtiyatda olan tibb xidməti polkovnik-leytenantı Çingiz Məmmədovun dedikləri: "Turqut Tibb Universitetində oxuduğu illərdə bizdə qalırdı. Hərbi həkimliyi seçməsinin səbəbkarı mən olmuşam... Oktyabrın 4-də cəbhə bölgəsinə yardım aparmışdıq. Atası Nadir də bizimlə idi. Onun cəbhə bölgəsinə keçməsi üçün sürücü kimi icazə almışdım. Orada Turqutla görüşdük. Axırıncı görüşümüz elə o oldu..."

Turqut Xəlilbəylidən kövrək xatirələr, orden-medallarla bərabər, şəxsi əşyaları yadigar qalıb. Ona məxsus hərbi səhra forması (kitel, hərbi mərasim şalvarı, ağ rəngdə hərbi mərasim köynəyi, qalstuk, zeytun rəngli qış papağı, ağ rəngli təntənəli mərasim əlcəyi, furajka, şinel, hərbi çəkmə və iki fotoşəkli ailəsi tərəfindən AMEA-nın Milli Azərbaycan Tarixi muzeyinə təqdim edilib və Vətən Müharibəsi fondunda mühafizə olunur. Muzeydə təşkil edilən "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgidə nümayiş olunan bu yadigarlar istər-istəməz həzin duyğular oyadır.

Gələn ayın 4-də Turqutun 30 yaşı tamam olacaq. Ailəsi, mülki dostları ilə bərabər, qorxmazlığı və cəldliyinə görə onu "Əfsanəvi xilaskar" adlandıran döyüş yoldaşları da ilk şəhid həkimin ata ocağında toplaşacaq, ölməz xatirəsini yad edəcəklər. Onsuz da həmişə yaddadır Turqut!

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

BEYNƏLXALQ HƏYAT

# ABŞ Makronun əli ilə yeni iqtisadi birliyi zəiflətmək istəyir

**Dünyada geosiyasi vəziyyət dəyişir, yeni iqtisadi əməkdaşlıq mərkəzləri yaranır, güc balansının yenidən qurulması prosesi gedir. Bunlar isə ABŞ və Qərbin xeyrinə deyil, onların dünya iqtisadi səhnəsindəki hegemonluğuna təhlükə yaradır və beynəlxalq problemlərin həllində mövqelərini zəiflədir. Bu səbəbdən Qərbə məxsus bir sıra aparıcı iqtisadi təşkilatlar çətin günlərini yaşayır. Bunların fonunda BRICS (Braziliya, Rusiya, Hindistan, Cin və Cənubi Afrika Respublikasından ibarət qrup) dünya iqtisadiyyatı üçün önəmli birliyə çevrilir, mövqeyi hər il güclənir. Aydındır ki, Qərb ciddi rəqibi xoşlamır və BRICS-i içəridən dağıtmaq, zəiflətmək istəyir. Bunun üçün Vaşinqton oraya öz müttəfiqlərini yerləşdirməyə çalışır. İlk addımlar da atılır və bu rola ən yaxşı namizəd kimi Emmanuel Makron seçilib.**



Artıq Fransa Prezidenti Emmanuel Makron Cənubi Afrika Respublikasının rəhbəri Siril Ramafosa müraciət edib ki, onu avqustda Yohannesburqda keçiriləcək BRİCS sammitinə dəvət etsin. Bu tələb Cənubi Afrika liderini bir qədər təəccübləndirib, çünki BRİCS çox qapalı klubdur, Fransa isə onun üzvü deyil. Müsbət cavab veriləcəyi halda Makron sammitdə iştirak edən ilk Qərb lideri olacaq. Bu, BRİCS-i "daxildən bulandırmaq arzusunda olan" amerikalıların çoxdankı strategiyasıdır. Bu strategiyada yalnız Fransaya yer ayrılmayıb.

ABŞ özünə sadiq bir sıra Qərbi Avropa ölkələrinin və ya ABŞ-ın Asiyadakı müttəfiqlərinin BRİCS-ə üzv olmasında maraqlıdır. Məkrli siyasətin arxasında isə birlik çərçivəsində ümumi vahid qərarların qəbuluna mane olmaq, orada amerikapərəst mövqeləri müdafiə etmək, çox güclü Rusiya və Çinin anti-ABŞ təşəbbüslərinin qarşısını almaq dayanır. Bir sözlə, ABŞ bu təşkilatı təsiri altına salmaq və məna-sız bir quruma çevirmək niyyətindədir.

ABŞ həm də bu yolla dünya valyuta bazarında zəifləməkdə olan dolların mövqeyini qorumağa çalışır. Belə ki, BRİCS öz valyutasını dövriyyəyə buraxmaq niyyətindədir və bu da dollar üçün keçilməz fəlakət olacaq. BRİCS ölkələrinin ilk addımları da dollar üçün bu təhlükənin ciddi olduğunu göstərir. Artıq onlar aralarındakı hesablaşmalarda milli valyutaların payını aktiv şəkildə artır və öhdəliklərindən boyun qaçıra bilənlərin əlində olan mexanizmlərə etibar etmək istəmirlər. Deməli, çıxış yolu BRİCS-in öz valyutasını dövriyyəyə buraxmasıdır. Əlbəttə, ABŞ bunu istəmir və bütün imkanlardan istifadə edərək mane olmağa çalışır.

"Bu, dolların qlobal rolunu zəiflədə və nəticədə, onu aparıcı ödəniş və ehtiyat vasitəsi kimi sıradan çıxara biləcək yeni əsas valyutanın dövriyyəyə buraxılması ilə bağlıdır", – deyə Mərkəzi Kəşfiyyat İdarəsinin keçmiş müşaviri Ceyms Rikards bildirib.

O, həmçinin vurğulayıb ki, BRİCS-in yeni valyutası Qərbin hegemonluğu üçün ciddi təhlükə yaradacaq. Eyni zamanda ABŞ-ın davamlı sanksiya təzyiqi səbəbindən digər dövlətlər də dollardan imtina edə bilərlər. O əlavə edib ki, bu, son nəticədə ABŞ valyutasına inamın çökməsinə gətirib çıxaracaq. Hazırda bütün dünya beynəlxalq valyuta sistemini "silkələyə" biləcək BRİCS-in inkişafını izləyir.

Bundan əvvəl ABŞ-ın keçmiş konqresmeni Ron Pol bildirmişdi ki, BRİCS ölkələri dolların qlobal dominantlığına artıq zərbə vurub. O əlavə edib ki, tezliklə bütün ölkələr ABŞ valyutası ilə hesablaşmalardan imtina etməyə başlayacaq.

Xatırladaq ki, BRİCS Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikanın daxil olduğu dövlətlərarası birlikdir. 2006-cı ilin iyununda Braziliya, Rusiya, Hindistan və Çinin iqtisadiyyat nazirlərinin iştirakı ilə Sankt-Peterburq İqtisadi Forumu çərçivəsində yaradılıb. Cənubi Afrika Respublikası isə sonradan birliyə qoşulub.

Bundan əlavə, digər ölkələr, o cümlədən Argentina, İran, eləcə də Çin Xarici İşlər Nazirliyinin məlumatına görə, İndoneziya, Türkiyə, Səudiyyə Ərəbistanı və Misir də iqtisadi bloka qoşulmaq niyyətindədirlər.

Göründüyü kimi, Fransa Prezidenti Emmanuel Makron ABŞ-ın maraqlarına uyğun "şərəfli" bir vəzifəni yerinə yetirməlidir. Bu ona xas olan məşğuliyyətdir və ikili oynamağı çox sevir. Məsələn, təşkilat Ukrayna – Rusiya müharibəsində özünü Ukrayna tərəfindən "bu münaqişənin fəal iştirakçısı" kimi göstərir. Və bildirir ki, əks-hücum uğursuz olarsa, Qərb Ukraynaya dəstəyini yenidən nəzərdən keçirəcək. Qərb uzunmüddətli sülh istəyirsə, Ukraynaya istənilən təcavüzün qarşısını almaq üçün vasitələr və təhlükəsizlik zəmanəti verməlidir. "Ukraynanın uğurlu əks-hücum əməliyyatı sülhlə bağlı dialoqa imkan verə bilər",– o deyib.

Digər tərəfdən isə Fransa Krımın Rusiya tərkibində qalmaqla sülh müqaviləsinin bağlanması tərəfdarı kimi mövqe sərgiləyir və heç vaxt Rusiyanın məğlub olmasını istəməyib. Bunlar isə Emmanuel Makronun qeyri-səmimi, riyakar və qərəzli olduğunu göstərir. Deməli, Makron yumşaq desək, heç də obyektiv vasitəçi deyil. Yalnız aranı qarışdırmaqla məşğuldur.

*Pünhan ƏFƏNDİYEV,*
*"Xalq qəzeti"*

# "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı"

**Dünən Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" mövzusunda respublika elmi konfransı keçirilib.**

Əvvəlcə tədbir iştirakçılarına görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dönəmlərini əks etdirən sərgi nümayiş etdirilib.



Tədbiri muzeyin baş direktoru, akademik Rafael Hüseynov açaraq dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə dövlət və xalq qarşısında tarixi xidmətlərindən, ölkəmizin tərəqqisi, rifahı naminə gördüyü misilsiz işlərdən söz açıb. O, Azərbaycan bədii ədəbi irsinin mahir bilicisi olmuş Heydər Əliyevin milli ədəbiyyata, onun ölməz yaradıcılarına olan xüsusi maraq və sevgisindən bəhs edib.

"Ulu öndər ölkəmizə rəhbərlik etməyə başladığı ilk dövlərdə Azərbaycan dilinin, ədəbiyyatının, mənəviyyatının keşiyində dayanıb", – deyən akade-



mik Rafael Hüseynov doğma dilimizin hərtərəfli inkişaf etdirilməsində, dövlət dili statusu qazanmasında ümummilli lider Heydər Əliyevin xidmətlərinin danılmaz olduğunu vurğulayıb. O, ulu öndərin təşəbbüsü ilə 27 aprel 1978-ci il tarixində Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit olunduğunu diqqətə çatdırıb.

Baş direktor qeyd edib ki, görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş anlayış olub. Alimin sözlərinə görə, ulu öndər ədəbiyyatın klassik nümunələrinə yaxından bələd idi, ədəbiyyatı qəlbən sevirdi və onun ədəbiyyatın müasir yaradıcılarına səmimi münasibəti vardı.

Rafael Hüseynov məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyinin UNESCO-nun tədbirləri siyahısına daxil edildiyini və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunduğunu diqqətə çatdırıb.

Akademik Rafael Hüseynov qeyd edib ki, ulu öndərin yaradıcılığını xüsusi qiymətləndirdiyi və xatirəsinin əbədiləşdirilməsi üçün qətiyyətli tədbirlər gördüyü Azərbaycanın görkəmli sənətkarlarından biri də böyük şair və dramaturq Hüseyn Caviddir.

Hüseyn Cavidin naşinin ulu öndərin təşəbbüsü nəticəsində uzaq Sibirdən Azərbaycana – öz doğma Vətəninə gətirildiyini vurğulayan məruzəçi onun xatirəsinin əbədiləşdirilməsi istiqamətində də atılan ilk və qəti addımların məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərə təsadüf etdiyini söyləyib.

Qeyd olunub ki, dahi lider müstəqil Azərbaycana rəhbərliyi dövründə "Kitabi-Dədə Qorqud"a da böyük dəyər verib, onun təbliğini diqqət mərkəzində saxlayıb. Ümummilli liderin 1997-ci il aprelin 20-də imzaladığı sərəncam əsasında "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin geniş şəkildə qeyd edilməsi üçün hərtərəfli tədbirlər həyata keçirilib.

Daha sonra konfrans öz işini bölmələr üzrə davam etdirib.

"Heydər Əliyev və klassik Azərbaycan ədəbiyyatı", "Heydər Əliyev və müasir Azərbaycan ədəbiyyatı", "Azərbaycan ədib və mədəniyyət xadimlərinin xatirəsinin əbədiləşdirilməsində Heydər Əliyevin xidmətləri", "Heydər Əliyev və "Kitabi-Dədə Qorqud" abidəsinin öyrənilməsində yeni mərhələ", "Heydər Əliyevin dövlət siyasətində mədəni irs və klassiklərimizin Azərbaycan böyüklüyünün rəmzi kimi istifadəsi" bölmələrini əhatə edən tədbirdə müxtəlif mövzularda məruzələr dinlənilib.

Sonda konfransda məruzə ilə çıxış edənlərə sertifikatlar təqdim olunub.

*Qabil YUSİFOĞLU,*
*"Xalq qəzeti"*

# Ukrayna əks-hücumun uğurla getdiyini iddia edir

## Rusiya isə bunun əksini deyir

**Ukrayna Müdafiə Qüvvələri hücum əməliyyatını davam etdirir. İyunun 16-da ukraynalı müdafiəçilər düşmənin aviasiya və artilleriya üstünlüyünə baxmayaraq, Uqledar və Stupochki istiqamətində uğur qazanıblar. "Əsgərlərimiz qismən uğur qazanıb. Ukrayna əsgərlərinin müdafiə etdiyi yerdə bir dənə də olsun mövqe itirilməyib. Zaporojye və Donetsk vilayətləri istiqamətlərində hücum əməliyyatları uğurla həyata keçirilir. Uqledar şəhəri ərazisində ukraynalı əsgərlər müəyyən sahələrdə uğur qazanıblar. Hücum hərəkətləri zamanı onlar əldə edilmiş xətlər üzrə yerləşirlər. Həmçinin Ukrayna Silahlı Qüvvələrinin bölmələri Donetsk vilayətinin Stupochki qəsəbəsinin şərqində yerləşən ərazidə uğurla hücum əməliyyatları keçirib, işğalçı qoşunları oradakı mövqelərindən sıxışdırıblar", – Ukrayna Silahlı Qüvvələri Baş Qərargahının spikeri Andrey Kovalev deyib.**



Ukrayna ordusunun uğurları barədə NATO-nun baş katibi Yens Stoltenberq ABŞ prezidenti Co Baydenlə görüşdə də danışıb. Baş katib bildirib: "Ukrayna Silahlı Qüvvələrinin əks-hücum əməliyyatı uğur qazanır. Onlar nə qədər çox ərazini azad edə bilsələr, danışıqlar masasında mövqeləri də bir o qədər möhkəm olacaq. Rusiya prezidenti Vladimir Putin heç vaxt bu təcavüzkar müharibədə qalib gəlməyəcək və bunu nə qədər tez dərk edəcək. Hazırda Ukraynaya birlikdə verdiyimiz dəstək döyüş meydanında önəmlidir, çünki hücum başlayıb və ukraynalılar irəliləyir. Bu, yalnız başlanğıcdır".

Stoltenberq daha sonra Twitter-də yazıb: "Möhtəşəm görüş oldu. Mən ona (Co Bayden) ABŞ-n liderliyinə və Ukraynaya verdiyi dəstəyə görə təşəkkür etdim. Vilnüsdə biz Ukraynaya dəstəyi artıracağıq və müdafiə qüvvələrimizi daha da gücləndirəcəyik".

Bu istiqamətdə addımlar atılır. Qərb ölkələri əks-hücumda iştirak etmək üçün təxminən 60 min Ukrayna əsgəri hazırlayıb. Bu barədə Brüsseldə keçirilən mətbuat konfransında ABŞ Silahlı Qüvvələrinin Baş Qərargah Rəisləri Komitəsinin sədri, general Mark Milli məlumat verib. O, Kiyevə silah və hərbi texnika tədarükünü koordinasiya edən qrupun növbəti iclasının nəticələrinə yekun vurub. "Ümumiyyətlə, beynəlxalq səylər nəticəsində 60 minə yaxın Ukrayna əsgəri hazırkı hücum əməliyyatı üçün hazırlanıb", – deyə amerikalı general bildirib.

Ukraynanın hücumunun uğurlu alınması üçün daha bir dəstəyə ehtiyacı var. Hələ də cəbhədə Rusiya artilleriyası üstünlüyə malikdir və bu səbəbdən Ukrayna hərbçiləri aviasiya çatışmazlığı hiss edirlər, çünki Qərbin vəd etdiyi F-16 qırıcıları hələ də çatdırılmayıb. Bundan əlavə, cəbhə xəttində yerüstü bölmələri əhatə edə biləcək mobil hava hücumundan müdafiə sistemlərinin olmaması da problemdir. Ukraynanın hücumlarının daha uğurlu alınması üçün bu çatışmazlıqlar ilk növbədə həll olunmalıdır.

Xatırladaq ki, Ukrayna Silahlı Qüvvələrinin daha əvvəl elan edilmiş əks-hücum əməliyyatı iyunun 4-də başlayıb.

*Ə.PÜNHAN,*
*"Xalq qəzeti"*


## "Ə.A.Ansuxski adına Balakən Konserv Zavodu" ASC səhmdarlarının nəzərinə!

15 iyul 2023-cü il saat 17.00-da Balakən şəhəri, R Səmədov küçəsi 20 nömrəli ünvanda "Ə.A.Ansuxski adına Balakən Konserv Zavodu" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:
1. Cəmiyyətin sədrinin hesabatı.
2. İllik maliyyə hesabatı və balansın təsdiqi.
3. Maliyyə-təsərrüfat fəaliyyəti barədə təftiş komissiyasının hesabatı.
4. Təftiş komissiyasının yeni sədrinin və üzvlərinin seçilməsi.
5. ASC-nin biznes mühitinin yaxşılaşdırılması, investisiyaların təşviqi ilə bağlı mexanizmin müəyyən olunması və dividendlərin əldə edilməsi üçün zəruri addımların atılması məqsədilə məsələlərin müzakirəsi.
6. Digər məsələlər.

*İdarə heyəti*

## "Çederovtala Tütün" ASC səhmdarlarının nəzərinə!

14 iyul 2023-cü il saat 17.00-da Balakən şəhəri, R. Səmədov küçəsi 20 nömrəli ünvanda "Çederovtala Tütün" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:
1. Cəmiyyətin sədrinin hesabatı.
2. İllik hesabatın təsdiqi.
3. "Çederovtala Tütün" ASC-nin MMC formasında yenidən təşkil edilməsi barədə məsələlərin müzakirəsi.
4. Təhvil-təslim aktının təsdiq edilməsi.

*İdarə heyəti*

## "AZ AQRO" ASC səhmdarlarının nəzərinə!

13 iyul 2023-cü il saat 17.00-da Balakən şəhəri, R Səmədov küçəsi 20 nömrəli ünvanda "AZ AQRO" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Yığıncağın gündəliyi:
1.Cəmiyyətin sədrinin hesabatı.
2.İllik maliyyə hesabatı və balansın təsdiqi.
3.Maliyyə - təsərrüfat fəaliyyəti barədə təftiş komissiyasının hesabatı.
4.Digər məsələlər.

*İdarə heyəti*

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 127 (30243) 17 iyun 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

## Mədəniyyət xəbərləri



***Azərbaycanın Türkmənistandakı səfirliyi Xalq şairi Zəlimxan Yaqubun ulu öndər Heydər Əliyevə həsr etdiyi "Əbədiyyət dastanı" poemalar kitabını türkmən dilinə tərcümə etdirərək, nəfis şəkildə çapını reallaşdırıb.***

Səfirlikdə 15 İyun – Milli Qurtuluş Günündə kitabın təqdimatı keçirilib. Səfir Həsən Zeynalov kitaba "Böyük ömrün dastanı" və "Böyük ömrün davamı" poemalarının daxil olunduğunu qeyd edib. Nəşr Heydər Əliyev haqqında poetik elegiyadır.

Kitabı türkmənistanlı şair Akmurad Rəcəbov və səfirliyin müşaviri Mikayıl Yusifov tərcümə ediblər. Nəşrdə Azərbaycanın Xalq rəssamı Arif Hüseynovun illüstrativ əsərlərindən istifadə olunub. İlk nüsxəsi Türkmənistanın xarici işlər nazirinə təqdim edilib.

*



***AZƏRTAC-ın xüsusi müxbiri Şahin Cəfərov Çin Dövlət Şurası İnformasiya Ofisinin təşkilatçılığı ilə bu ölkədəki xarici jurnalistlərlə birlikdə Tibet Muxtar Rayonuna səfərə yollanıb. Bu, Azərbaycan jurnalistinin Tibetə ilk səfəridir.***

Dünyanın ən qədim yaşayış məskənlərindən biri olan, ərazisinin çoxunun dəniz səviyyəsindən 4 min metr yüksəklikdə olmasına görə Tibeti "dünyanın tavanı" və ya "dünyanın təpəsi" adlandırırlar. "Tibet" qədim türk dilindəki "təpə" sözündəndir. Jurnalistlər səfər çərçivəsində tarixi yerlərə baş çəkəcək, 5-ci Tibet Turizm və Mədəniyyət sərgisində iştirak edəcəklər.

*

***Masallıda "Heydər Əliyev İli" və 15 iyun Milli Qurtuluş Günü münasibətilə "Qurtuluş yürüşü 2023" adlı marafon keçirilib.***



Yürüş Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Atletika Federasiyasının, Masallı Rayon İcra Hakimiyyətinin və Bakı Marafon Klubunun dəstəyi ilə reallaşıb.

Marafon iştirakçıları rayonun Heydər Əliyev parkından start götürərək şəhər üzrə 10 km məsafəni qət etdikdən sonra finiş xəttinə çatıblar. Tədbiri "Halay" folklor kollektivi daha da rövnəqləndirib. Yürüşdə fərqlənənlər medal, diplom və qiymətli hədiyyələrlə təltif ediliblər.

***Ə.DOSTƏLİ, "Xalq qəzeti"***



## Ağıl yaşda deyil, başdadır

**Bu günədək dünyada bir çox super intellektə sahib uşaqların erkən yaşda universitet məzunu olmaları, ən çətin ixtisasda təhsil alıb, prestijli şirkətlərdə işə düzəlmələri barədə teztez oxumuşuq. Bu yeniyetmələrdən biri də, xəbər verdiyimiz kimi, ABŞ-ın Santa Klara Universitetində təhsil almış 14 yaşlı Kairan Quazidir.**

O, artıq Amerikanın kosmik nəqliyyat şirkəti olan "SpaceX" da çalışır. Əvvəllər ABŞ-ın elektron avadanlıqlar şirkəti "Intel"in süni intellekt laboratoriyasında təcrübə keçən Quazi fəaliyyət göstərən Quazi hələ 9 yaşında ikən Kaliforniyada yerləşən Las Positas Kollecində təhsil alıb.

Dünya əhalisinin 99,9 faizindən yüksək IQ-yə sahib olan Quazi "HuffPost" xəbər saytına verdiyi açıqlamasında zəkasının onunla həmyaşıdları arasında qoyduğu ünsiyyət maneəsini bu cür izah edir: "3-cü sinif fənn müəllimimə onun cazibə qüvvəsi haqqında biliklərinin o qədər də dərin olmadığını bildirmişdim. Bundan sonra, adım sinfin "ən yaramaz" uşaqları arasında çəkilməyə başladı".

***Fidan HÜQUQQIZI, "Xalq qəzeti"***



## Atılmış qəsəbə – turizm obyekti

**Qətər Muzeylər Mərkəzi ölkənin şimalında yerləşən köhnə, tərk edilmiş Əl Mafyar qəsəbəsini müasir turistik məkana çevirmək üçün plan hazırlayır.**

Burada qədim əşyalardan da istifadə etməklə qəsəbəni mədəni əhəmiyyətli mərkəzə çevirmək üçün bir sıra işlər görülür.

Qeyd edək ki, bir vaxtlar müəyyən inkişaf prosesi keçmiş bu qəsəbənin, təxminən, 50 yaşı var.

***F.SALMANOVA, "Xalq qəzeti"***

## İdman xəbərləri

## Minifutbol yığmamız beşinci yerdədir



**Azərbaycanın minifutbol yığması dünya reytinqində 5-ci pilləyə yüksəlib. Avropa çempionatının qalibi olan komandamızın aktivində 2 min xal var.**

Reytinq cədvəlinə 3 min 550 xalla son dünya çempionu Meksika başçılıq edir. Çexiya (2 min 800) ikinci, Rumıniya (2 min 475) isə üçüncü pillədə qərarlaşıb. Dünya Minifutbol Federasiyası (WMF) Birləşmiş Ərəb Əmirliklərində keçiriləcək dünya çempionatından əvvəl milli komandaların reytinq cədvəlini açıqlayıb.

Qeyd edək ki, dünya çempionatı Ras-əl-Hayma şəhərində oktyabrın 26-dan noyabrın 4-dək keçiriləcək. Turnirin püşkatma mərasimi iyunun 20-də təşkil ediləcək.

## MMA döyüşçümüzün növbəti qələbəsi

**Azərbaycanın MMA döyüşçüsü Məhərrəm Həsənzadə növbəti qələbəsini qazanıb.**



İdmançımız Rusiyada təşkil olunan "AMC Fight Nights 120" turnirində yerli idmançı Vladimir Alekseevlə mübarizə aparıb.

Hakimlərin yekdil qərarı ilə döyüşçümüz qalib elan olunub.

## "Berlin-2023"ün açılış mərasimi

**Bu gün Almaniyanın Berlin şəhərindəki Olimpiya Stadionunda Ümumdünya Xüsusi Yay Olimpiya Oyunlarının rəsmi açılış mərasimi keçiriləcək. Azərbaycan nümayəndə heyəti "Berlin-2023"ün açılış mərasimində iştirak edəcək.**

SPECIAL OLYMPICS
WORLD GAMES
BERLIN 2023

Qeyd edək ki, iyunun 18-də Oyunlar start götürəcək. Azərbaycan Xüsusi Olimpiya Komitəsinin atletika, badminton, basketbol (qızlar), cüdo, bədii gimnastika, həndbol (qızlar), pauerliftinq (ağırlıqqaldırma), stolüstü tennis, üzgüçülük və voleybol (oğlanlar) idman növləri üzrə yığma komandalarından ibarət 72 nəfərlik nümayəndə heyəti yarışda iştirak edəcək.

Nümayəndə heyətinin əksəriyyəti təhsil sisteminin tam orta, inklüziv, xüsusi yardımçı məktəb və internatların fiziki tərbiyə müəllimləri və şagirdlərindən ibarətdir.

Oyunların bağlanış mərasimi iyunun 25-də İkonik Brandenburq qapısında baş tutacaq.

***Leyla SABİRQIZI, "Xalq qəzeti"***

## Çin 1 raketlə orbitə 41 peyk çıxarıb

**Bu günlərdə Çində "Böyük yürüş-2D" ("Long March-2D") daşıyıcı raketi ilə orbitə 41 peyk çıxarılıb. Bu, Çinin eyni daşıyıcı raketlə orbitə ən çox peyk çıxarmasıdır. Bundan əvvəlki rekord iyunun 7-də "Licien-1" raketi ilə orbitə 26 peykin çıxarılması olub.**



"Böyük yürüş-2D" raketinin orbitə çıxardığı peyklər torpaq ehtiyatlarının, mineral resursların və "ağıllı şəhər" layihələri üzrə məlumatların məsafədən zondlanması üçün istifadə olunacaq. Orbitə çıxarılmış obyektlərdən 36-sı "Cilin-1" seriyasındandır. Bununla orbitdəki "Cilin-1" peyklərinin sayı 108-ə yüksəlib.

***"Xalq qəzeti"***

## Sağlamlıq guşəsi

## Başda qan dövranını nə yaxşılaşdırır?

**Fitoterapistlərin fikrincə, qanın beyinə daha yaxşı getməsinə kömək edən bitkilər var ki, onların bir çoxu əsrlər boyu sınaqdan keçirilib.**



**Qıfotu.** Tərkibinə beyin toxumalarında maddələr mübadiləsini aktivləşdirən, həmçinin mikrosirkulyasiyanı yaxşılaşdırmaq, aterosklerotik çöküntülərin qarşısını almaq qabiliyyətinə malik olan alkaloidlər daxildir.

**Kəklikotu.** Təsadüfi deyil ki, bu ot işemiya və arterial təzyiqin müalicəsi üçün istifadə edilən əksər preparatlara daxildir. Fakt budur ki, kəklikotu qanın dəqiqəlik həcmini artırır, kiçik kapilyarlarda da qan dövranını yaxşılaşdırır.

**Valerian – pişikotu.** Yüngül sakitləşdirici təsirə malikdir, həmçinin beynin məlumat emalını stimullaşdırır. Effektiv və təhlükəsizdir. Çox istifadə edilir.

**Rozmarin.** Mərkəzi sinir sistemini patologiya riskindən qoruyur. İnsulinə bənzər təsiri var. Qeyd edək ki, rozmarinə mərzə, ət otu da deyirlər.

***Zərifə HÜSEYNLİ, "Xalq qəzeti"***

✓ 2020-ci ildə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi tərəfindən Vədatov Cahangir Nadir oğlunun adına verilmiş xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

## Proqnoz




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 17-22°, gündüz 25-30° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 754 mm civə sütunu, nisbi rütubət 55-65 faiz olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 22-23° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 24-25° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 16-21°, gündüz 29-34° , dağlarda gecə 7-12°, gündüz 12-17° isti olacaq.

***Q.QASIMOV, "Xalq qəzeti"***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova bacısı

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi jurnalist İlqar Əlfiyə oğlu

**TURAL QASIMOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Baş nazirinin birinci müavini Yaqub Eyyubova bacısı, Azərbaycan Tibb Universitetinin II uşaq xəstəlikləri kafedrasının professoru

**AMALİYA XANIMIN**

vəfatından kədərləndiyini bildiriir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5166
SİFARİŞ 1503
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır
00:00